RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 63 (9518) 28 mart 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ötən dövrün yekunu, yeni dövrün vəzifələri

## Yerinə yetirilmiş milli ideya - ərazi bütövlüyünün bərpası



***"Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir".***

Cənab İlham Əliyevin 2018-ci il prezident seçkilərindən sonra andiçmə mərasimində səsləndirdiyi bu fikirlərin nə qədər həqiqət olduğunun sonrakı dövrlərdə, habelə Zəfər müharibəsi və müharibədən keçən müddət ərzində dönə-dönə şahidinə çevrildik:

- Bəli, Azərbaycan dünyada müsbət və müasir imicə malikdir!
- Azərbaycanın mövqeləri möhkəm və sarsılmazdır!
- Azərbaycan bir sıra gərəkli və faydalı beynəlxalq layihələrin müəllifidir!
- Azərbaycan beynəlxalq qurum və təşkilatlarda fəal iştirak edir, faydalı təklif və təşəbbüslər irəli sürür, hamıya və hər kəsə mənfəət götürmək imkanı yaradır.

**Bütün bunların hamısı Prezident İlham Əliyevin irəlicədən dəqiqliklə hesablanmış, vaxtında reallaşdırılmış layihələri sayəsində baş verir.**

❖ ❖ ❖

*"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi".*

*Çox vacib bir məqam:*

- Yeni vəzifələr və hədəflər ən əvvəl Azərbaycanın dünyadakı yerindən və mövqeyindən irəli gəlir.
- Azərbaycanın dünyadakı yüksək siyasi nüfuzundan qaynaqlanır.
- Ölkəmizin Cənubi Qafqazın iqtisadi cəhətdən ən güclü dövləti və söz sahibi olmasından doğur.
- Ən nəhayət, Azərbaycan dövlətinin və xalqının milli maraqlarının qorunmasından və onların təminindən irəli gəlir.

BƏS YENİ HƏDƏFLƏR HANSILARDIR?

Cənab İlham Əliyev yeni hədəfləri bütövlükdə belə xarakterizə edir:

*"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".*

Yeni dövrün yeni vəzifəsini isə İlham Əliyev belə ifadə etdi:

*"Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir".*

→ 4-5

# İlham Əliyev Vladimir Putinə başsağlığı verib

Martın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Dövlətimizin başçısı "Crocus City Hall" konsert zalında törədilmiş terror aktı nəticəsində xeyli sayda insanın həlak olması ilə bağlı öz adından və Azərbaycan xalqı adından Vladimir Putinə, Rusiya xalqına, həlak olanların ailə üzvlərinə və yaxınlarına bir daha başsağlığı verib, bütün yaralananların tezliklə sağalmasını arzulayıb.

Prezident İlham Əliyev Azərbaycan tərəfinin bu dəhşətli terror aktını qətiyyətlə pislədiyini bildirərək ölkəmizin və xalqımızın bu ağır saatlarda Rusiyanın və Rusiya xalqının yanında olduğunu qeyd edib.



Rusiya Prezidenti başsağlığına və göstərilən həmrəyliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları gələcəkdə də terrorçuluğa qarşı mübarizə sahəsində birgə səylərin davam etdiriləcəyini vurğulayıblar.

***Prezidentin Mətbuat Xidməti***

### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

"Crocus City Hall" konsert zalında baş vermiş dəhşətli terror aktı xəbəri bizi dərindən sarsıtdı.

Bu terror aktını şiddətlə qınayır, Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, Rusiya xalqına və həlak olmuş şəxslərin ailələrinə və yaxınlarına səbir, yaralananlara isə tezliklə şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 mart 2024-cü il*

# Novruz bizlərə ümid və bərəkət dolu günləri müjdələyir



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, Əziz Qardaşım!

Hər il təbiətin canlanmasını qeyd etdiyimiz və torpağın oyanışının rəmzi olan Novruz bayramı münasibətilə zati-alinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Əsrlərə söykənən qədim ənənə olan Novruz bizlərə ümid və bərəkət dolu günləri müjdələyir. Ortaq mədəniyyətimizin mühüm hissəsi olan bu əlamətdar gündə dostluq və qardaşlıq əlaqələrimizin daha da güclənəcəyinə əminəm.

2024-cü ilin bizlər üçün yeni fürsətlərin və uğurların yaşanacağı bir il olmasına ümid edirəm. Ölkələrimiz arasındakı əlaqələrin güclənərək inkişaf etməsi və ortaq hədəflərimizə birlikdə nail olunması yolunda daha sıx əməkdaşlıq etmək arzusu ilə zati-alinizə, dost və qardaş Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik və firavanlıq diləyirəm.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

# Birinci vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə paylaşım edib




"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, sevinc, səadət və uzun ömür arzulayıram! Təbriklərə və xoş arzulara görə hər kəsə minnətdaram. Sevginizə, səmimiyyətinizə, hörmət və diqqətinizə görə çox sağ olun! Qoy təbiətin oyanması və yenilənməsinin rəmzi olan bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onların doğmalarına və yaxınlarına dözüm və səbir versin. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

*Dərin hörmət və sevgilərlə,*

**Sizin MEHRİBAN".**

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

Möhtərəm Mehriban xanım!

Min illərdir ortaq adət-ənənəmiz olan, ümid, yenilənmə və həmrəylik bayramı Novruz münasibətilə zati-alinizi və qardaş Azərbaycan xalqını Türk milləti adından və şəxsən öz adımdan ən səmimi hisslərimlə təbrik edirəm.

Novruzun rəmzi olan sevgi, birlik və qardaşlığı ölkələrimizdən və bölgələrimizdən kənara bərabər çatdırmaq ümidi ilə zati-alinizə sağlamlıq, xoşbəxtlik və uğurlar, dost və qardaş Azərbaycan xalqına isə firavanlıq və əmin-amanlıq dolu bir il arzulayıram.

***Cevdet YILMAZ,***
***Türkiyə Respublikasının vitse-prezidenti***

# İlham Əliyevin ədalətli və qətiyyətli siyasəti sülhün yeganə qarantıdır

## Qərb Cənubi Qafqazda yeni savaş ssenarisi hazırlayır

Martın 18-də Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb xalqa bayram təbrikini ünvanlayarkən İlham Əliyev bir daha Azərbaycanı istəməyən, regionda yenidən münaqişə ocağının yaranmasına çalışan qüvvələrə mesaj ünvanladı: "İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq".

Azərbaycan Prezidenti deyir ki, Cənubi Qafqazda sülh istəməyən qüvvələrin Ermənistandan bir alət kimi istifadə etməklə öz maraqlarını həyata keçirmək cəhdləri baş tutmayacaq. Bu prosesdə ən ağır zərbə yenə də məğlub Ermənistana dəyəcək.

→ 9

# İftira və yalanlar, yaxud Solovyovun məsuliyyətsizliyi

Teleaparıcı V.Solovyovun ölkəmizə qarşı qərəzli mövqe tutması ilk dəfə deyil. Onun erməni əsillilər - rusiyalı jurnalist Marqarita Simonyanla və media maqnatı Aram Qabrielyanovla dostluğunu təsdiqləyən faktlar həm Rusiya, həm Azərbaycan, həm də dünya ictimaiyyətinə çoxdan məlumdur. Adlarını çəkdiyimiz bu yaramazlar hələ 2016-cı ildə ölkəmizi terrorçu İŞİD-lə əlaqələndirməyə çalışmışdılar. Ona görə də Solovyovun "Crocus City Hall" olayı ilə bağlı eyni çirkin dəst-xəti bizə çoxdan tanışdır. Solovyovun da, ona bu sözləri dedirdənlərin də başlıca məqsədi Azərbaycan-Rusiya münasibətlərinə ziyan vurmaqdır. Əminliklə demək olar ki, solovyovlar və onun tərəfdarları məqsədlərinə heç vaxt çatmayacaqlar. Çünki Azərbaycan və Rusiya arasındakı monolit dostluğu və mehribançılığı yalançı bir teleaparıcının sərsəm fikirləri korlaya bilməz. Yaxşı deyiblər ki, milçək bir şey deyil, sadəcə olaraq vızıltısı ürək bulandırır. Solovyovun həqiqətdən uzaq fikirləri də yalnız və yalnız ürək bulandırır.

→ 9

# Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Asif Əli Zərdariyə

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı - Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Pakistan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi bizi sevindirir. Dini-mədəni köklər və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin gündən-günə genişlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın güclənməsi məmnunluq doğurur.

Bu gün siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə səmərəli əməkdaşlığımız ölkələrimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edərək onları bir-birinə daha da yaxınlaşdırır. Aramızdakı fəal siyasi dialoq qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Biz Pakistana Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Əminəm ki, Azərbaycan-Pakistan çoxşaxəli münasibətlərinin inkişafı, əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə və qətiyyətlə həyata keçirəcəyik.

Belə bir bayram günündə Sizə ən xoş arzularımı çatdırır, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2024-cü il*

# Pakistan İslam Respublikasının Baş naziri zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

Hörmətli cənab Baş nazir!

23 Mart - Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir və ən xoş arzularımı çatdırıram.

Pakistan Azərbaycanın yaxın dostu, qardaşı və etibarlı tərəfdaşıdır. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişləndirilməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. Ali səviyyədə qarşılıqlı anlaşma və intensiv siyasi dialoq bunun üçün əlverişli zəmin və imkanlar formalaşdırmışdır.

Qardaş ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq strukturlar çərçivəsində səmərəli əməkdaşlığı və bir-birini dəstəkləməsi məmnunluq doğurur. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına Pakistanın davamlı dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı hər zaman yüksək qiymətləndirir.

Hazırda istər iqtisadi-ticari, istərsə də nəqliyyat, enerji, müdafiə, humanitar və digər sahələrdə qarşılıqlı fəaliyyətimizin genişlənməsi üçün yaxşı şərait mövcuddur. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Pakistan ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, çoxşaxəli əməkdaşlığımızı inkişaf etdirmək və strateji tərəfdaşlığımızı daha da dərinləşdirmək naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə Bakıda görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2024-cü il*

# Banqladeş Xalq Respublikasının Prezidenti zati-aliləri cənab Məhəmməd Şahabuddinə

Hörmətli cənab Prezident!

Banqladeş Xalq Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Banqladeş arasındakı dostluq münasibətlərinin inkişafı, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Banqladeş xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2024-cü il*

# E.S.Babayevin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Bakı Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 mart 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Bu ilin fevral ayında Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə əldə etdiyiniz qələbə münasibətilə Sizə böyük məmnunluq hissi ilə təbriklərimi çatdırıram.

Mən xalqlarımız arasında dostluq və əməkdaşlıq əlaqələrini davam etdirmək arzusunda olduğumu bildirirəm.

Ümidvaram ki, Sizin rəhbərliyiniz bundan sonra da bütün Azərbaycan xalqına firavanlıq gətirəcəkdir.

*Hörmətlə,*

***Daniel Noboa AZİN,***
***Ekvador Respublikasının Konstitusional Prezidenti***

❖❖❖

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu yaxınlarda ölkələrimizin xarici işlər nazirləri arasında ikitərəfli əlaqələrimizin inkişafına xidmət edən olduqca məhsuldar telefon danışığının baş tutması məni çox məmnun etmişdir.

Əlaqələrimizin özülünü təşkil edən dostluq və hörmət prinsiplərinə əsaslanaraq, ölkələrimizin rifahı naminə qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığımızı və iqtisadi əlaqələrimizi gücləndirmək məqsədilə səylə işləməkdə davam edəcəyimi bir daha vurğulamaq istəyirəm.

Sizə yeni prezidentlik dönəminizdə bir daha ən səmimi təbriklərimi çatdırır və fürsətdən istifadə edərək, dərin hörmət və ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Xavyer MİLEY,***
***Argentina Respublikasının Prezidenti***

# Baş nazir Əli Əsədov Rusiya Hökumətinin sədri Mixail Mişustinə başsağlığı verib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinə başsağlığı məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Baş naziri məktubunda Moskvadakı "Crocus City Hall" konsert zalında terror aktı nəticəsində çoxsaylı insan tələfatı və yaralananların olması xəbərindən dərin hüznlə kədərləndiyini bildirib.

Əli Əsədov həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzuladığını qeyd edib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının və Dövlət Dumasının sədrlərinə başsağlığı verib

Martın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkoya və Dövlət Dumasının sədri Vyaçeslav Volodinə başsağlığı məktubları ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin sədri "Crocus City Hall" konsert zalında baş vermiş faciəvi hadisələr nəticəsində dinc sakinlərin həlak olmasından sarsıldığını və kədərləndiyini bildirib. Məktublarda Milli Məclisin Sədri bu dəhşətli terror aktını şiddətlə qınayıb, bu hadisəylə bağlı öz adından və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından bütün Rusiya xalqına, Federasiya Şurasının və Dövlət Dumasının üzvlərinə, həlak olanların doğmalarına başsağlığı verib, xəsarət alanlara şəfa diləyib.

***"Azərbaycan"***

# "Global Times" qəzeti Azərbaycan-Çin münasibətlərini "Dostluğun qızıl standartı" hesab edir

Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən olan "Global Times" qəzeti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə müsahibə əsasında "Dostluğun qızıl standartı" adlı məqalə dərc edib.


IN-DEPTH
Gold standard friendship
Chinese companies diversify Azerbaijan's economy and can do more in country's green growth: top diplomat

AZƏRTAC xəbər verir ki, H.Hacıyev qəzetin əməkdaşı Sie Ventin növbədənkənar prezident seçkilərində qalib gələn Prezident İlham Əliyevin liderliyində Azərbaycanın Çin ilə münasibətlərinə, ölkəmizin xarici siyasətində Çinin yerinə, Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyinə, iki ölkənin iqlim dəyişikliyinə qarşı mübarizə üzrə əməkdaşlığına, Çinin qlobal inkişafdakı payına dair suallarını cavablandırıb.

Administrasiya rəsmisi bildirib ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Prezident İlham Əliyev ölkənin inkişafı ilə bağlı yeni prioritetlər müəyyən edib. Ölkəmizin yaxın dost və tərəfdaşı olan Çin ilə münasibətlərin inkişafı da Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısı Azərbaycanın Çin ilə strateji əməkdaşlığının və tərəfdaşlığın genişləndirilməsində, yeni səviyyəyə qaldırılmasında maraqlıdır. İki ölkə arasında əla siyasi münasibətlər, iqtisadi-ticarət, o cümlədən enerji, nəqliyyat sahələrində yaxın əməkdaşlıq var. Azərbaycan Vahid Çin prinsipini daim dəstəkləyir.

Şöbə müdiri bildirib ki, Azərbaycan ilə Çin arasında iqtisadi-ticari sahədə əməkdaşlıq üçün olduqca böyük potensial var. Azərbaycan Çini təkcə dost ölkə deyil, həm də bilik, təcrübə və texnoloji tərəqqi mənbəyi kimi qəbul edir. Prezident İlham Əliyev bu amilləri nəzərə alaraq Çin ilə əməkdaşlığı Azərbaycanın prioritetlərindən biri kimi müəyyənləşdirib. İki ölkə arasında iqtisadi-ticari münasibətlər davamlı inkişaf edir, Çin şirkətləri Azərbaycan iqtisadiyyatının diversifikasiyasında iştirak edir. Bununla belə ölkələrimizin iqtisadi əməkdaşlığı üçün daha geniş imkanlar var. Azərbaycan milli prioritetlərdən biri olan rəqəmsal və "yaşıl keçid" sahələrində Çini tərəfdaş kimi görür. Bu istiqamətdə əməkdaşlıq çərçivəsində Azərbaycanda bərpaolunan enerji avadanlığı və elektrik avtomobillərinin birgə istehsalı mümkündür.

Azərbaycan-Çin əməkdaşlığında "Bir kəmər, bir yol" təşəbbüsünü xüsusi vurğulayan Prezidentin köməkçisi bu xüsusda Orta dəhlizin əhəmiyyətini qeyd edib, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Çin ilə Avropa arasında vacib bağlantını təmin etdiyini deyib.

Azərbaycanın COP29-a evsahibliyindən danışan şöbə müdiri H.Hacıyev bildirib ki, bu tədbirin Azərbaycanda keçirilməsinə dair qərar beynəlxalq ictimaiyyətin ölkəmizə hörmət və etimadının göstəricisidir. Qazıntı yanacağı ixrac edən Azərbaycan yerli, regional və qlobal səviyyədə mövcud keçid layihəsini və gündəmini həyata keçirmək üçün güclü iradə və qətiyyət nümayiş etdirib. İqlim dəyişikliyi hamı üçün əsas çağırışdır və qlobal ictimaiyyətin buna qarşı səylərini birləşdirməsi vacibdir. Azərbaycan COP danışıqlar prosesinin bütün fundamental aspektləri üzrə qlobal səviyyədə daha çox həmrəylik və konsensusa nail olmağı hədəfləyir.

Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə sahəsində Qlobal Cənub və Qlobal Şimal arasında anlaşma və həmrəyliyin qurulmasına çalışacağını bildirən administrasiya rəsmisi əlavə edib ki, ölkəmiz COP29 ilə əlaqədar fundamental məsələlər üzrə bütün tərəflərlə dialoqa və qarşılıqlı fəaliyyətə açıqdır. Çin Xalq Respublikası dünyanın aparıcı ölkələrindən biridir. Ona görə də danışıqlar prosesində Çinin mövqeyini anlamaq üçün ilkin məsləhətləşmələrin və müzakirələrin aparılması bizim üçün çox vacibdir.

H.Hacıyev müsahibəsində bəzi media orqanlarında Çin sərmayələrinin və şirkətlərinin "təhlükəsizlik təhdidi" kimi təqdim olunmasını Çinə qarşı ədalətsiz yanaşma kimi şərh edərək, Çin texnologiyasının dünyada ən yaxşılardan biri olduğunu, ölkəmizdə rəqəmsal keçid prosesində də Çin məhsullarından istifadə olunduğunu diqqətə çatdırıb.

İqtisadi inkişafın ədalətli rəqabətə əsaslanmalı olduğunu vurğulayan H.Hacıyev, bəzi ölkələrin təhlükəsizlik və digər mövzularda lazımsız təbliğatla məşğul olduqlarını, bunun dürüst rəqabətə və iqtisadi inkişafa mane olduğunu bildirib. Bəzi ölkələrdə Çin şirkətlərinə qarşı aparılan təbliğat təəssüf doğurur. Bu, Azərbaycanın gündəliyinə uyğun deyil. Çinli tərəfdaşlarla birgə iş ölkəmizin texnoloji inkişafına kömək edir.

Şöbə müdiri Çinin tərəqqisinin, qlobal inkişafa töhfələrinin dost ölkələri sevindirdiyini, Çinin irəli sürdüyü qlobal təşəbbüslərin əməkdaşlığı və inkişafı təşviq etdiyini bildirib. Çin COVID-19 pandemiyası dövründə "peyvənd milliyyətçiliyi" nümayiş etdirən bəzi Qərb ölkələrindən fərqli olaraq, ehtiyacı olan ölkələrə peyvənd tədarük edib. Dövlətimizin başçısının Çin liderinə müraciətinə cavab olaraq, Çin Azərbaycana vaksin göndərərək xalqımızın sağlamlığı və rifahına öz töhfəsini verib. Bu həmrəylik aktı ölkələrimiz arasında mövcud olan tərəfdaşlıq nümunəsidir.

# Çinin CGTN kanalının "Mərkəz" proqramının xüsusi buraxılışı Azərbaycana həsr olunub




Çin Mərkəzi Televiziyasının və Çin Beynəlxalq Radiosunun daxil olduğu "China Media Group" media korporasiyasının ingilisdilli CGTN kanalının "Mərkəz" proqramının xüsusi buraxılışı Azərbaycana həsr edilib.

AZƏRTAC xəbər verir ki, rəsmi şəxslərlə, nüfuzlu ictimai-siyasi xadimlərlə aktual mövzular ətrafında müsahibələr əsasında hazırlanan verilişin aparıcısı Van Quan proqramın əvvəlində ötən il Bakıda Prezident İlham Əliyevlə müsahibəsini, dövlətimizin başçısının Azərbaycan-Çin münasibətləri, bu əlaqələrin inkişafı ilə bağlı fikirlərini xatırladıb.

Proqramın qonağı olan Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev aparıcının ölkəmizin xarici siyasətinə, Azərbaycan ilə Çinin siyasi, iqtisadi-ticari, humanitar və digər sahələrdə əməkdaşlığına, əlaqələrin inkişaf perspektivlərinə, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü və onun tərkib hissəsi olan Orta dəhliz üzrə əməkdaşlığa, Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq məsələlərinə dair və digər mövzularda suallarını cavablandırıb.

H.Hacıyev Prezident İlham Əliyevin Azərbaycan-Çin əməkdaşlığının və tərəfdaşlığının daha da inkişaf etdirilərək keyfiyyətcə yeni səviyyəyə qaldırılmasında maraqlı olduğunu vurğuladığını, iki ölkə arasında münasibətlərin ənənəvi dostluğa əsaslandığını, siyasi əlaqələrdə qarşılıqlı etimadın və dialoqun formalaşdığını, iqtisadi-ticari, mədəni-humanitar sahələrdə səmərəli əməkdaşlığın qurulduğunu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini bildirdiyini diqqətə çatdırıb. Azərbaycanın vahid Çin prinsipini dəstəkləməsi və Çinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə daim dəstəyi qeyd olunub. Prezidentin köməkçisi yüksəksəviyyəli mütəmadi qarşılıqlı səfərlərin iki ölkənin əməkdaşlığının, dialoqunun möhkəmlənməsi baxımından əhəmiyyətini vurğulayıb.

Bu ilin fevralında ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkiləri ilə bağlı sualı cavablandıran Hikmət Hacıyev bildirib ki, həmin seçkilər müstəqil Azərbaycanın tarixində ölkənin bütün suveren ərazisində keçirilmiş ilk seçkilər kimi tarixə düşüb. Çünki Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra hərbi təcavüz və separatizm səbəbindən ölkənin bütün ərazisində seçkilərin keçirilməsi mümkün olmamışdı. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev 2003-cü ildə ilk dəfə dövlət başçısı seçiləndə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edəcəyinə dair xalqa verdiyi vədi yerinə yetirməyə müvəffəq olub. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Regionda Azərbaycanın yaratdığı status-kvo ədalətə, beynəlxalq hüquqa əsaslanır. Fevralda keçirilmiş və Prezident İlham Əliyevin inamlı qələbəsi ilə nəticələnmiş seçkilər Azərbaycan tarixi üçün mühüm hadisə olmaqla yanaşı, ölkəmizin yeni hədəflərə yolunu da açıb. Bu gün rəsmi Bakı daha fəal xarici siyasət yürütməkdə qlobal məsələlərin həllində daha aktiv rol oynamaqda maraqlıdır.

Proqramda qeyd olunub ki, son illər Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əlaqələrin genişlənməsində "Bir kəmər, bir yol" təşəbbüsü xüsusi rol oynayır. Bu xüsusda Orta dəhlizin imkanlarından maksimum dərəcədə istifadə olunmasının gələcəkdə iqtisadi-ticari münasibətlərə böyük töhfələr verəcəyi vurğulanıb. Həmçinin Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə xüsusi əlaqələrini nəzərə alaraq Çin-Mərkəzi Asiya-Azərbaycan formatında əməkdaşlıq imkanlarından bəhs edilib. Bildirilib ki, Azərbaycan tərəfdaş ölkələrlə birlikdə bu ticarət və nəqliyyat dəhlizinin daha səmərəli şərtlərlə fəaliyyəti üçün davamlı iş aparır.

Verilişdə Azərbaycan və Çinin ikili standartlarla üzləşməsi, bəzi Qərb ölkələrinin digərlərinin daxili işlərinə qarışması, başqalarına dərs keçmək və ya moizə oxumaq cəhdləri qınanılıb.

Verilişdə Azərbaycanda "yaşıl keçid", "yaşıl inkişaf" siyasətindən söz açılıb, bu istiqamətdə Çinin rəsmi Bakının vacib tərəfdaşı olduğu, ölkələrimizin sözügedən sahədə yaxşı əməkdaşlıq imkanlarının mövcudluğu diqqətə çatdırılıb. Qeyd olunub ki, COP29-a evsahibliyi barədə qərar zəngin neft-qaz ehtiyatlarına malik Azərbaycanın "yaşıl keçid"lə bağlı qəti iradəsinin təcəssümüdür. Bu cür tədbirlər Azərbaycanın "yaşıl keçid", rəqəmsal inkişaf ilə bağlı prioritetlərinin həyata keçməsinə töhfə verəcək. Azərbaycanın COP29 çərçivəsində Qlobal Cənub və Qlobal Şimal arasında həmrəyliyə, konsensusa nail olmaq istiqamətində çalışacağı, inkişaf etməkdə olan, az inkişaf etmiş ölkələr və ətraf mühit dəyişmələrinin fəsadları ilə daha qabarıq şəkildə üzləşmiş kiçik ada ölkələrinin problemlərinin eşidilməsi üçün səylərini əsirgəməyəcək.

Proqramda iki ölkə arasında turizm əlaqələrindən də söz açılıb, bu xüsusda dünyanın ən böyük turist bazarlarından olan Çindən ölkəmizə daha çox səyahətçinin cəlb olunması üçün görülən işlərdən danışılıb. Eyni zamanda Çin vətəndaşları üçün sadələşdirilmiş viza rejiminin, Bakı ilə Pekin arasında birbaşa uçuşların bu işə töhfə verdiyi vurğulanıb, Azərbaycan ilə Çinin regionları arasında əməkdaşlıqdan bəhs olunub.

# Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfər edib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti martın 22-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfərə gedib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinə deputatlar Elnur Allahverdiyev, Soltan Məmmədov, Sevil Mikayılova, Kamran Bayramov, Əminə Ağazadə, Şahin İsmayılov, Səbinə Xasayeva, Parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər. Cenevrə Beynəlxalq Hava Limanında nümayəndə heyətini BMT-nin Cenevrə bölməsində və digər beynəlxalq təşkilatlar yanında Azərbaycanın daimi nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində spiker Sahibə Qafarova Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında və Asiya Parlament Assambleyasının koordinasiya iclasında iştirak edib. Milli Məclisin Sədri bir sıra ölkələrin parlament sədrləri və nümayəndə heyətlərinin rəhbərləri ilə görüşüb.

*"Azərbaycan"*

# Asiya Parlament Assambleyası parlament diplomatiyasının mühüm platformasıdır

## Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə APA-nın Koordinasiya iclası keçirilib

Martın 23-də Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 148-ci Assambleyası çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının (APA) Koordinasiya iclasına sədrlik edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçılarını salamlayan Milli Məclisin Sədri bildirib ki, bu, APA-nın Parlamentlərarası İttifaq çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən ilk koordinasiya iclasıdır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2024-cü ilin 20-24 fevral tarixlərində Bakıda "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın təşviqi" mövzusuna həsr olunmuş APA-nın 14-cü plenar iclası keçirilib. Bu plenar iclasda Azərbaycan rəsmi olaraq 2024-2025-ci illər üçün təşkilatın sədri seçilib. O, inamını ifadə edib ki, bu, həm APA, həm də Azərbaycan üçün yeni səhifə açacaq.

Spiker Sahibə Qafarova qeyd edib ki, APA-nın 14-cü plenar iclası 26 dövlətin və 8 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə təşkilat daxilində əməkdaşlığın inkişafı, regional və beynəlxalq proseslərlə bağlı ümumi maraq doğuran müxtəlif məsələlər barədə fikir mübadiləsi aparmaq üçün dəyərli imkan yaradıb. Plenar iclasın yekunları üzrə Bakı Bəyannaməsi qəbul edilib və sənəddə iştirakçıların müzakirə olunan məsələlərlə bağlı ümumi mövqeyi əks olunub.

Çıxışda qeyd olunub ki, 14-cü plenar iclasda, hamımızın daha qətiyyətli davranmağımızı tələb edən iqlim dəyişikliyi məsələsi də müzakirə edilib. Milli Məclisin Sədri bununla əlaqədar bildirib ki, ötən ilin sonunda beynəlxalq ictimaiyyət COP29-un keçirilməsi üçün yekdilliklə Azərbaycanı seçib. Spiker diqqətə çatdırıb ki, belə bir mühüm tədbirə evsahibliyi etmək bizim üçün böyük şərəf və imtiyazdır. Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindən biridir və qlobal Şimalla qlobal Cənub arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Azərbaycan COP29 iqlim danışıqlarında nəzərəçarpacaq irəliləyiş əldə etmək və hərtərəfli danışıqlara kömək etmək üçün ideal mövqedə yerləşir.

Spiker bu görüşün rolu daim artan parlament diplomatiyasının möhkəmlənməsi və inkişafı məqsədinə xidmət edəcəyinə ümidini ifadə edib. O deyib ki, müasir şəraitdə parlament diplomatiyası ölkələr arasında etimadı gücləndirə və mövcud beynəlxalq və regional problemlərin həllinə müsbət təsir göstərə bilər. Parlamentin böhranların, münaqişələrin həlli prosesində iştirakı və parlament diplomatiyası klassik hökumət diplomatiyasını uğurla tamamlaya bilər və ona əvəzsiz töhfə verə bilər.

Parlamentlərarası təşkilatların fəaliyyətinin genişləndirilməsinə yönəlmiş qlobal tendensiyalar, parlamentlərarası əməkdaşlığı tənzimləyən normativ-hüquqi bazanın inkişafı, parlamentlərin qlobal qərar qəbuletmə proseslərində daim artan iştirakı - bütün bunlar parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini göstərir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu kontekstdə APA-nın rolu xüsusi vurğulanmalıdır. Bu, Asiyada və dünyada əməkdaşlığın, sülhün və sabitliyin möhkəmlənməsinə nail olmaq üçün cari məsələlərin və çağırışların həlli üçün ümumi səyləri birləşdirən parlament diplomatiyasının mühüm platformasıdır. Biz bu platformanın səmərəliliyini artırmaq üçün bütün tədbirləri görməliyik.

Spiker çıxışının sonunda qeyd edib ki, biz müzakirə olunan məsələlərlə yanaşı, iki təşkilatın - APA və Parlamentlərarası İttifaqın ümumi məqsədlərin həyata keçirilməsində daha yaxşı nəticələr əldə etmək üçün fəaliyyətlərini və səylərini necə əlaqələndirə biləcəyi barədə də ciddi düşünməliyik. Həqiqi əməkdaşlıq mexanizmlərinin yaradılması hər iki tərəfin resurslarını artırmağa kömək edə bilər. Bu, şübhəsiz ki, onların bir-birinin fəaliyyətini tamamlayacaq və parlament diplomatiyasının təsirini gücləndirəcək.

İclas daha sonra APA-ya üzv olan ölkələrin parlament nümayəndələrinin Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında APA-nın ümumi mövqeyinin ifadə olunması, həmçinin təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında çıxışları ilə davam etdirilib.

***R.İSLAMOĞLU,***
*"Azərbaycan"*

# Parlamentlər sülh və təhlükəsizliyə mühüm töhfələr verə bilərlər

## Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında çıxış edib

Milli Məclisin Sədri və Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin rəhbəri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında "Parlament diplomatiyası: sülh və qarşılıqlı anlaşma üçün körpülərin salınması" mövzusunda çıxış edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçılarını salamlayan Milli Məclisin spikeri Parlamentlərarası İttifaqın 148-ci Assambleyasının işinə uğurlar arzulayıb. O, sülh, təhlükəsizlik və qarşılıqlı anlaşma məsələsinin qurumun 2024-cü il üçün strateji siyasət istiqaməti və müzakirələrin mövzusu kimi seçilməsinin önəmini vurğulayaraq, bildirib ki, sülh və qarşılıqlı anlaşma məsələsi böyük əhəmiyyət qazanaraq həlledici bir amilə çevrilib. Daha yaxşı bir dünyaya olan ümidlərimiz sülh və qarşılıqlı anlaşma ilə sıx bağlıdır.

Sahibə Qafarova bu gün dünyanın daha parçalanmış və daha təhlükəli hala gəlməsindən söz açaraq bildirib ki, bunun beynəlxalq qaydalara əməl olunmamasının, ikili standartların və müəyyən dövlətlərin maraqlarının üstünlük təşkil etməsinin nəticəsi kimi çoxtərəfli mexanizmlərin səmərəsizliyi ilə əlaqələndirildiyi barədə müzakirələr var.

Spiker diqqətə çatdırıb ki, bu məsələlər bir neçə gün əvvəl Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən 68 ölkədən 400-dən artıq yüksəksəviyyəli qonağın iştirak etdiyi XI Qlobal Bakı Forumu çərçivəsində "Parçalanmış dünyanın bərpası" mövzusunda geniş müzakirə olunub.

Birləşmiş Millətlər Təşkilatının mərkəzində dayanan daha güclü, daha səmərəli və çoxtərəfli inklüziv sistemin yaradılması zərurəti ilə bağlı ümumi konsensusun mövcudluğuna diqqət çəkən spiker bildirib ki, bu sistem beynəlxalq hüququn ümumi qəbul edilmiş norma və prinsiplərinin ciddi şəkildə, ayrı-seçkilik qoymadan tətbiqinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinə, ədalətin qorunmasına əsaslanmalıdır. Vurğulanıb ki, bu, hamımızın nail olmağa çalışdığı sülhü və anlaşmanı bərpa etmək və qorumaq üçün bir ön şərtdir.

Milli Məclisin Sədri parlament diplomatiyasının artan əhəmiyyətinə toxunaraq, parlamentlərin sülh və qarşılıqlı anlaşmaya nail olmaqda rolu barədə fikirlərini bölüşüb. O, deyib ki, parlament diplomatiyası qlobal problemlərin həllində çoxtərəfliliyin və beynəlxalq əməkdaşlığın qorunub saxlanılmasının hər zamankından daha vacib olduğu mövcud beynəlxalq çətinliklər kontekstində ölkələrarası əlaqələrdə mühüm amilə çevrilib. Onun sözlərinə görə, daha geniş bir perspektivdən baxılmalı olan sülh və təhlükəsizlik problemlərinə qarşı parlamentləri təkbaşına bir vasitə kimi görmək həddindən artıq nikbinlik olardı. Lakin dialoqun sülh üçün əsas tələb olması konsepsiyasını nəzərə alsaq, parlamentlər sülhə və qarşılıqlı anlaşmaya körpü salmaq üçün effektiv əlavə mənbəyə çevrilirlər. Xalqın nümayəndələri olaraq parlamentlər etimad, təhlükəsizlik və sülh içində dinc birgə yaşamaq kimi məsələlərin həllinə mühüm töhfələr verə bilərlər.

Milli Məclisin Sədri bu kontekstdə PAİ rəhbərliyinin, xüsusən də baş katib Martin Çunqonqun Azərbaycan və Ermənistan parlamentlərinin spikerlərinin ilk görüşü üçün platforma təqdim etməsində rolunu yüksək qiymətləndirib. O bildirib ki, bu gün hər iki ölkə sülhə əvvəlkindən daha yaxındır. İki ölkənin parlamentləri arasında bu cür görüşlər konstruktiv müzakirələr üçün faydalı mexanizm olacaq.

Spiker Sahibə Qafarova xüsusilə söyləyib ki, bəyan edilmiş hədəflərindən yayınan digər bəzi parlamentlərarası təşkilatlardan fərqli olaraq, PAİ dialoq baxışına sadiq qalır və tərəflər arasında təmaslara körpü yaratmaq kimi mühüm rol oynayır.

Sülh və qarşılıqlı anlaşmanın bu gün qarşılaşdığımız qlobal problemlərin həlli üçün ilk və ən vacib şərt olduğunu ifadə edən Sahibə Qafarova sülh və qarşılıqlı anlaşma olmadan qlobal və təcili cavab tədbirləri tələb edən problemlərin birgə həlli üçün lazım olan həmrəyliyi və səmimi dialoqu təmin etməyin çətinliyini diqqətə çatdırıb. Kollektiv səy tələb edən ən böyük problemlərdən birinin iqlim dəyişikliyi olduğunu bildirən spiker deyib ki, gələcək nəsillərin taleyi bu gün atacağımız addımlardan asılıdır.

Ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının iyirmi doqquzuncu sessiyasının ev sahibi olaraq seçilməsini və tədbirin bu ilin noyabr ayında Bakıda keçirilməsinin nəzərdə tutulmasını Azərbaycanın təkcə milli deyil, həm də regional və qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizə səylərinin tanınması kimi qiymətləndirən Milli Məclisin Sədri bizim bundan böyük şərəf duyduğumuzu və bu məsələdə məsuliyyəti dərk etdiyimizi deyib. Sahibə Qafarova bildirib ki, ümumi iş naminə toplumları və ölkələri birləşdirmək potensialına malik olan Azərbaycan beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyinə yönəlmiş, ədalətli və dayanıqlı gələcəyin gerçəkləşdirilməsi səylərini istiqamətləndirməyə hazırdır.

İqlim dəyişikliyi ilə mübarizə tədbirlərini təşviq etmək və hədəflərimizə çatmaq üçün bütün tərəflərin iştirakının vacibliyini vurğulayan spiker Sahibə Qafarova deyib ki, davamlı və firavan gələcək üçün ortaq baxışları yalnız konstruktiv əməkdaşlıq, daha böyük məsuliyyət və kollektiv fəaliyyət sayəsində həyata keçirə biləcəyik.

Parlamentlərarası İttifaqın iqlim dəyişikliyini təcili müdaxilə tələb edən dörd prioritet sahədən biri olaraq təyin etməsinə diqqət çəkən Sahibə Qafarova Parlamentlərarası İttifaqın parlamentlərin iqlim dəyişikliyi ilə mübarizə və iqlim dəyişikliyi fəaliyyətlərini səfərbər etmək səylərini dəstəkləmək istiqamətində böyük yol qət etdiyini bildirib.

Spiker diqqətə çatdırıb ki, bu məsələnin Parlamentlərarası İttifaqın fəaliyyəti üçün xüsusi əhəmiyyətini nəzərə alaraq və Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Parlamentlərarası İttifaqla birlikdə COP-29 çərçivəsində parlament görüşü təşkil etməyi planlaşdırır. Bildirilib ki, bu görüş parlamentarilərə iqlim dəyişikliyi ilə mübarizədə fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizəyə dair hansı təkliflər verə biləcəklərini müzakirə etmək üçün mühüm imkanlar yaradacaq.

***Rəşad CƏFƏRLİ,***
*"Azərbaycan"*

# Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında anlaşma memorandumu imzalanıb




Martın 22-də Parlamentlərarası İttifaqın Cenevrədə keçirilən 148-ci Assambleyası çərçivəsində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında anlaşma memorandumu imzalanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi tərəfindən sənədi Azərbaycan Respublikası Milli Məclisinin və Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarova, Parlamentlərarası İttifaq tərəfdən isə qurumun baş katibi Martin Çunqonq imzalayıb.

İmzalanma mərasimindən sonra bildirilib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi parlament diplomatiyasının genişlənməsində, həmçinin Qoşulmama Hərəkatına üzv olan ölkələrin qanunvericilik orqanları arasında əməkdaşlığın dərinləşməsində mühüm rol oynayır. Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlıq isə bu istiqamətdə fəaliyyətin şaxələndirilməsinə xidmət edəcəkdir.

Görüşdə həmçinin Azərbaycan Respublikasının Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında əlaqələrin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub.

İmzalanmış memorandum bu iki qurum arasında əlaqələrin genişlənməsinə, parlament diplomatiyası çərçivəsində ümumi maraq kəsb edən məsələlər üzrə qarşılıqlı əməkdaşlığın inkişafına imkan yaradır.

*"Azərbaycan"*

# Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində mühüm addımlar atılıb

Parlamentlərarası İttifaqın Cenevrədə keçirilən 148-ci Assambleyası çərçivəsində İsveçrə Konfederasiyasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova martın 23-də Syerra-Leone Respublikası parlamentinin Sədri Abass Çernor Bundu ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə parlamentlərarası əlaqələrin inkişafı imkanları, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyəti barəsində fikir mübadiləsi aparılıb.

Söhbət zamanı Qoşulmama Hərəkatının və onun Parlament Şəbəkəsinin fəaliyyətində Azərbaycanın vacib rolu qeyd olunub. Diqqətə çatdırılıb ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu təşkilatın institusional inkişafı istiqamətində mühüm addımlar atılıb. Xatırladılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi parlament diplomatiyasının inkişafında, təşkilata üzv olan ölkələrin qanunverici orqanları arasında əlaqələrin genişləndirilməsində, eləcə də bəşəriyyəti narahat edən bir sıra məsələlərin həlli üçün həmrəylik göstərilməsində mühüm platforma rolunu oynayır.

Syerra-Leone parlamentinin spikeri Abass Çernor Bundu Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətinin genişləndirilməsində göstərdiyi təşəbbüs və səylərinə görə təbriklərini çatdıraraq bildirib ki, Azərbaycanın sədrliyi bu təşkilata yeni nəfəs verib və təşkilatın fəaliyyətində yeni istiqamətlər müəyyənləşdirib. Qeyd olunub ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin diqqət ayırdığı məsələlər yeni çağırışlarla üst-üstə düşür, xüsusilə dekolonizasiya məsələsində Azərbaycanın mövqeyi qarşı tərəfdən təqdir olunub.

Parlamentlərarası əlaqələrin inkişafının əhəmiyyəti qeyd olunan görüşdə bildirilib ki, istər parlamentlərarası İttifaq, istərsə də digər beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlər və qurulan dialoq hər iki ölkənin qanunverici orqanları arasında əlaqələrin dərinləşdirilməsinə xidmət edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Ötən dövrün yekunu,

## Yerinə yetirilmiş milli ideya -

### SÖZÜNÜN SAHİBİ

Xoşbəxt o xalqdır ki, sözübütöv, sözünün sahibi olan rəhbəri var.

Azərbaycan xalqının bu məsələdə bəxti gətirib.

*Bütün dünya bilir ki, cənab İlham Əliyev dediyini edəndir, sözü ilə imzası eyni gücə malikdir.*

Bu halda deyilən söz "vəd" xarakteri daşımır!

**Əgər Prezident İlham Əliyev Azərbaycan xalqı qarşısında çıxışı zamanı növbəti dövr ərzində görüləcək işlərdən danışırsa, deməli, biz həmin işlərin, deyilənlərin real həyatda, göstərilən müddətdə təcəssümünün şahidi olacağıq!**

*18 aprel 2018-ci ildə keçirilən prezident seçkilərindən sonra cənab İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimindəki çıxışında növbəti dövrdə görəcəyi işlər barədə Azərbaycan xalqını ətraflı məlumatlandırmışdı.*

"Vəd verdi" ifadəsini qəsdən işlətmirik...

**Çünki deyilənlər hökmən icra olunacaqdırsa, artıq bu vəd sayılmır, irəlicədən bəyan edilir, məlumat verilir.**

*Prezident İlham Əliyevin 6 il öncəki çıxışına yenidən nəzər saldıqda deyilənlərin artıqlaması ilə yerinə yetirildiyinə şahid oluruq.*

❖ ❖ ❖

Prezident seçkiləri seçki günü səsvermə məntəqəsinə gedərək, sadəcə, hansısa namizədə səs vermək üçün qutuya bülleten atmaq deyil!

*Əslində, səsvermə yolu ilə insanlar dövlətin və xalqın növbəti illər ərzində taleyinə münasibətlərini bildirmiş olurlar:*

**Hansı namizəd qalib gəlsə, dövlət daha yaxşı inkişaf edəcək, qarşıda duran vəzifələr uğurla həll ediləcək, xalqın rifahı yüksələcək, sabitlik və əmin-amanlıq təmin olunacaqdır.**

Yəni xalq onun arzu və istəklərini gerçəkləşdirəcək namizədə səs verir, bununla həm fərdi, həm də vətəndaşlıq borcunu yerinə yetirir.

2018-ci ildəki andiçmə mərasimində nitqinə xalqa təşəkkürlə başlayan cənab İlham Əliyev bundan sonra da xalqa sədaqətlə xidmət edəcəyini bəyan etmişdi:

***"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".***

Prezident İlham Əliyev verdiyi sözə əməl etdimi?

Bu sualın bir sözlə ifadə olunacaq cavabı var:

- Artıqlaması ilə!

Açması isə yığcam şəkildə söyləsək belədir:

**- Prezident İlham Əliyev nəinki tarixinin ən qüdrətli Azərbaycanını yaratdı, həm də torpaqları erməni işğalçılarından birdəfəlik təmizlədi, ölkənin ərazi bütövlüyünü, suverenliyini və Konstitusiya əsaslarını bərpa etdi!**

İlham Əliyev buna necə nail oldu?

İkinci iqtibası gətiririk: ***"Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".***

Cənab İlham Əliyevin söylədiyi bu fikirlərdə bütün həqiqətlər ən böyük dolğunluğu ilə öz əksini tapmışdır:

- Bəli, Azərbaycanın müstəqilliyi ona görə dönməzliyə və əbədiliyə çevrilib ki, biz Heydər Əliyev yolu ilə gedirik!
- Azərbaycan ona görə inkişafdadır ki, ona görə qarşıya qoyduğu bütün iqtisadi hədəflərə çatır ki, biz Heydər Əliyev yolu ilə gedirik!
- Azərbaycan ona görə yüksək beynəlxalq nüfuz sahibinə çevrilib, Cənubi Qafqazın ən güclü dövləti və söz sahibi olub ki, biz Heydər Əliyev yolu ilə gedirik!
- Azərbaycan ona görə güclü ordu quraraq torpaqlarını işğaldan azad etdi ki, xalq və dövlət daim Heydər Əliyev siyasi kursuna sadiq qaldı.

**Zaman da sübut etdi ki, bu, yeganə həqiqi, daim qələbəyə çatdıran, xalqın və dövlətin maraqlarını təmin edən kursdur!**

**Alternativsiz, dəyişməz, dönməz, ən doğru kursdur!**

❖ ❖ ❖

Müstəqilliyinin ilk illərində həqiqi rəhbərindən ayrı düşən Azərbaycan xalqı böyük təlatümlərlə, kataklizmlərlə rastlaşdı.

Hətta müstəqilliyini itirmək, bir dövlət kimi məhvə uğrayaraq əvvəlki kimi kiçik xanlıqlara parçalanmaq astanasınadək gəldi.

Yalnız Ulu Öndər Heydər Əliyevin qayıdışı, yenidən ölkə rəhbərliyinin sükanı arxasına keçməsi gənc müstəqil dövləti real bəlalardan qurtardı!

Lakin təhlükə tam sovuşmamışdı, düşmənlərimiz yeni planlar quraraq icrasına start vermişlər.

İki dəfə - 4 oktyabr 1994-cü və 13-18 mart 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər törədildi, dövlətə qarşı silah qaldıranlar oldu.

**Amma Ulu Öndər Heydər Əliyev əvvəlki prezidentlər kimi öz postunu tərk etmədi, şəxsi şücaət və qəhrəmanlıq nümunəsi göstərərək xalqa müraciət etdi, insanları dövlətin və dövlətçiliyin müdafiəsinə səslədi.**

*Həqiqi rəhbərinin çağırışına biganə qalmayan xalq meydanlara axışaraq onunla birgə olduğunu nümayiş etdirdi.*

Beləliklə, Xalq-Heydər, Heydər-Xalq birliyi hər cür təhlükəyə, xain xislətlilərin mənfur niyyətlərinə qalib gələrək öz qüdrətini göstərdi.

*Xalqına arxalanan Ulu Öndər Heydər Əliyev ölkədə sabitlik və asayiş yaratmaq üçün qətiyyətli addımlar atdı:*

- Müxtəlif partiyalara və qruplara mənsub qeyri-qanuni silahlı dəstələr ləğv edildi;
- Əhalidəki külli miqdarda qanunsuz silah-sursat yığıldı;
- Anarxiya və özbaşınalıqlara son qoyuldu;
- Hüquqi dövlət quruculuğuna start verildi;
- Azərbaycanın müasir inkişafının sarsılmaz təməlləri qoyuldu!

❖ ❖ ❖

Azərbaycanın zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi həmişə çoxlarının ağzını sulandırıb.

Həm imperiyasevər qüvvələr, həm də Cənubi Qafqaza burun soxmaq istəyən dövlətlər daim müxtəlif məkrli üsullardan istifadə edib, ölkəmizin daxili işinə qarışmaqdan ötrü məqam gəzib, bəhanələr axtarıblar.

*Xüsusən də artıq tarixin arxivinə atılmış Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən istifadəyə çalışmış, problemi həll etməyə deyil, daim aktiv formada saxlamağa, ondan bəhrələnərək ölkəmizə müxtəlif təsir və təzyiq göstərməyə can atıblar.*

Cənab İlham Əliyev xatırlanan nitqində: ***"Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq"*** söyləyərkən məhz belə məqamları nəzərdə tuturdu.

Müasir dövrdə güclü dövlətlər tərəfindən digər dövlətlərin daxili işinə müdaxilə, araya qarışıqlıq salaraq hakimiyyət dəyişikliyinə nail olunması, ölkə daxilindəki özlərinə sərf edən partiya və insanların hakimiyyətə gətirilməsi adi və sınanmış haldır.

Ölkələr daxilində çaxnaşma və başıpozuqluqlar yaradan "rəngli inqilablar", "baharlar" da məhz bu məqsədə xidmət edir.

Yaxın və Orta Şərqdə, hətta Cənubi Qafqazda "ərəb baharları" və "rəngli inqilablar"ın hansı fəsadlar törətdiyinə bütün dünya şahiddir.

Dövlətlərin bir çoxu hələ də guya ölkəyə "demokratiya" gətirəcək bu inqilabların ağır nəticələrindən yaxa qurtara bilməmiş, uzun illər boyu inkişafdan geri qalmışlar.

*İlham Əliyev birinci dəfə Prezident seçilərkən daxildəki xəyanətkarlar və "5-ci kolon" üzvləri, xaricdən dəstəklənən satqınlar belə bir ssenari ilə toqquşma və çevriliş yaratmağa can atdılar.*

**Lakin xalqımızın müdrikliyi, Heydər Əliyev siyasi kursuna sədaqəti və cənab İlham Əliyevin inamlı və qətiyyətli addımları sayəsində xain qəsdlərin qarşısı qətiyyətlə alındı.**

Ölkəmizdə və onun sərvətlərində gözü olanlar da anladılar ki, Azərbaycan artıq güclü və etibarlı əllərdədir!

❖ ❖ ❖

***"Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".***

*Bəli, yürüdülən düzgün siyasət və xalqın dəstəyi çoxlarının murdar niyyətlərini ürəyində qoydu.*

44 günlük Zəfər müharibəsindən sonra yaranmış yeni reallıqlar, Azərbaycanın öz gücü ilə torpaqlarını erməni işğalından azad etməsi yaxın qonşularımızı və uzaqdakı düşmənlərimizi razı salmadı.

Müharibə dövrü Ermənistana silah-sursat daşınmasına kömək göstərən, habelə ATƏT-in Minsk qrupunun üzvləri kimi münaqişənin həllindən razı qalmaq əvəzinə şoka düşən və düşmənə dəstək vermək üçün dəridən-qabıqdan çıxan Fransa və ABŞ sülh müqaviləsinin imzalanmasına hər vəchlə mane olmağa çalışırlar.

Ermənistandakı revanşist qüvvələri həvəsləndirən, onlara silah-sursat, maliyyə və siyasi-diplomatik baxımdan dəstək verən bu iki dövlət Cənubi Qafqazda möhkəm daimi sülh və əmin-amanlığın yaranmasında qətiyyən maraqlı deyillər.

*Çünki bu halda Cənubi Qafqaza burun soxmaq imkanlarını itirəcəklərini yaxşı anlayırlar.*

*Fransa və ABŞ-nin məqsədi isə Rusiyanı bu bölgədən çıxararaq onun yerini tutmaqdır.*

**Lakin İlham Əliyevin özünün dəfələrlə və açıq şəkildə bəyan etdiyi kimi, Azərbaycan bu oyunlara getməmiş, Cənubi Qafqazın müharibə və əbədi münaqişə ocağına çevrilməsinə imkan verməmiş, uzaqgörən və balanslı siyasət yeridərək hər tərəfə öz yerini göstərmişdir!**

❖ ❖ ❖

**Prezident İlham Əliyevin uğur və nailiyyətlərinin əsas təminatçısı Azərbaycan xalqıdır.**

**Xalq İlham Əliyevin apardığı siyasəti dərindən anlayır, gördüyü işləri bəyənir və daim ona dəstək verir.**

Xalqın rəhbərinə inamından və sevgisindən doğan bu birlik bütün mənfur planları puça çıxarır.




44 günlük Zəfər müharibəsi dövründə Ermənistan "dost"larının və "məsləhətçi"lərinin fitvası ilə Azərbaycanın cəbhə xəttindən uzaqlarda yerləşən Gəncə, Tərtər, Bərdə, Goranboya ballistik raketlərlə zərbələr endirdi, qadağan olunmuş fosforlu və kassetli bombalardan istifadə etdi.

Məqsəd əhali arasında qorxu, təlaş və çaxnaşma yaratmaq, sabitliyin pozulmasına nail olmaq, iqtidarla xalq arasında ziddiyyət yaradaraq bu narazılığı cəbhə bölgəsinə, döyüş meydanına daşımaq idi.

*Lakin öz rəhbərinə inanan və daim onun arxasında möhkəm dayanan Azərbaycan xalqı heç bir fitnə-fəsada, alçaq oyunlara uymadı.*

Əksinə, bütün nifrətini düşmənə və onun havadarlarına yönəldərək müharibədə qalib gəlməkdən ötrü əlindən gələn köməyi əsirgəmədi!

**Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə yaranmış xalq-iqtidar birliyi bu gün də davam edir, hər dəfə sınaqlardan möhkəmlənmiş halda çıxır!**

**Artıq Azərbaycanda sabitliyi pozmağa qadir heç bir qüvvə yoxdur!**

**Nə ölkə daxilində, nə də xaricində!**

❖ ❖ ❖

***"Demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir".***

Bəli, Azərbaycan demokratiya və sərbəst bazar iqtisadiyyatı yolunu öz istəyi ilə seçib və yeni Konstitusiyanın qəbuluna səs verməklə bu istəyini rəsmiləşdirmişdir.

Ölkədə bütün demokratik təsisatlar formalaşıb, vətəndaş cəmiyyəti yaranıb, söz və mətbuat azadlığı, fikir plüralizmi tam təmin edilib.

*Dünyanın bir çox ölkəsində rast gəlinməyən fakt:*

*Milli Məclisə sonuncu seçkilərdən sonra nəinki ali qanunverici orqanda müxalifət partiyaları gen-bol təmsil olunmuş, üstəlik, bir sıra komitələrin sədr və müavin vəzifələrinə müxalifət partiyalarının başçıları seçilmişlər.*

**Ən böyük uğurumuz isə ümummilli məsələlərdə iqtidar və müxalifət partiyalarının eyni mövqedən - dövlət maraqları mövqeyindən çıxış etmələridir.**

**Azərbaycan Vətən savaşı aparanda, torpaqlarını erməni təcavüzkarlarından təmizləyəndə müxalifət partiyaları (antimilli qüvvələrin cəmləşdiyi bir neçə partiya istisna olmaqla) müharibəyə dəstəklərini bildirdilər, hərbi əməliyyatlar zəfərlə başa çatdıqda isə Müzəffər Ali Baş Komandan İlham Əliyevi bu münasibətlə təbrik etdilər.**

Demokratiyanın ən mühüm şərtlərindən biri söz və mətbuat azadlığıdır. Artıq bu sahədə heç bir problem yoxdur - jurnalistlər istədikləri mövzuda, istədikləri şəkildə yaza bilirlər.

Azərbaycan həm də o nadir ölkələrdəndir ki, dövlət başçıları jurnalistlərin gizli səsverməsi yolu ilə keçirilən "Jurnalistlərin dostu" mükafatına dəfələrlə layiq görülmüşlər.

Bütün bunlar dövlətin azad sözə, mətbuata davamlı qayğısı və dəstəyinin təzahürüdür.

**Dövlət başçısı İlham Əliyev jurnalistlərə daim açıqdır.**

**O, baş verən hadisələr barədə mətbuata sistemli şəkildə bəyanat, açıqlama və müsahibələr verir, yerli və xarici jurnalistlərin suallarını cavablandırır və beləliklə, jurnalistlərin peşə fəaliyyətlərini uğurla yerinə yetirmələrinə prezident dəstəyi göstərir.**

❖ ❖ ❖

***"Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir".***

Cənab İlham Əliyevin 2018-ci il prezident seçkilərindən sonra andiçmə mərasimində səsləndirdiyi bu fikirlərin nə qədər həqiqət olduğunun sonrakı dövrlərdə, habelə Zəfər müharibəsi və müharibədən keçən müddət ərzində dönə-dönə şahidinə çevrildik:

- Bəli, Azərbaycan dünyada müsbət və müasir imicə malikdir!
- Azərbaycanın mövqeləri möhkəm və sarsılmazdır!
- Azərbaycan bir sıra gərəkli və faydalı beynəlxalq layihələrin müəllifidir!
- Azərbaycan beynəlxalq qurum və təşkilatlarda fəal iştirak edir, faydalı təklif və təşəbbüslər irəli sürür, hamıya və hər kəsə mənfəət götürmək imkanı yaradır.

**Bütün bunların hamısı Prezident İlham Əliyevin irəlicədən dəqiqliklə hesablanmış, vaxtında reallaşdırılmış layihələri sayəsində baş verir.**

- Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkiləndə onun maliyyələşdirilməsi üçün Ermənistandan keçməsi şərtini irəli sürdülər.

*İlham Əliyev bundan qətiyyətlə imtina etdi.*

Azərbaycan layihəni öz imkanları hesabına maliyyələşdirdi!

- Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkiləndə də eyni hal müşahidə olundu.

*Yenə İlham Əliyev geri durmadı, güzəştə getmədi və bu nəhəng layihəni də daxili imkanlar vasitəsilə həyata keçirdi.*

**İlham Əliyevin təşəbbüsü və iradəsi sayəsində 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi" də reallaşdı.**

- O zaman heç kəsin ağlına belə gəlməzdi ki, Rusiya ilə Ukrayna kimi iki qardaş ölkə müharibə edər.
- Heç kəs inanmazdı ki, müharibə bu qədər uzanar, ABŞ və Qərbi Avropa dövlətləri tərəfindən Rusiyaya qarşı geniş sanksiyalar tətbiq olunar.
- Heç bir ekspert proqnoz etməzdi ki, Avropa İttifaqı rus qazından imtina edər və təbii qazın idxalı üçün başqa mənbə axtarar.

**Sanki İlham Əliyev bütün bunların hamısını hamıdan yaxşı bilirmiş!**

*"Cənub qaz dəhlizi"nin istismara buraxılması ilə yanaşı, Avropanın Azərbaycan qazına ciddi ehtiyacı yarandı!*

*Bu gün qaz bazarında Azərbaycan ən etibarlı tərəfdaş kimi tanınır.*

Özü Avropa İttifaqının üzvü olmasa da (heç bu barədə düşünmür də), Avropa İttifaqına daxil olan 8 ölkə ilə ikitərəfli müqavilələri vardır və öz öhdəliklərinə dəqiqliklə əməl edir.

Bütün bu ölkələr Azərbaycanın çox müsbət beynəlxalq reputasiyasına inanırlar, onunla yeni-yeni müqavilələr imzalayırlar!

Torpaqlarını düşmən işğalından azad edən Azərbaycan həmin ərazilərdə "yaşıl enerji" istehsalını da qaydaya salır.

*Xəzər dənizində, Abşeronda, Qobustan və Neftçalada da bərpaolunan enerji istehsalı üçün əsaslı işlər görülür, böyük məbləğdə xarici investisiyalar yatırılır.*

*Tezliklə Qara dənizin dibi ilə "yaşıl enerji" daşıyan xəttin çəkilişinə başlanılacaqdır.*

**Son dövrlərdə İlham Əliyev tərəfindən atılan addımlar və görülən işlər sayəsində dünya birliyi tərəfindən Azərbaycana böyük rəğbət və dəstək yaranmışdır.**

**İlham Əliyevin Azərbaycanı daha heç bir təhdiddən, təsir və təzyiq cəhdlərindən qorxmur.**

Yalnız öz maraqlarına uyğun işlər görərək siyasət yürüdür.

*Bu gün Azərbaycan dünyaya, xüsusən Qərbi Avropaya daha çox gərəkdir.*

*İşlək layihələri, hamının kəskin ehtiyac duyduğu təbii qazı və "yaşıl enerji"si ilə!*

❖ ❖ ❖

**"Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq".**

Əslində, İlham Əliyevin o dövrdə verdiyi bu açıqlama Qarabağ probleminin hərbi yolla həllinə keçid barədə xəbərdarlıq da sayıla bilərdi.

**Azərbaycanın dövlət başçısı prezidentliyi dövründə öz çıxış və bəyanatlarında münaqişənin hərbi yolla həllinə keçidin istisna edilmədiyini daim vurğulayırdı.**

*Ermənistanın dostları və havadarları isə buna inanmır, Azərbaycanın belə bir cəsarətdə bulunacağını ağıllarına belə gətirmirdilər.*

*Həm də öz imkanlarına güvənərək hərbi variantın qarşısını alacaqlarına əmin idilər.*

**İlham Əliyev isə düşünülmüş, hesablanmış addımlarını bir-birinin ardınca atır, yeni ordu quruculuğu, onun ən müasir silahlarla silahlandırılması, təlimlər keçilməsi ilə sistemli şəkildə məşğul olurdu.**

Üstəlik:

- Ermənistan daim təcrid vəziyyətində saxlanılır;
- Onun işğalçı siyasəti ifşa olunur;
- Hücum diplomatiyası tətbiq edilərək dünya erməniliyinə qarşı mübarizə gücləndirilir;
- Beynəlxalq qurum və təşkilatlarda ardıcıl iş aparılır, Azərbaycan özünə yeni dostlar və tərəfdaşlar qazanırdı.

İlham Əliyevin tarixi nitqindən daha bir neçə seçmə məqamı diqqətə çəkirik:

- ***"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın".***

# yeni dövrün vəzifələri

## ərazi bütövlüyünün bərpası

- ***"Bizim Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik".***
- ***"Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır".***
- ***"Eyni zamanda biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq".***

Ən nəhayət daha bir cümlə:

***"Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir".***

Bir daha qeyd edirik:

**İlham Əliyev bütün bu fikirləri hələ 18 aprel 2018-ci ildə söyləmişdir!**

**Daha sonra icra etmişdir!**

**Ən nəhayət, bugünkü reallığı yaratmışdır!**

### YENİ DÖVRÜN HƏDƏFLƏRİ

***"Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq".***

Çox böyük müdriklik və uzaqgörənliklə söylənilən sözlərdır.

Həm də mövcud reallığı dərindən əks etdirirdi.

Vətənsiz erməni öz ağlı ilə düşünürdü ki, həmsədr dövlətlərin dəstəyi ilə mənasız sülh danışıqlarını əbədiliyə qədər uzadacaqdır.

Beləliklə, Azərbaycanda Qarabağı görməyən yeni nəsil dünyaya gələcəkdir.

Belə bir nəsil isə Qarabağ uğrunda heç vaxt müharibə etməyəcək və torpaq erməniyə qalacaqdır.

*Yalnız qaraçılar kimi dünyaya səpələnmiş millət bu sayaq mühakimə yürüdərdi.*

*Və öz düşündüyünə də inanardı...*

**Azərbaycan xalqı isə torpağa bağlıdır, hər gün, hər saat Vətən uğrunda şəhid olmağa hazırdır.**

Üstəlik, dövlət heç zaman torpağı unutmaq, torpağı yağıya güzəştə getmək barədə düşünməyib və belə bir siyasət yürütməyib!

**Əksinə, məhz Milli Olimpiya Komitəsinin prezidenti kimi cənab İlham Əliyev yeni nəslin tərbiyəsində də öz sözünü söylədi.**

**Yeni, vətənpərvər, fiziki cəhətdən güclü, mənəviyyatca saf və sağlam gənclər nəsli tərbiyələndirdi.**

- Bu nəsil əvvəlcə dünya, Avropa birinciliklərində, beynəlxalq yarışlarda uğurlu çıxışlar etdi, saysız-hesabsız qələbələr qazandı, medallar aldı.
- Qalib kimi dövlət himnimizi səsləndirdi, üçrəngli bayrağımızı ucaltdı.
- Bu gənclər əvvəlcə idman arenalarında erməni idmançılarla qarşılaşdılar, onları təkbətək mübarizədə məğlub etdilər.
- Sonra isə bu qələbələrini döyüş meydanında dönə-dönə, daha yüksək səviyyədə təkrarladılar.

**Müzəffər Ali Baş Komandanımız isə Zəfər bayrağımızı Qarabağın və Şərqi Zəngəzurun ən uca nöqtələrində dalğalandırdı!**

- Prezidentimizin söylədiyi kimi, biz işğalla heç zaman barışmadıq!
- Biz Qarabağı, düşmən tapdağında qalan torpaqları heç zaman unutmadıq!
- Biz sülh danışıqları gedən müddətdə daim Vətən həsrəti ilə yaşadıq!
- Biz daim torpaqları işğaldan azad etmək barədə düşündük və hazırlaşdıq!
- Bunun üçün gücləndik, güclü olduq!

**İlham Əliyev daim və dayanmadan ordu quruculuğu ilə məşğul oldu.**

**Dövləti inkişaf etdirdi, yeni layihələr reallaşdıraraq büdcəyə daha çox vəsait toplanmasına nail oldu!**

**Sonra o vəsaitlərin böyük bir qismi ordu quruculuğuna yönəldildi!**

Yeni, ən müasir texnologiyalar əsasında hazırlanmış silahlar alındı, şəxsi heyətə dayanmadan təlimlər keçirildi, peşəkarlıqları durmadan artırıldı.

*Dördgünlük Aprel müharibəsi yeni ordumuz üçün baş sınaq oldu!*

Düşmən bundan nəticə çıxarıb ağıllanmadı.

*Cocuq Mərcanlıya qayıdış Qarabağa dönüşün qaranquşu oldu!*

Düşmən yenə sülhə gəlmədi, murdarlığından əl götürmədi.



**Zaman isə Azərbaycanın xeyrinə işləyirdi!**

**Azərbaycan aparılan doğru və uzaqgörən siyasət sayəsində iqtisadi və hərbi cəhətdən güclənir, beynəlxalq nüfuzu yüksəlir, dostlarının sayı artırdı.**

Havadarlarının dəstəyindən havalanan Ermənistanın yeni başçısı Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" - deməklə torpaqları heç vəchlə qaytarmayacaqlarını açıq şəkildə bəyan etdi.

*Azərbaycan Prezidenti İlham Əliyev düşmən dövlətin bu bəyanatından məharətlə istifadə etdi!*

Əvvəlcə "Valday" Beynəlxalq Diskussiya Klubunda Ermənistanın sülh danışıqlarını mənasız edən bu mövqeyini ifşa etdi.

*"Qarabağ Azərbaycandır və nida işarəsi" deyərək işğalla heç zaman barışmayacağımızı təkcə Paşinyana deyil, onun kimi düşünənlərin hamısına çatdırdı.*

Sonra Münxen Təhlükəsizlik Konfransının panel iclasında Paşinyanla debatda Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, ermənilərin buraya XIX əsrdə çar Rusiyası tərəfindən gətirilərək yerləşdirildiyini tarixi faktlarla sübut etdi.

**Azərbaycanın qəti və prinsipial mövqeyini dünya ictimaiyyətinə çatdırdı.**

Həm də sübut etdi ki, sülh danışıqlarından qaçan məhz işğalçı Ermənistandır!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev sözlə dediklərini 44 günlük Zəfər müharibəsində əməli ilə sübuta yetirdi.**

- Sübut etdi ki, Azərbaycan güclü dövlətdir və güclü orduya sahibdir!
- Sübut etdi ki, Azərbaycan xalqı, Azərbaycanın əsgər və zabitləri torpaqları çox qısa bir müddətdə işğaldan azad etməyə qadirdir!
- Sübut etdi ki, heç bir azərbaycanlı Qarabağı, işğal altındakı torpaqları unutmaz, lazım gəlsə, canı və qanı bahasına geri alar!
- Sübut etdi ki, Azərbaycan təkcə Ermənistana deyil, dünya erməniliyinə, Ermənistanın bütün müdafiəçilərinə və havadarlarına da qalib gəlmək qüdrətindədir!

❖ ❖ ❖

***"Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik".***

*İlham Əliyevin beş il öncə söylədiyi bu fikirlər də artıq öz yerini alıb!*

*Azərbaycan çox rahat şəkildə öz enerji resurslarını dünya bazarına çıxarır!*

**Azərbaycan dünyada baş verən bütün prosesləri - həm də təkcə siyasi yox, ekoloji prosesləri də diqqətlə izləyir, lazımi nəticələr çıxarır və hadisələri uğurla qabaqlamağı da bacarır.**

❖ ❖ ❖

*Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkiləri keçirildi.*

*Əvvəlkilərə bənzəməyən bir seçki!*

*Əvvəla,* bu dəfə səsvermə kampaniyası işğaldan azad edilən torpaqlar da daxil bütün ölkə ərazisində baş tutdu!

*İkincisi,* səsvermə günündə xalqın, xüsusən gənclərin çox böyük fəallığı müşahidə edildi.

*Üçüncüsü,* ən çox elektoratın iştirak etdiyi bir seçki kampaniyası baş tutdu!

**Azərbaycan vətəndaşları sanki bu fəallıqları çox böyük fərqlə və üstünlüklə cənab İlham Əliyevə səs verməklə ona Qarabağ Zəfərinə görə minnətdarlıq duyğularını ifadə edirdilər!**

*Prezident İlham Əliyevin 14 fevral 2024-cü ildə Milli Məclisdə keçirilən inaqurasiya mərasimi də möhtəşəmliyi ilə yadda qaldı!*

❖ ❖ ❖

**Əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyan İlham Əliyev:** *"Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!" - söylədi.*

Sonra müqəddəs Qurani-Şərifə əl basaraq Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağına, onları daim uca tutacağına and içdi.

**Prezident İlham Əliyevin budəfəki inaqurasiya mərasimindəki nitqini yeni dövrün manifesti də adlandırmaq olar!**

Dövlət başçısı əvvəlcə yığcam şəkildə əvvəlki dövrə yekun vurdu:

*"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.*

*Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".*

Sonra isə yeni prezidentliyi dövründə görüləcək işlər, həyata keçiriləcək tədbirlər, aparılacaq islahatlar barədə yığcam, həm də dərin və aydın təsəvvür yaradan məlumat verdi.

**Əslində, cənab İlham Əliyev yeni dövrün yeni vəzifələrindən danışdı:**

*"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi".*

*Çox vacib bir məqam:*

- Yeni vəzifələr və hədəflər ən əvvəl Azərbaycanın dünyadakı yerindən və mövqeyindən irəli gəlir.
- Azərbaycanın dünyadakı yüksək siyasi nüfuzundan qaynaqlanır.
- Ölkəmizin Cənubi Qafqazın iqtisadi cəhətdən ən güclü dövləti və söz sahibi olmasından doğur.
- Ən nəhayət, Azərbaycan dövlətinin və xalqının milli maraqlarının qorunmasından və onların təminindən irəli gəlir.

BƏS YENİ HƏDƏFLƏR HANSILARDIR?

Cənab İlham Əliyev yeni hədəfləri bütövlükdə belə xarakterizə edir:

*"Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".*

Azərbaycan 44 günlük Zəfər müharibəsində düşmən ordusunu darmadağın edərək ərazi bütövlüyünü və suverenliyini təmin etdi.

Lakin Ermənistan hələ də xülyalara qapılaraq, havadarlarına güvənərək ordusunu yenidən qurmağa çalışır, revanşist niyyətlərlə yaşayır, sülh müqaviləsini imzalamaqdan müxtəlif bəhanələrlə boyun qaçırır.

**Bu vəziyyət Azərbaycanı daha güclü olmağa, ordunu daim ən yeni silahlarla silahlandıraraq ayaqda saxlamağa vadar edir.**

**İlk vəzifə də ölkənin müdafiə qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması sayılır.**

Prezident İlham Əliyev görülən işlər barədə yığcam şəkildə dedi:

*"Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir".*

Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qaytarılması, bu məqsədlə Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi də mühüm vəzifələrdən biridir.

Böyük Qayıdışla bağlı I Dövlət Proqramının imzalanması bu məsələnin planlı şəkildə icrasını şərtləndirir.

Bu iki məsələnin eyni əhəmiyyət daşıdığına işarə vuraraq İlham Əliyev dedi:

*"Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır".*

**Xarici siyasət məsələləri yenə də aktual olaraq qalır.**

*Azərbaycanın öz hədəflərinə çatmasında Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətin mühüm rolu vardır.*

BMT-nin Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatına sədrliyi dövründə cənab İlham Əliyev Azərbaycana böyük siyasi nüfuz qazandırdı.

Bu gün Azərbaycanın dostları, etibarlı tərəfdaş kimi onunla daim əməkdaşlıq etmək istəyənlər də çoxdur.

❖ ❖ ❖

**Növbəti dövr üçün müəyyən edilən bir neçə hədəf isə bilavasitə gənclərlə bağlıdır.**

**Azərbaycanda gənclər siyasətinin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur və o, bu gün də yaradıcılıqla davam etdirilir.**

Dövlət başçısı daim gənclərə xüsusi qayğı və diqqət göstərir.

Neft kapitalının insan kapitalına çevrilməsi siyasəti, gənclərin dövlət hesabına xaricdə təhsilə göndərilmələri, ölkədə idmanın inkişafı və ona yaradılan şərait dediklərimizin təsdiqidir.

Azərbaycan gəncləri bu etimadı daim doğruldurlar!

Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır, hər il idmançılarımız Avropa, dünya birinciliklərində, müxtəlif beynəlxalq idman yarışlarında uğurla çıxış edərək yüksək nəticələr qazanırlar.

**Məhz bu cür igid gənclərimiz sayəsində ordumuz düşməni məğlub edərək ərazilərimizdən birdəfəlik qovdu!**

Yeni dövrün yeni vəzifəsini isə İlham Əliyev belə ifadə etdi:

*"Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir".*

**Qarşıya qoyulan vacib məsələlərdən biri də texnoloji inkişafdır.**

**Bu, həm sənayeni, həm də hərbi-sənaye kompleksini əhatə edir.**

Burada da əsas məqamlardan biri kadr hazırlığıdır:

*"Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir".*

**Azərbaycançılıq ideologiyasına sədaqət, milli birliyin daim möhkəmləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, şəhid ailələrinə, müharibə veteranlarına qayğı, onların ev, mənzillərlə təmini yenə də diqqət mərkəzində saxlanılacaqdır.**

❖ ❖ ❖

İnkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycan köhnə-yeni hədəflərinə doğru inamla addımlayır.

**Sistemli qaydada keçmiş məcburi köçkün ailələri doğma yurda, dövlətin saldığı müasir qəsəbələrə qayıdır, təzə mənzillərdə həyatlarını davam etdirirlər.**

*Təkcə cari ildə bu məqsədlə dövlət büdcəsindən 4 milyard manat vəsait ayrılıb!*

İlin sonunadək işğaldan azad edilmiş 25 yaşayış məntəqəsinə ümumilikdə 5171 ailənin (20 min nəfərdən çox əhalinin) köçürülməsi nəzərdə tutulub.

Bu ərazilərdə "yaşıl enerji" potensialının yaradılması məqsədilə 122 MVt gücündə 17 su-elektrik stansiyası yenidən qurulub, tikilib və ya bərpa edilib, 73 MVt gücündə 9 SES tikintisi isə davam edir.

2030-cu ilin sonunadək Azərbaycanda 5 min meqavata yaxın bərpaedilən enerji istehsalına nail olunması da yeni hədəflər sırasındadır.

**Azərbaycan yeritdiyi siyasət və iqtisadi potensialı ilə dünyanın diqqətini özünə cəlb etməkdədir.**

- 68 ölkədən 400-dək qonağın olduğu "Parçalanmış dünyanın bərpası" devizi ilə keçirilən XI Qlobal Bakı Forumunda 40-dan çox hazırkı, həmçinin sabiq dövlət və hökumət başçıları iştirak etdi.
- NATO-nun Baş katibi Yens Stoltenberq mart ayında ölkəmizə rəsmi səfərə gəldi, Azərbaycanı NATO-nun "vacib və dəyərli tərəfdaşı" adlandırdı.
- BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (buraya 198 ölkə üzvdür) ölkəmizdə keçiriləcək 29-cu sessiyasına (COP29) geniş hazırlıq işləri davam edir.
- Azərbaycan Qara dənizin altı ilə çəkiləcək kabel vasitəsilə Avropaya "yaşıl enerji" ixracına ciddi hazırlıq görür.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin və xalqımızın yeni hədəflərə çataraq qarşıdakı vəzifələri uğurla həyata keçirəcəyinə Azərbaycan xalqı möhkəm əmindir.**

Bu gün keçmiş məcburi köçkünlər dövlətin onlar üçün inşa etdiyi müasir tipli şəhərcikləri, rahat mənzillərini tərk edərək doğma yurd-yuvalarına dönürlər.

Orada onları gözləyən, buradakından da gözəl şəraiti olan evlərə, "ağıllı" şəhər və qəsəbələrə qayıdırlar!

**Bunları dövlət öz hesabına tikib-quraraq vətəndaşına ərməğan edir!**

**Qarabağ və Şərqi Zəngəzur isə yeni növrağına başlayır!**

*Burada inşa olunan hər bir ev, bina, qurğu, məktəb, uşaq bağçası, sənaye məhəlləsi yenidir, mükəmməldir!*

Prezident kimi and içərək yenidən dövlət başçısı kimi fəaliyyətə başlayan cənab İlham Əliyevin nitqinin sonunda söylədikləri tam əsaslarla bu günümüzə də şamil edilə bilər:

***"Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var".***

***"Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".***

Əminik ki, bu belə də olacaqdır!

*Çünki xalqımızın Heydər Əliyev siyasi kursuna sadiq olan, bizi qələbədən-qələbəyə çatdıran İlham Əliyev kimi müdrik rəhbəri, hər bir düşmənə, mənfur niyyətlilərə qalib gəlməyə imkan verən milli birliyimiz, xalqın Prezidentə daimi, möhkəm və sarsılmaz dəstəyi vardır!*

**Bəxtiyar SADIQOV**

# Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Parlamentlərarası İttifaqın Cenevrədə keçirilən 148-ci Assambleyası çərçivəsində İsveçrə Konfederasiyasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova martın 23-də Qayana Kooperativ Respublikası Milli Assambleyasının Sədri Manzur Nadir ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Parlamentlərarası İttifaq və digər beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərin, o cümlədən qarşılıqlı dialoqun qanunverici orqanlar arasında əlaqələrin genişləndirilməsinə imkan yaratdığı vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova parlamentarilərin xalqlarımızı təmsil etdiyini diqqətə çatdıraraq, qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsinin xalqların yaxınlaşmasına da töhfə verdiyini ifadə edib.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əlaqələrin əhəmiyyəti vurğulanıb.

Spiker Sahibə Qafarova ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər barədə qarşı tərəfə məlumat verib, bununla əlaqədar təşkilatın Parlament Şəbəkəsinin yaradılmasının parlament diplomatiyasının inkişafı baxımından önəmini diqqətə çatdırıb. Xatırladılıb ki, indiyədək Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin təsis və iki konfransı keçirilib.

Qayana Kooperativ Respublikası Milli Assambleyasının spikeri Manzur Nadir parlamentlərarası əlaqələrin əhəmiyyəti barədə fikirlərini bildirib, həmçinin ölkəsinin beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdırıb.

Görüşdə hər iki ölkənin tolerantlıq və multikultural dəyərlərə böyük əhəmiyyət verdiyi diqqətə çatdırılaraq, dünyada müşahidə olunan milli, irqi və dini ayrı-seçkiliyin yolverilməzliyi ilə bağlı fikirlər səsləndirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Əlcəzair Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır



Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində martın 23-də Əlcəzair Xalq Demokratik Respublikası Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə dost ölkələr olan Azərbaycan və Əlcəzair arasında münasibətləri daha da inkişaf etdirmək üçün böyük potensialın mövcudluğu barədə fikir söylənilib. Vurğulanıb ki, ölkələrimiz arasında münasibətlərin mühüm bir istiqamətini parlamentlərimiz arasında əlaqələr təşkil edir. Dostluq qruplarının fəaliyyəti bu əlaqələrin daha da dərinləşdirilməsinə dəstək verəcək. Spiker qeyd edib ki, parlamentlərimiz beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər və bu təşkilatlarda qanunverici orqanlarımız arasında qarşılıqlı dəstək mövcuddur. O cümlədən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əlaqələrin daha da inkişafı barədə fikirlər ifadə olunub.

Görüşdə parlament spikerləri tərəfindən həyata keçirilən qarşılıqlı səfərlərin qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsinə töhfə verdiyi qeyd olunub. Tərəflər həmçinin müxtəlif sahələr üzrə parlament komitələri arasında əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

Əlcəzair Xalq Demokratik Respublikası Milli Xalq Assambleyasının Sədri İbrahim Bouğali Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbə münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına təbriklərini çatdırıb.

O, ölkəsinin Azərbaycanla ikitərəfli, o cümlədən parlamentlərarası əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayıb, eləcə də beynəlxalq parlament təşkilatlarında qarşılıqlı dəstəyin əhəmiyyəti ilə bağlı fikirlərini ifadə edib.

Görüşdə həmçinin Azərbaycanın bu il COP-29-a evsahibliyi etməsinin böyük əhəmiyyəti qeyd olunaraq, bu mühüm beynəlxalq toplantıya hazırlıqla bağlı ölkəmizin həyata keçirdiyi tədbirlər diqqətə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan ICESCO ilə əməkdaşlığı yüksək qiymətləndirir

Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 148-ci Assambleyası çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə təşkilatla Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə inkişaf etdiyi və tərəflər arasında davamlı dialoqun mövcudluğu məmnunluqla qeyd edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova ötən ilin dekabr ayında Mərakeşə rəsmi səfəri çərçivəsində ICESCO rəhbəri ilə görüşünü məmnunluqla xatırlayaraq, ölkəmizin bu təşkilata və İslam ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ailəsinin fəal üzvüdür. Ölkəmiz üzv dövlətlərlə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, hər zaman həmrəyliyin möhkəmlənməsinə səy göstərir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan ICESCO ilə əməkdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlığa xüsusi önəm verir.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) konfransının əhəmiyyəti və aparılan müzakirələrin aktuallığı vurğulanıb. QHPŞ-də ICESCO-ya müşahidəçi statusunun verilməsinin tərəflər arasında əməkdaşlığa töhfə verəcəyi bildirilib.

Söhbət zamanı Salim bin Məhəmməd əl-Malik ICESCO-nun Azərbaycanla əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu bildirib. O, ötən illərdə Azərbaycana səfərləri çərçivəsində ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, imzalanmış Fəaliyyət Planının ICESCO ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyini bildirib. Baş direktor Heydər Əliyev Fondunun islam dünyasında təhsil, elm, mədəniyyət sahələrində gördüyü işləri yüksək qiymətləndirib. O, həmçinin Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək hüququ qazanmasına, həmçinin Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına görə təbriklərini çatdırıb.

Görüşdə Azərbaycanla bu beynəlxalq təşkilat arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrədə Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşüb



Martın 22-də Parlamentlərarası İttifaqın Cenevrədə keçirilən 148-ci Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşü baş tutub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüş Parlamentlərarası İttifaqın təşəbbüsü və vasitəçiliyi ilə təşkil olunub. Aparılmış müzakirələr zamanı Azərbaycan və Ermənistan arasında davam edən sülh danışıqları fonunda iki ölkə parlamentinin sülh prosesinə hansı formada dəstək göstərə biləcəyi ilə bağlı məsələlər nəzərdən keçirilib.

Tərəflər parlament səviyyəsində dialoqun aparılması imkanlarını nəzərdən keçirmək barədə razılığa gəliblər.

Görüş konstruktiv mühitdə baş tutub.

*"Azərbaycan"*

# Cenevrədə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 3-cü konfransı keçirilib




İsveçrənin Cenevrə şəhərində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 3-cü Konfransı keçirilib. Milli Məclisin və Parlament Şəbəkəsinin sədri Sahibə Qafarovanın sədrliyi ilə keçirilən tədbirdə üzv parlamentlər və beynəlxalq təşkilatları təmsil edən 53 nümayəndə heyəti iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransı giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova tədbir iştirakçılarını salamlayaraq, konfransın şəbəkənin və üzv ölkələr arasında əməkdaşlığın daha da inkişafına böyük töhfə verəcəyinə inamını ifadə edib.

2021-ci ilin noyabrında Madrid şəhərində baş tutmuş təsis iclasından bəri Parlament Şəbəkəsinin konfranslarının iştirakçılarının sayının durmadan artdığını söyləyən Sahibə Qafarova deyib ki, şəbəkə böyüməyə və sıralarına yeni üzvləri qəbul etməyə davam edir. Onun sözlərinə görə, bu gün Parlament Şəbəkəsi Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin yarıdan çoxunu təmsil edir. Bu, təkcə Qoşulmama Hərəkatının dəyər və prinsiplərinin təşviqinə sadiqliyi deyil, həm də parlamentlərimiz arasında həmrəyliyi və əməkdaşlığı gücləndirmək niyyətində olduğumuzu göstərir.

Bu ilin yanvar ayında Uqanda Respublikasının Kampala şəhərində baş tutmuş Qoşulmama Hərəkatının Dövlət və Hökumət Başçılarının XIX Zirvə Görüşündə Azərbaycan Respublikasının Qoşulmama hərəkatına sədrliyi Uqanda Respublikasına təhvil verdiyini xatırladan Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, ölkəmizin sədrliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərəkata üzv olan ölkələr arasında həmrəyliyin, birliyin və çoxşaxəli əməkdaşlığın möhkəmləndirilməsinə göstərdiyi sadiqliyi ilə yadda qalacaq. Prezident İlham Əliyevin irəli sürdüyü bir sıra təşəbbüslər, məsələn, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatının Gənclər Təşkilatının yaradılması, həmçinin Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması istiqamətində atılan ilk addımlar Hərəkatın institusional inkişafı baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Spiker Sahibə Qafarova çıxışında bildirib ki, Parlament Şəbəkəsi yarandığı gündən öz fəaliyyətini icra hakimiyyəti orqanlarının qərarları ilə əlaqələndirir, onları öz fəaliyyətində və yekun sənədlərində əks etdirir. Üzv dövlətlərin hökumətləri ilə belə sıx əməkdaşlıq şəbəkəyə Qoşulmama Hərəkatının idealları və dəyərlərinin təşviqinə parlament töhfəsini verməyə imkan yaradıb. O xatırladıb ki, Parlament Şəbəkəsinin 2023-cü ilin mart ayında Bəhreynin paytaxtı Manama şəhərində keçirilmiş ikinci konfransı zamanı şəbəkənin əsasnaməsinə edilən bir sıra əlavə və düzəlişlər, Parlament Şəbəkəsinin fəaliyyəti üzrə iş qaydalarının işlənib hazırlanması və təkmilləşdirilməsinə yönəldilib. Şəbəkənin gələcək institusional inkişafı istiqamətində iş davam etdiriləcək. Spikerin sözlərinə görə, Parlament Şəbəkəsinin Büro və Daimi Komitələrinin formalaşdırılması onun institusional potensialını və səmərəli fəaliyyətini daha da gücləndirəcək.

Çıxışında digər parlamentlərarası təşkilatlarla institusional dialoqun inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə də məlumat verən Sahibə Qafarova qeyd edib ki, Manama şəhərində dörd beynəlxalq təşkilata Şəbəkə yanında müşahidəçi statusu verilmişdir. Həmçinin Manama konfransından sonra Parlament Şəbəkəsi TürkPA və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi yanında müşahidəçi statusu əldə edib. Bundan başqa, Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransı ilə anlaşma memorandumu imzalanıb. İki gün öncə isə ən qədim və ən böyük parlamentlərarası təşkilat olan Parlamentlərarası İttifaqla anlaşma memorandumu imzalanıb.

Bu konfransın "İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması" mövzusuna həsr olunduğunu xatırladan spiker Sahibə Qafarova deyib ki, bu gün iqlim dəyişikliyi diqqət yetirilməsi ən önəmli və təcili çağırışlardan biridir. Eyni zamanda bu, qlobal cavab tədbirləri və birgə səylər tələb edən bir çağırışdır. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan yekdilliklə COP29-a evsahibliyi edən ölkə seçilib. Qeyd olunan tədbir bu ilin noyabrında Bakı şəhərində keçiriləcək. Biz bununla qürur duyuruq. Bu, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının bariz nümunəsidir. Ölkəmizdə 2024-cü il "Yaşıl Dünya Naminə Həmrəylik İli" kimi qeyd olunur. Bu gün Azərbaycanın çox ciddi "yaşıl enerji"yə keçid gündəliyi mövcuddur və ölkəmizdə bərpaolunan enerjinin həm istehsalına, həm də ixracına böyük investisiyalar qoyulur.

Spiker həmçinin vurğulayıb ki, Azərbaycanın COP29-un sədri qismindəki rolu beynəlxalq tərəfdaşlarımızı planetimizin rifahı naminə iqlim fəaliyyətlərini artırmağa cəlb etmək üçün mühüm imkan yaradır. Bu mənada inklüziv dialoq, konstruktiv əməkdaşlıq və birgə fəaliyyət bu istiqamətdə irəliləyiş əldə etmək üçün əsas faktordur. Şübhəsiz ki, məqsədlərimizə çatmaq üçün bu prosesdə beynəlxalq birliyin bütün üzvlərinin iştirakı vacibdir. Parlamentlərarası İttifaqın Baş katibi, zati-aliləri cənab Martin Çunqonqun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Parlamentlərarası İttifaq ilə birlikdə COP-29 çərçivəsində parlament iclası təşkil etməyi planlaşdırır. Bu tədbir parlamentarilərə geniş fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə hansı addımları ata biləcəklərini müəyyən etmək imkanı verəcəkdir. Beləliklə, görüş çoxtərəfli iqlim fəaliyyətinə parlament töhfəsi verəcəkdir.

Spiker Sahibə Qafarova çıxışının sonunda bir daha vurğulayıb ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bundan sonra da parlamentlərarası əməkdaşlığın və parlamentlərimiz və ölkələrimiz arasında dialoqun təşviqinə güclü sadiqliyini nümayiş etdirəcəkdir.

Sonra konfrans işini digər çıxışlarla davam etdirib.

Tədbirdə çıxış edən Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, təşkilatın Baş katibi Martin Çunqonq, Əlcəzair Milli Assambleyasının Sədri İbrahim Boğali, Maldiv Respublikası Xalq Məclisinin Sədri Mohamed Aslam, Nepal Federal Parlamentinin Nümayəndələr Palatasının Sədri Dev Raj Ghimir, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Qabon Milli Assambleyasının Prezidenti Jan François Ndonqu, Ərəb Parlamentinin Sədri Adel bin Abdul Rahman Əl-Asumi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Bakı Təşəbbüs Qrupunun səlahiyyətli şəxsi Jan Jakob Bicep və digər ölkələrin parlamentariləri tədbirin yüksək səviyyədə təşkilinə görə təbriklərini ifadə ediblər. Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Parlament Şəbəkəsinin gənc təşkilat olmasına baxmayaraq, uğurlu fəaliyyəti, institusional inkişafı istiqamətində görülən işlər yüksək qiymətləndirilib.

Konfransda daha sonra təşkilati məsələlərə baxılıb və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin büro və daimi komitələrinin formalaşdırılması, QHPŞ yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar qəbul olunub.

Tədbir konfransın yekunlarına dair Cenevrə Bəyannaməsinin qəbul edilməsi ilə başa çatıb.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Qanunverici orqanlar dövlətlər arasında münasibətlərin dərinləşməsində mühüm rol oynayırlar

Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 148-ci Assambleyası çərçivəsində Serbiya Milli Assambleyasının sədri Anna Brnabiç ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, siyasi və iqtisadi, eləcə də bir sıra digər sahələrdə əməkdaşlığın inkişaf etdiyi diqqətə çatdırılıb.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlər ölkələrimiz və xalqlarımız arasında dostluğun gücləndirilməsinə mühüm töhfələr verir. Sədr bu münasibətlərin iki ölkənin parlamentləri arasında da uğurla davam etdirildiyini vurğulayıb. Serbiyaya rəsmi səfərini məmnunluqla xatırlayan Sahibə Qafarova səfər zamanı keçirilən görüşlərin və aparılan müzakirələrin qanunverici orqanlar arasında münasibətlərin daha da genişlənməsinə imkan yaratdığını bildirib. Tərəflər dostluq qrupları və parlament komitələri arasında əməkdaşlığın genişləndirilməsi imkanları barədə də fikir mübadiləsi aparıblar.

Serbiya Parlamentinin spikeri Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərində Prezident İlham Əliyevin inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb və Serbiyanın parlament müşahidə missiyası vasitəsilə ölkəmizdə azad və demokratik şəraitdə keçən seçkiləri izlədiyini diqqətə çatdırıb.

Ölkəsinin Azərbaycanla əlaqələrin müxtəlif sahələrdə daha da genişlənməsində maraqlı olduğunu vurğulayan Serbiya Parlamentinin spikeri bildirib ki, qanunverici orqanlar arasında əlaqələr dövlətlərimiz arasında münasibətlərin daha da dərinləşməsində mühüm rol oynayır.

Görüşdə tərəflər beynəlxalq münasibətlər sistemində, o cümlədən beynəlxalq təşkilatlarda, xüsusən də AŞPA-da müşahidə olunan ikili standartları tənqid edərək bildiriblər ki, bu AŞPA-nın üzərinə götürdüyü vəzifələr və missiyası ilə ziddiyyət təşkil edir.

Görüşdə, həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP-29) əhəmiyyəti qeyd olunub və Serbiya tərəfi bu mühüm beynəlxalq tədbirə evsahibliyi etdiyinə görə Azərbaycanı təbrik edib.

Söhbət zamanı həmçinin bildirilib ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsinə etiraz olaraq Serbiya Parlamenti təşkilata müraciət ünvanlayıb və bu qərarın ləğv edilməsinə çağırış edib. Spiker Sahibə Qafarova bu addıma görə Serbiya tərəfinə minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# "Le Fiqaro": "Makronun anti-Azərbaycan planı iflasa uğrayıb"

**Fransanın dünyaca məşhur "Le Fiqaro" nəşri Azərbaycanla bağlı növbəti məqaləsi ilə gündəmə gəlib.**

"Report" xəbər verir ki, məqalədə prezident Emmanuel Makronun yürütdüyü siyasətin uğursuzluğu, fəsadları tənqid atəşinə tutulsa da, Fransa hökumətinin Azərbaycana qarşı çirkin siyasəti ortaya qoyulur.

Yelisey sarayının tezisləri ilə işləyən qəzet yazır ki, Emmanuel Makron ermənilərin taleyinə səmimi olaraq biganə yanaşmayan yeganə liderdir, amma Fransanın təşəbbüsləri nəticə vermir. Məsələn, ötən illər Qarabağa dair Fransanın təşkil etmək istədiyi konfrans ABŞ-nin etirazı səbəbindən baş tutmamışdı. Məqalədən məlum olur ki, 2022-ci ilin oktyabrında Makron "erməni məsələsini" Roma Papası ilə də müzakirə etmək istəyib, özü ilə ermənipərəst yazıçı Silven Tessonu da aparıb. Amma Vatikandan istədiyi dəstəyi ala bilməyib.

Bu məlumatları sızdırmaqla Yelisey sarayı Azərbaycana qarşı planlarının iflasa uğramasına görə məsuliyyəti ABŞ-nin, Vatikanın və digərlərinin üzərinə atmaq istəyir, çünki Makron Prezident İlham Əliyevə məğlub olduğunu etiraf etmək istəmir. Makron məhz İlham Əliyevə məğlub olub.

Fransanın "Le Figaro" nəşrində "Dağlıq Qarabağın yox olması, reallaşdırıla bilinməyən fransız vədinin xronikası" adlı məqalə dərc olunub. Həmin məqaləni olduğu kimi təqdim edirik:

"Erməni anklavının Azərbaycan tərəfindən ildırımsürətli istilasından 6 ay sonra "Le Figaro" Fransanın Ermənistanla əlaqələrinə görə xüsusi olaraq gözləndiyi dosyenin siyasi kulislərinə yenidən qayıdır.

Fransaya Azərbaycanın blokadası nəticəsində 8 ay ərzində təcrid qalmış Dağlıq Qarabağ ermənilərinin yardımına gəlməsi üçün təzyiq etmək məqsədilə Silven Tessonun xəyalına gətirdiyi bütün fikirlərdən bəlkə də bu, ən fantastiki olub. Jan Dujardini prezident rolunu oynamağa məcbur etmək və azərbaycanlılar tərəfindən blokada edilmiş anklava aparan yol - Laçın dəhlizinə qədər yürüş təşkil etməkdir. Aktyor yazıçı tərəfindən hazırlanmış mətni oxumalı idi, o sözləri ki, dövlət başçısı özü əraziyə gəlsəydi onları ifadə edə bilərdi. Çünki Tesson əmindir: Emmanuel Makronun səfəri məsələləri dəyişə bilərdi. Məgər Emmanuel Makron "France 2"-nin canlı yayımında yazıçının 2022-ci ilin payızında "Le Figaro Magazine"- də dövlət başçısına qarşı olan dərc edilmiş açıq məktubuna cavab vermədimi: "Biz erməniləri heç bir zaman tərk etməyəcəyik?"

Bu ifadələr iki il bundan qabaq Latviyanın paytaxtı Riqada dövlət başçısının "Azərbaycanı istila layihəsinə təşviq edən" Türkiyənin "hərbi ismarıclarını" qınayan ifadələrini xatırlatdı. Bakının Dağlıq Qarabağ regionunun 70%-ni götürdüyü 44 günlük müharibənin başlanmasından bir neçə gün qabaq dövlət başçısı döyüşkən tərzdə bəyan etdi: "Biz bunu heç bir zaman qəbul etməyəcəyik. Fransa öz rolunda olacaq". Artsaxın Fransadakı nümayəndəsi Hovhannes Guevorkyan yada salır: "Bu o qədər güclü idi! O qədər unikal idi!"


Rechercher JO Paris 2024 Politique International Société Vox Économie Sport Culture Voyage Style Madame Vin Se connecter

LE FIGARO Lire le journal International VENTE FLASH 4,49€/mois pendant 12 mois

Guerre en Ukraine Amériques Europe Moyen-Orient Le meilleur du journalisme européen Asie Afrique S'installer au Canada

Accueil > Actualité > International

Réservé aux abonnés

La disparition du Haut-Karabakh, chronique d'une promesse française intenable

Par Elisabeth Pierson

Publié le 24/03/2024 à 07:00, mis à jour hier à 12:34

Copier le lien

## Qabaqcadan müəyyən edilmiş tale

Azərbaycanlıların iştahasını sakitləşdirmək üçün daha çox şey lazım idi. 2023-cü il 19 və 20 sentyabrda Azərbaycan Dağlıq Qarabağın yaşayış məntəqələrinə qarşı ordusunu hücuma keçirtdi. 24 saat ərzində 200-dən çox erməninin öldürülməsi və 400-ünün yaralanması yerli hakimiyyəti silahı yerə qoymağa məcbur etdi. Artsaxlılar özlərini, o cümlədən laqeydliklə parıldayan erməni baş naziri Nikol Paşınyan tərəfindən tərk edilmiş hiss edirlər. Qondarma Dağlıq Qarabağ respublikası öz rəsmi süqutunu elan etdi. Həmin dövrdən, qınayıcı bəyanatlar xaric, Bakı heç bir sanksiyaya məruz qalmadı. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın cənubunun onun növbəti hədəfi olması ilə bağlı xəbərdarlıq etməsindən sonra Paris Yerevanla hərbi əməkdaşlıq qurdu. Dekabrda ordunun daşınması üçün 24 ədəd zirehli nəqliyyat vasitəsi və həmkarlarına yüksək dağlarda döyüş hazırlığı keçmək üçün 15 dağ atıcıları Qafqaza göndərildi. Fevralın ortasında Yerevana presedenti olmayan səfər çərçivəsində ordu naziri Sebastian Lekornu yeni hərbi avadanlığın göndərilməsini vəd etdi. Fransanın mövqeyi artsaxlıları birmənalı olmayan vəziyyətə salır: "Erməni diplomatik mənbəyə görə, Emmanuel Makron bəlkə də yeganə dövlət başçısıdır ki, həqiqətən də onların taleyindən narahatdır. Onun iştirakı səmimi olub. Mən deyə bilmərəm, o, uğurlu ola bilmədi".

## Yeliseydə bağlı qapılar arxasında

2023-cü ilin yanvar ayı, günorta radələrində Dağlıq Qarabağ hələ blokada altındadır, bir qrup erməniyönümlü fəallar və jurnalistlər Yelisey sarayında toplaşıblar. Burada Paskal Brukner, Olivier Veber və futbolçu Yuri Djorkaeff də var. Prezident onlara diqqətlə qulaq asır, sonra söz alır. "Guilde europeenne du Raid" QHT-sinin vitse-prezidenti Hugues Devavrin danışır ki, "o, bizə aşırı dərəcədə həssas olan bir sıra məsələ barəsində məlumat verdi. O, diplomatik müşaviri İzabelle Dumont ilə hazırladığımız qeydi mükəmməlcəsinə oxumuşdu".

İlk növbədə prezidentin səfərini tövsiyə edirdi. Hugues Devavrin izah edir - "Mitteranın Sarayevoda etdiyini etmək, əraziyə getmək və bunun daha mümkün olmadığını bəyan etmək". Və nəhayət o, Fransanın mülki-hərbi əməliyyatının başlanmasını tövsiyə edirdi.

Silven Tesson yada salır ki, "biz onun məsələyə yiyələnməsi səviyyəsindən heyran idik. O, azərbaycanlıların iştahasını anlamışdı və bizdən daha çox bədbin idi - bu da normaldır, çünki o, bizdən daha yaxşı məlumatlıdır. O, artıq bilirdi ki, qurudan hücum olacaq". Qısaca olaraq, intellektuallar mövzunun icraedici qurumda layiq olduğu yerdə olduğu əminliyi ilə çıxdılar: "Makron qarşıdan gələn geosiyasi qarışıqlıq fonunda məsələnin reallıqda Ermənistandan üstün olduğunu anlayırdı".

## Ora tək getməmək

Dövlət başçısı cavabında deyirdi "rəhbərlərlə müzakirə etmək üçün son şansı verin". Danışıq yolu ilə çıxış tapmağa cəhd etmək üçün Emmanuel Makron bürosundan, Azərbaycan və Ermənistan rəhbərləri ilə boşuna çoxsaylı telefon danışıqları etdi. Diplomatik mənbə qeyd edir ki, "bəlkə də o, Prezident İlham Əliyevlə ən çox danışan xarici liderdir".

Humanitar Konfrans layihəsinə start verildi. Lakin heç bir izah olmadan, o, keçirilməsi nəzərdə tutulan tarixdən bir neçə gün əvvəl ləğv edildi. Diplomatik mənbə qeyd edir ki, "bütün səylərimizə rəğmən, həmin dövrdə iştirakı gözlənilən tərəflər arasında minimal konsensus yox idi". Müxtəlif mənbələrə görə, layihə Vaşinqtonun etirazı səbəbindən ləğv olundu. Ondan 6 ay sonra Parisdən heç bir yeni təşəbbüs irəli sürülmür.

Estafeti diaspor götürür. Fransadakı erməni təşkilatlarını koordinasiya edən CCAF-ın həmsədri Frank Papazyan da, öz növbəsində, Emmanuel Makrona humanitar yük aparması üçün təzyiq edir. Erməniəsilli fransız danışır ki, "o mənə deyir: bu çox yaxşı ideyadır, mən razıyam" və inanmaq istəyir ki, bu "səmimi" istək idi. Lakin bundan sonra heç bir şey baş tutmur. Frank Papazyan əmin edir ki, bu yenə də "tərəfdaşların çatışmazlığındandır".

Fransa niyə belə təkdir? Avropa tərəfindən - 27 ölkə Ukraynaya baxır. Bundan əlavə, Avropa İttifaqı və Bakı 2022-ci ilin iyulunda "enerji əməkdaşlığında yeni fəsil" açmaq üçün qaz sazişi imzalayıblar. Beləliklə, vahid mövqeyin olmamasından Azərbaycana sanksiya təklif edən heç bir qətnamə qəbul edilmədi. Erməni məsələsinə yaxından cəlb olunmuş "Renew"un avrodeputatı Natali Loiseau əmin edir ki, "biz qətiyyətlə döyüşdük, lakin karbohidrogenlərə ümid bəsləyən bir neçə ölkə bu yolla getməyə hazır deyildi". Bu xüsusda o, İtaliya və Macarıstanı qeyd edir. Hətta Vatikan kənardadır. 2022-ci ilin oktyabrında Roma Papasını ziyarət edərkən, Emmanuel Makron özü ilə Tessonu apardı ki, sonuncu Ermənistanla bağlı söz desin. Yazıçı katoliklərin rəhbəri və onun xarici işlər naziri Qallaqgherin biganəliyindən heyrətə gəldi. O söyləyir ki, "ermənilərin taleyini qeyd edəndə, hər ikisi tam biganəlik, hətta aqressivlik nümayiş etdirdilər". Yazıçı acı bir şəkildə istehza edir: "Roma Papası yeni qlobal və bir-biri ilə əlaqəli bir dünyanın ortaya çıxması ilə çox məşğuldur, ona görə də ilk xristianlara qayğı göstərə bilmir. Erməni - bir xalqın müəyyən bir torpağa bağlılığı və müəyyən bir mənəviyyata mənsub olması deməkdir. Bu, əbədi dəyişiklik ayaqqabısında bir daşdır. Ermənistan buna görə narahatdır. Vatikanda olduğum zaman başa düşdüyüm bu oldu".

## Ərazi vahidlərinin dəstəyi

Bu ümumi laqeydlik içərisində fransız dəstəyi fərqli şəkildə özünü göstərir. Senat bir çox qətnaməyə səs verir. Seçkilərdə seçilmiş şəxslər, xüsusilə də Auvergne-Rhône-Alpes regionunun prezidenti Laurent Vauquiez və avrodeputat François-Xavier Bellami səfərlər edirlər. Fransız ərazi vahidləri səfərbər olunur. Sol siyasi düşərgədə Anne Hidalgo Artsax istiqamətində humanitar yük göndərir. Xavyer Bertrandan başlayaraq ekoloqçu Janna Barsegyandan keçərək Bruno Retailleauya qədər sağçı və solçulardan ibarət balaca qrupla əhatə olunmuş Parisin meri 2023-cü ilin avqustun sonunda rus sülh əsgərlərinin saxlandığı sərhədə qədər səfər edib. Lakin İle-de-France, Hauts-de-France, Occitanie və Pays de la Loire regionları, eləcə də Paris, Marsel və Strasburq şəhərlərinin loqosunu daşıyan və uşaq qidası və elektrik generatorlarla yüklənmiş yük maşınları digərləri kimi blok edilmiş vəziyyətdə qalırlar.

Parisin Minsk qrupunun həmsədri rolunun tələb etdiyi neytrallığı dərk edən Xarici İşlər Nazirliyi (ATƏT tərəfindən 1992-ci ildə Qafqazda münaqişənin həlli üçün yaradılmış Fransa, ABŞ və Rusiyadan ibarət vasitəçi qrup) sakit qalır. Ketrin Kolonna İrəvana yalnız Azərbaycanın 19 və 20 sentyabr 2023-cü il tarixli hərbi əməliyyatından sonra səfər edir. Ermənilərin kütləvi köçü fonunda fransız diplomatiyasının rəhbəri vəziyyətin "etnik təmizləməyə bənzəməsinin" mümkünlüyünü hesab edir və hərbi avadanlığın çatdırılmasını elan edir.

Bir neçə gün sonra İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın ziyarət etməkdən imtina edəcəyi Qranadadakı Avropa Sammitində Emmanuel Makron Bakıya qarşı "sanksiya vaxtının olmadığını" bəyan edəcək. O, Azərbaycanlı həmkarına "təzyiqi saxlamaq" və Ermənistanı "ən yaxşı şəkildə qorumaq" üçün zəng edəcəyinə dair öhdəlik götürəcək. Bu, Prezident Əliyevi heyrətləndirmək üçün kifayət etmədi. Azərbaycan Prezident Administrasiyası kommünikesində Fransanı Ermənistanı "silahlandırmaqla" Qafqazda "yeni müharibə hazırladığında" ittiham edəcək. Fevralda 97 faiz səslə yenidən seçilmiş İlham Əliyev öz inaqurasiya çıxışında bəyan edib ki, Ermənistanla mübahisəsində heç bir beynəlxalq vasitəçilik istəmir. Və Fransanın ünvanına "öz işinizlə məşğul olun", - deyə vurğulayıb.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu CƏDVƏLİ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Hacıqabul** | Hacıqabul, Şirvan, Salyan, Neftçala | **04** |
| 2. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **04** |
| 3. | **Baş prokuror** Kamran Əliyev | **Neftçala** | Neftçala, Şirvan, Hacıqabul, Salyan | **06** |
| 4. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Yardımlı** | Yardımlı, Masallı, Cəlilabad | **09** |
| 5. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Səyyad Salahlı | **Şəki** | Şəki, Oğuz, Qəbələ | **17** |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Tərtər** | Tərtər, Bərdə | **18** |
| 7. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Ağdaş** | Ağdaş, Yevlax, Göyçay, Qəbələ, Ucar, Zərdab | **18** |
| 8. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Ağdam** (Quzanlı) | Ağdam, Ağcabədi, Laçın | **18** |
| 9. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Samux** | Samux, Gəncə, Naftalan, Göygöl, Daşkəsən, Goranboy, Kəlbəcər | **19** |
| 10. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Ağdam** (Quzanlı) | Ağdam, Ağcabədi | **19** |
| 11. | **Mədəniyyət naziri** Adil Kərimli | **İmişli** | İmişli, Beyləqan, Saatlı, Sabirabad | **19** |
| 12. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Qazax** | Qazax, Ağstafa, Tovuz | **19** |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Zaqatala** | Zaqatala, Balakən | **19** |
| 14. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Daşkəsən** | Daşkəsən, Göygöl | **19** |
| 15. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Bərdə** | Bərdə, Yevlax, Tərtər | **22** |
| 16. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Tərtər** | Tərtər, Bərdə | **22** |
| 17. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Göygöl** | Göygöl, Daşkəsən | **25** |
| 18. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl | **25** |
| 19. | **Baş prokuror** Kamran Əliyev | **Ağdaş** | Ağdaş, Yevlax, Ucar, Zərdab | **26** |
| 20. | **Energetika naziri** Pərviz Şahbazov | **Biləsuvar** | Biləsuvar, İmişli, Saatlı, Sabirabad, Salyan, Neftçala, Cəlilabad, Cəbrayıl | **26** |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **26** |
| 22. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Göygöl** | Göygöl, Daşkəsən | **26** |
| 23. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **26** |
| 24. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran | **26** |
| 25. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Qəbələ** | Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | **26** |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Qazax** | Qazax, Ağstafa | **26** |
| 27. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Abşeron** | Abşeron, Zəngilan | **26** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# "Moskva anklavlar məsələsinin həllinə köməklik göstərməyə hazırdır"



Ərazilərin, o cümlədən anklavların məsələsi, Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiyası üzrə ikitərəfli komissiya çərçivəsində həll edilməlidir.

AZƏRTAC xəbər verir ki, bu barədə dünən keçirilən brifinqdə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin (RF XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.

"Biz öz tərəfimizdən, Rusiyanın əlində olan unikal kartoqrafik materiallar və ekspertiza əsasında maksimum dərəcədə köməklik göstərməyə hazırıq. Analoji prinsiplər Ermənistan və Azərbaycan arasında nəqliyyat kommunikasiyalarının açılmasına da aiddir", - diplomat bildirib.

O xatırladıb ki, söhbət Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən, Ermənistanın Sünik vilayətinin (Zəngəzur - red.) ərazisindən keçən marşrutdan gedir.

Mariya Zaxarova vurğulayıb ki, kompromislərin inkişaf etdirilməsi üçün özünü doğrultmuş əsaslı mexanizm mövcuddur - bu, Rusiya, Azərbaycan və Ermənistan baş nazirləri müavinlərinin üçtərəfli işçi qrupudur.

"İşçi qrupunun 2023-cü il iyunun 2-də keçirilmiş sonuncu iclasında tərəflər regionda nəqliyyat-iqtisadi marşrutlarının açılması ilə bağlı kompleks şəklində, qarşılıqlı olaraq faydalı qərarın qəbul edilməsinə yaxın idilər. Biz tərəfdaşları siyasi iradə göstərməyə və üçtərəfli işçi qrupu da daxil olmaqla, yaradılmış üçtərəfli formatların qarşılıqlı fəaliyyətini bərpa etməyə çağırırıq", - deyə Rusiya XİN-in rəsmi nümayəndəsi əlavə edib.



I.Gr. nr. 03/01-352
21 martie, 2024

Parlamentul Republicii Moldova

Deputat în Parlamentul Republicii Moldova

Parliamentary Assembly of the Council of Europe
Milli Majlis of the Republic of Azerbaijan

Letter of appeal

We, the undersigned members of the Moldovan delegation to the Parliamentary Assembly of the Council of Europe appeal to both the Parliamentary Assembly of the Council of Europe and the Milli Majlis of the Republic of Azerbaijan to work together in order to bridge the gap emerged following the decision that was taken during the January 2024 part-session of PACE.

Considering the importance of fostering good relationships among member states of the Council of Europe, especially between the Republic of Moldova and the Republic of Azerbaijan, and recognizing that both countries share common values such as democracy and the rule of law, we would like to underline the following:

- The Republic of Azerbaijan, like most member states, through its delegation to PACE has contributed to the upholding and promotion of the core values and principles of the Council of Europe.
- Promoting democracy and strengthening the rule of law is an ongoing process that is not without challenges, especially for young democracies.
- In the present context of Russian aggression against Ukraine, which poses a significant threat to the peace and security of the whole of Europe, it is very important to address and overcome all the challenges through an interparliamentary dialogue within the PACE.
- Inability of the delegation of the Republic of Azerbaijan to participate in the work of PACE brings no long-term benefit to either PACE, or Azerbaijan.

We would like to call on the PACE and the Milli Majlis of the Republic of Azerbaijan to return to the negotiation table and solve, with the help of representatives of other member states, the issues that led to the decision taken in the last PACE part-session.

Ion GROZA
MP, Head of the delegation of the Parliament of the Republic of Moldova to the PACE

Natalia DAVIDOVICI
MP, Member of delegation

Andrian CHEPTONAR
MP, Member of delegation

# Moldova nümayəndə heyəti AŞPA-ya Azərbaycanla bağlı çağırış ünvanlayıb

Moldovanın Avropa Şurasının Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti AŞPA-ya məktub ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, Moldova nümayəndə heyətinin məktubunda AŞPA-nın bu ilin yanvar sessiyasında qəbul edilmiş qərardan sonra təşkilat ilə Azərbaycan arasında yaranmış uçurumun aradan qaldırılması üçün Avropa Şurası Parlament Assambleyasına və Azərbaycan Respublikasının Milli Məclisinə birlikdə çalışmaq üçün çağırış ünvanlanıb.

Sənəddə digər üzv dövlətlər kimi, Azərbaycanın da AŞPA-dakı nümayəndə heyəti vasitəsilə təşkilatın dəyərlərinin və prinsiplərinin irəlilədilməsinə dəstək göstərdiyi qeyd edilib, habelə Avropada təhlükəsizliyə və sülhə mühüm çağırışların olduğu bir dövrdə bütün problemlərin AŞPA çərçivəsində parlamentlərarası dialoq vasitəsilə həllinin vacibliyi bildirilib.

Məktubda, həmçinin Azərbaycan nümayəndə heyətinin AŞPA-nın işində iştirak edə bilməməsinin nə təşkilata, nə də təşkilata üzv dövlətlərə uzunmüddətli fayda gətirmədiyi vurğulanıb.

# XİN: "Aİ və ABŞ-nin açıqlamaları açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır"

Məlum olduğu kimi, Azərbaycan tərəfi dəfələrlə Avropa İttifaqının, xüsusilə də onun bəzi üzv dövlətlərinin regionumuza münasibətdə müəyyən yanaşmaları və fəaliyyətləri ilə bağlı öz mövqeyini açıq şəkildə ifadə edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə aprelin 5-də Brüsseldə keçiriləcək Aİ-Ermənistan-ABŞ müştərək konfransı ilə bağlı açıqlamasında bildirib.

"Bu bir faktdır ki, Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesi Azərbaycan tərəfindən irəli sürülüb və burada o, münaqişədən sonrakı normallaşmanın bütün məsələlərində hər zaman konstruktiv mövqe nümayiş etdirib. Bundan əlavə, 6 oktyabr 2022-ci il tarixli dördtərəfli Praqa görüşü zamanı delimitasiya edilməmiş sərhədin Ermənistan tərəfi boyunca Azərbaycan və Ermənistan arasında etimadın yaradılmasına töhfə verməsi güman edilən 40 nəfər mülki monitorinq ekspertindən ibarət qısamüddətli Avropa İttifaqı Monitorinq Potensialının (AİMP) yerləşdirilməsinə razılıq verilməsi Azərbaycan tərəfindən xahiş olunub.

Təəssüf ki, ilkin iki aylıq müddətdən sonra Azərbaycanın razılığı olmadan AİMP əhəmiyyətli dərəcədə uzadılmış müddət və daha çox müşahidəçi sayı ilə Aİ-nin Ermənistandakı Missiyasına (AİEM) çevrilib. Bu missiya o vaxtdan etibarən anti-Azərbaycan təbliğat aləti kimi fəal şəkildə istismar edilməkdədir. Bundan əlavə, Kanadanın AİEM-ə qoşulması ilə o, de-fakto NATO missiyası xüsusiyyətinə malikdir. Bu addımlar, həmçinin AİEM-i çəkindirici qüvvə adlandıran və heç bir əsas olmadan Azərbaycanın mümkün müdaxiləsi barədə illüziya yaradan bəyanatlarla müşayiət olunur.

Beləliklə, AİEM-in bəyan edilmiş mandatına uyğun olaraq, tam şəkildə neytral, mülki və silahsız missiya kimi fəaliyyət göstərməsini, habelə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş və ya onun legitim təhlükəsizlik maraqlarına bu və ya digər şəkildə təsir edəcək istənilən fəaliyyətdən çəkinməsini təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsi məqsədilə Aİ tərəfinə ciddi şəkildə çağırış edilib.

Narahatlıq doğuran digər məsələ Fransanın irəlilətdiyi, Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş və daha böyük hərbi təchizatlara (öldürücü və hücum tipli silah növləri daxil olmaqla) dair yeni vədlərin də yer aldığı kampa-



niyadır. Aİ-nin digər bir üzvü Yunanıstan bu yaxınlarda Ermənistanla hərbi əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bəyanatlar verib. Bundan əlavə, Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də keçiriləcək toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə xələl gətirir.

Maraqlıdır ki, Azərbaycan 30 ilə yaxın silahlı təcavüzün, işğalın və etnik təmizləmənin qurbanı olduğu halda və hətta BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, heç zaman Aİ və ABŞ-dən bu formada qeyd-şərtsiz dəstək almayıb.

Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. Sözügedən konfrans tam şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur və regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya ziddir. Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və dırnaqarası təsir dairələri yaradır.

Ermənistandakı revanşist əhvali-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst ictimai təzahür Ermənistanın Azərbaycana qarşı yenidən mümkün təxribatlarında Aİ və ABŞ-nin Ermənistanı dəstəkləyəcəyinə dair bu ölkədə təhlükəli illüziya yarada bilər. Bu halda, Aİ və ABŞ Ermənistanın sabitliyi pozan hər hansı mümkün hərəkətinə görə məsuliyyəti bölüşəcəklər.

Beynəlxalq hüququn əsas norma və prinsipləri əsasında davamlı sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaq üçün unikal imkan yarandığı bir zamanda, biz bir daha bütün tərəfləri sülh səylərinə əks təsir göstərən və regionda yeni eskalasiya və gərginlik dalğalarına səbəb ola biləcək addımlardan çəkinməyə çağırırıq", - deyə Ayxan Hacızadə qeyd edib.

# "Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatında yer alan iddiaları qətiyyətlə pisləyirik"

"Danimarkanın keçmiş Baş naziri, habelə NATO-nun keçmiş Baş katibi olmuş Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış 2024-cü il 21 mart tarixli "Avropa İttifaqı-Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı hesabatda yer alan Azərbaycan əleyhinə əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatına dair şərhində yer alıb.

A.Hacızadə qeyd edib ki, hesabatda bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız müddəalar Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir. Bu müddəalar Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsinə yönəldiyi iddia olunan sözügedən hesabatla bağlı ciddi suallar doğurur. Əslində bu, absurd təbliğatdan başqa bir şey deyil. Bundan əlavə, hesabatın ermənipərəst hekayələrin təbliğatı məqsədilə Ermənistan hökuməti ilə gəlirli sövdələşməyə uyğun olaraq hərəkət edən sözügedən erməni lobbi qrupu tərəfindən aprelin 5-də keçiriləcək ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli konfransı ərəfəsində ictimaiyyətə açıqlanması sözügedən hesabatın və onu imzalayan sabiq rəsmilərin əsl niyyətlərini üzə çıxarır. Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq və şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş Baş katibi statusundan sui-istifadəyə davam edir. Ermənistan Respublikası hökuməti onun müştərisi kimi, "çox düşünülmədən təsdiqlənmiş" bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib.

"Maraqlıdır ki, Azərbaycanın Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid törətməkdə ittiham olunduğu bu hesabatın həmmüəlliflərindən bəziləri böyük şövqlə müdafiə etdikləri Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən işğal və etnik təmizləmənin birbaşa şahidi olublar.

Biz qəti şəkildə, sözügedən birtərəfli mövqenin, eyni zamanda bütün mövcud faktlara heç bir məhəl qoyulmamasının Ermənistandakı revanşist qrupları Azərbaycana qarşı daha radikal mövqe tutmağa sövq etməklə yanaşı, cəmiyyətdə Qərbin "sülh prosesində" Ermənistanın qeyri-konstruktiv mövqeyini dəstəklədiyi illüziyası yaratdığı qənaətindəyik. Ermənistan hökumətinin maliyyələşdirdiyi təbliğat kampaniyaları Ermənistan tərəfinin regional sülh gündəmi ilə bağlı səmimi olmadığını bir daha nümayiş etdirir. Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi Avropa təsisatları da daxil olmaqla, müəyyən dar düşüncəli siyasətçilər vasitəsilə bahalı və mənasız böhtan kampaniyalarının aparılması regional sabitliyə və sülh quruculuğu səylərinə xidmət etmir. Bunun əvəzinə, Ermənistan hökuməti və erməni lobbi qrupları regionda əsl sülh gündəminin təşviqinə diqqət yetirməlidirlər", - deyə XİN rəsmisi vurğulayıb.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin aprel ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 4 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 5, 19, 26 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 5, 23 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsi** | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 22 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 24 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 24 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 26 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 26 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Daha 134 nəfər Füzuliyə qayıtdı

## Bu il Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı şəhərləri də sakinlərinə qovuşacaq

2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 6000 nəfərə yaxın sakinin dədə-baba yurduna köçürülməsi artıq təmin edilib.

Hər il dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasına ayrılan vəsait də keçmiş məcburi köçkünlərin tezliklə öz əzəli torpaqlarına qayıdışına yönəlib.

İşğaldan azad olunmuş şəhərlərimizin baş planlarına əsasən həmin ərazilərdə yeni yaşayış məhəllələri, evlər, əhalinin yaşayışı üçün lazımi bütün infrastruktur qurulur.

Bugünədək işğaldan azad olunmuş üç kəndə və iki şəhərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Ümumilikdə 1488 ailə - 5853 nəfər olmaqla, 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər







rayonunun Talış kəndinə, 451 ailə (1705 nəfər) Laçın şəhərinə, 631 ailə (2379 nəfər) Füzuli şəhərinə, 211 ailə (808 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb.

Bu il də Böyük qayıdış çərçivəsində azadlığa qovuşmuş ərazilərin əzəli sahibləri öz yurdlarına dönəcəklər. Prezident İlham Əliyevin hələ ilin əvvəlində anonsunu verdiyi kimi, 2024-cü ildə daha beş şəhərə - Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalıya qayıdış baş tutacaq. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bütün infrastruktur layihələri buna imkan verir.

Dövlət başçısı, həmçinin növbəti illə bağlı da müjdəli xəbəri vermişdi: "Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, - hansılarda ki, mən təməl qoymuşam, - orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk. Kəndlər tamamilə dağılmış vəziyyətdədir".

Göründüyü kimi, dövlətimizin qarşısındakı prioritet məsələlərdən biri də keçmiş məcburi köçkünlərin qısa zamanda dədə-baba yurdlarına qayıdışı, 30 ilə qədər çəkən nisgillərini sevincli, xoşbəxt günlərlə əvəzləməkdir.

Elə ötən gün Füzuli şəhərinə qayıdanlar da yurdlarına qovuşmuş xoşbəxtlər sırasına daxil olanlardır. Daha 35 ailə - 134 nəfər Füzuli şəhərində daimi məskunlaşdı. Füzuliyə qayıdanlar uzun illərdir respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, müxtəlif düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələr idi.

Yazın gəlişi, təbiətin oyanışı bu insanların da həyatına günəş kimi doğdu. Onlar da gələcək xoş günlərini artıq doğma el-obalarında yaşayacaq, dirçəldilən Qarabağda canlanan həyatın bir parçası olacaqlar. Böyük xoşbəxtlikdir - evə, yurda, babalarının uyuduğu torpaqlara Böyük qayıdış...

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## İlham Əliyevin ədalətli və qətiyyətli siyasəti sülhün yeganə qarantıdır

### Qərb Cənubi Qafqazda yeni savaş ssenarisi hazırlayır

Cənubi Qafqazda sülhün, təhlükəsizliyin bərqərar olunmasını istəməyən qüvvələr indi yenə də aşkar şəkildə "hərəkətə" keçiblər. Görünən odur ki, ABŞ və Qərb bütün mümkün vasitələrlə Rusiyanı regiondan sıxışdırıb çıxarmaq istəyir və bunu da artıq gizlətmirlər. Bu məqsədə çatmaq üçün isə alət olaraq Ermənistandan istifadə edirlər. Bu da təbii ki, məğlub ölkənin Azərbaycanla sülh müqaviləsini imzalamaqdan yayınmasına şərait yaradır.



Ermənistan 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayarkən də Qərb dairələri status-kvonun dəyişməməsi üçün daim ikili standartlar tətbiq etməklə bu ölkəyə sahib çıxırdılar. İşğalçı ölkə də bu cəzasızlıq mühitindən yararlanaraq istədiyi oyunu oynayır və istədiyi vaxt Azərbaycanı təxribata çəkirdi. Amma bu dəfə fərqli oyun oynayırlar. Yəni, Qərb dairələrinin Hayastanın sülhdən yayınması, sülh müqaviləsinin imzalanmaması üçün başlatdıqları oyunlar köhnə ssenarinin davamıdır.

ABŞ başda olmaqla Qərb dövlətləri Cənubi Qafqazda vəziyyəti mümkün qədər gərginləşdirmək, ənənəvi rəqiblərinə qarşı yeni münaqişə ocaqları yaratmaq yolunu tutublar. NATO-nun baş katibi Y.Stoltenberqin regiona səfərinin ardınca onun ABŞ dövlət katibi Blinken və Avropa Komissiyasının sədri Ursula von der Leyen ilə 2024-cü ilin aprelində geniş tərkibdə görüşünün olacağı barədə yayılan məlumatlar, xüsusən Ermənistana "təhlükəsizlik zəmanətinin" verilməsi barədə müzakirələr bir daha göstərir ki, Qərb Cənubi Qafqazı "qan çanağına" çevirməkdə maraqlıdır.

ABŞ və Avropa İttifaqı regionda vəziyyəti mümkün qədər gərginləşdirməklə Cənubi Qafqazda hərbi cəhətdən mövcudluqlarını hədəfləyirlər. Bu isə heç şübhəsiz ki, Bakı və İrəvan arasında sülh perspektivlərini faktiki heçə endirir. Bir sözlə, "təhlükəsizlik zəmanəti" ideyası Azərbaycanla Ermənistan arasında yekun sülhü beynəlxalq hüququn prinsiplərinə yox, Qərbin arzuladığı formaya uyğunlaşdırmaq cəhdidir. Əlbəttə, bu, Azərbaycana qarşı atılan addım olmaqla milli maraqlarımıza ciddi təhdiddir.

Ehtimal olunur ki, ABŞ və Avropa İttifaqı Ukrayna ilə Böyük Britaniya, Fransa, Almaniya və digər ölkələr arasında ikitərəfli sazişlər kimi Ermənistana "təhlükəsizlik zəmanətləri" vermək üçün sənəd imzalamağa hazırlaşırlar. Belə olan halda regionda geosiyasi hadisələr sürətlə inkişafa başlaya bilər.

Ermənistan KTMT-də iştirakını "dondurmasından" sonra təşkilatdan qəti şəkildə çıxacağını nümayiş etdirir. Rəsmi İrəvanın Rusiyanın Gümrüdəki 102-ci bazasının ləğvinə başlamaq fikrində olması da bunu təsdiqləyən reallıqdır. Burada Ermənistanın istəyi də bəllidir. İrəvan tərəfindən qovulacaq Rusiya sərhədçiləri və Rusiya hərbçilərinin yerinə artıq sərhəddə yerləşdirilmiş Avropa Monitorinq Missiyasının (EUMA) tərkibində göndərilə bilən ABŞ hərbçiləri ola bilər.

Mövcud təhlükəli vəziyyətdə Rusiya hakimiyyəti hələ də məsələyə qarışmadan gözləmə mövqeyi sərgiləyir. Amma göründüyü kimi, Paşinyanın Fransa və ABŞ ilə hərbi əməkdaşlığa kəskin dönüş yaratmaq üçün atdığı addımlar durumu getdikcə ağırlaşdırır.

Təbii ki, Brüsseldə danışıqların aparılması, Ermənistana "təhlükəsizlik zəmanətinin" yaradılması, Azərbaycanla Hayastan arasında sülh prosesinə dəstək deyil, məsələni birtərəfli qaydada həll etmək cəhdidir ki, bu da Azərbaycanın maraqlarına cavab vermir və ölkəmizə qarşı atılan addımdır.

Bu, Aİ-nin missiyasından sonra Qərbin daha geniş miqyasda regiona hərbi cəhətdən daxil olması cəhdidir ki, mövcud vəziyyət regionda partlayışa və formalaşmaqda olan regional təhlükəsizliyə böyük zərbə ola bilər.

Bu, eyni zamanda Ukraynanın ardınca indi də Rusiyanı Cənubi Qafqazdan, daha sonra isə Mərkəzi Asiyadan sıxışdırıb çıxartmaq planının işə salınmasıdır. Əlbəttə ki, Rusiya bu plana mütləq cavab verməlidir. Elə görünən odur ki, cavab özünü çox gözlətməyəcək. Belə olan halda isə daha çox zərbə alan Hayastan olacaq. Bu isə baş verə biləcək hadisələri indidən proqnozlaşdırmağa imkan verir. Belə ki, Rusiyanın cavabı ABŞ başda olmaqla Cənubi Qafqazda vəziyyəti mümkün qədər gərginləşdirmək, ənənəvi rəqiblərinə qarşı yeni münaqişə ocaqları yaratmaq yolunu tutan Qərb dövlətlərinə tutarlı zərbə olacaq. Bu ssenaridə vasitə rolunu oynayan Ermənistanın isə Ukrayna və ya Livana çevriləcəyi şübhə doğurmur.

Azərbaycanın mövqeyi isə hər zaman olduğu kimi dəyişməzdir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, artıq kimsə Azərbaycanla təhdid, hədə-qorxu dili ilə danışa bilməz. Martın 18-də Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb xalqa bayram təbrikini ünvanlayarkən İlham Əliyev bir daha Azərbaycanı istəməyən, regionda yenidən münaqişə ocağının yaranmasına çalışan qüvvələrə mesaj ünvanladı: "İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq".

Azərbaycan Prezidenti deyir ki, Cənubi Qafqazda sülh istəməyən qüvvələrin Ermənistandan bir alət kimi istifadə etməklə öz maraqlarını həyata keçirmək cəhdləri baş tutmayacaq. Bu prosesdə ən ağır zərbə yenə də məğlub Ermənistana dəyəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## İftira və yalanlar, yaxud Solovyovun məsuliyyətsizliyi

Xəbər verildiyi kimi, martın 22-də Moskvada "Crocus City Hall" ticarət mərkəzində terror hadisəsi baş verib. Son məlumatlara görə, hadisə zamanı 140 nəfər həlak olub.



Şahidlərin sözlərinə görə, avtomatlarla silahlanmış şəxslər ticarət mərkəzinə daxil olaraq, "Piknik" qrupunun konserti olan zalda tamaşaçılara atəş açıb və qumbara atıblar. Artıq hüquq-mühafizə orqanları bu qanlı terror hadisəsini törədənlərin bəzilərini həbs ediblər. Axtarışlar, istintaq araşdırmaları davam edir. Qatillər həbs olunduqca hadisələrin yeni təfərrüatları üzə çıxır.

Rusiyada baş verən terror hadisəsini demək olar ki, bütün dünya ölkələri pisləyir. Heç bir günahı olmayan mülki insanlara qarşı bu cür qəddarlıq və vəhşilik qəzəblə qarşılanır. Başqa dövlətlər kimi Azərbaycan da terror hadisəsini həmişə olduğu kimi pisləyib. Çünki xalqımız uzun illər erməni terrorundan əziyyət çəkib. Terrorun nə olduğunu başqa xalqlardan daha yaxşı bilir.

"Crocus City Hall"da baş verən terrorla bağlı müxtəlif fərziyə və fikirlər irəli sürülür. Bu qanlı hadisə dünyanın aparıcı televiziya və mətbuat orqanlarında geniş şərh edilir. Təəssüflər olsun ki, bu verilişlərin bəzilərində obyektivlikdən uzaq olan fikir və rəylər də söylənilir. Tamaşaçılara həqiqətdən uzaq olan yanlış məlumatlar verilir. Qazanılmış çoxillik təcrübə göstərir ki, belə hadisələr haqqında verilən məlumatlara həssaslıqla yanaşılmalıdır, həqiqətə uyğun olmayan fikirlər səsləndirilməməlidir. Təəssüf ki, hadisənin baş verdiyi Rusiyada məlumatların yayılmasına heç də hamı həssaslıqla yanaşmır, dediyi sözün mahiyyətinə varmır, məsuliyyətini anlamır.

Qanlı terror hadisəsinin mətbuatda, televiziyada işıqlandırılması göstərir ki, bəzi Rusiyalı jurnalistlər yayımladıqları verilişlərdə reallıqdan çox uzaq olan məlumatlar səsləndirirlər. Bu jurnalistlər sözləri ilə, hərəkətləri ilə kimlərəsə yarınmağa çalışırlar, onların sifarişlərini yerinə yetirirlər. Bələləri bu hadisələrdən öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Ermənipərəstliyi ilə seçilən belə jurnalistlərdən biri də davranışı, ifadə tərzi ilə tamaşaçılarda ikrah hissi doğuran, efir vaxtında anormal hərəkətlər və jestlər edən teleaparıcı Vladimir Solovyovdur.

Bu gün onu Rusiyada jurnalist kimi yox, daha çox təxribatçı və təlxək kimi qəbul edirlər. Təlxəyin dediyi də yalandan başqa bir şey olmaz. Daim Azərbaycana qarşı qərəzli mövqe tutan Solovyov "Crocus"dakı terror hadisəsi ilə bağlı əlində heç bir fakt olmadan Azərbaycanı hədəfə almağa çalışır. Hansı ki, artıq hüquq-mühafizə orqanları terroru törədənləri də, onun sifarişçilərini də həbs etməyə başlayıblar. Burada Azərbaycanla bağlı heç bir iz, heç bir ifadə yoxdur. Hadisədə əli olanların həbsi ilə bağlı məlumatları gün ərzində efirlərdə dəfələrlə təkrar-təkrar göstərirlər. Bu məlumatları təkcə jurnalistlər deyil, sadə vətəndaşlar da izləyirlər. Ermənilərə xidmət göstərən, onların sifarişlərini yerinə yetirən, dəyirmanlarına su tökən, ölkəmizə qarşı daim qərəzli mövqe tutan Solovyovun bu məlumatlardan xəbəri yoxdurmu, yoxsa hadisənin necə törədildiyini bilmirmi? Təbiidir ki, bilir. Amma özünü bilməməzliyə vurur. Yanlış məlumatlar verməklə ağalarına bir daha sadiq olduğunu göstərir. Yalanları ilə ictimaiyyəti aldatdığının isə heç fərqinə varmır. Bu, sözün Solovyov məsuliyyətsizliyindən başqa bir şey deyil.

"Crocus City Hall" konsert zalında törədilmiş terrorla bağlı teleaparıcı, jurnalist Vladimir Solovyovun ölkəmizə qarşı dilə gətirdiyi yalan və qərəzlərlə əlaqədar Azərbaycan Mətbuat Şurası bəyanat yayıb. Bəyanatda qeyd edilib ki, "V.Solovyov özünün eyhamları ilə Azərbaycana münasibətdə informasiya təxribatı aparır. Nəzərə almır ki, terrorçunun heç bir milli və dini mənsubiyyəti ola bilməz. Üstəlik, hadisəni törətməkdə təqsirli bilinən şəxslər müəyyənləşib və Solovyovun konsprioloji təfəkkürünü işə salmasına heç bir ehtiyac yoxdur. V.Solovyovun "Crocus City Hall"da törədilmiş təxribata etnik fon verməsi azərbaycanlıları, ümumən Azərbaycanı hədəfə almaq, Rusiyada etnik münaqişəni alovlandırmaq, həmvətənlərimizə münasibətdə antipatiya yaratmaq cəhdidir. Bu şəxsin hansı dairələrin "sifarişlərini" yerinə yetirdiyi məlumdur.

Məsuliyyət hissindən uzaq olan Solovyov efir zamanı bəzi məqamlarda hətta jurnalist olduğunu da unudur. Unutduğuna görə də ağlına və ağzına gələnləri danışır. Dediklərinin cəmiyyətdə hansı fəsadlar törədəcəyini düşünmür. Obyektivlikdən çox uzaq olan yalan məlumatlar yayır. Qəsdən, bilə-bilə ictimaiyyətə reallıqdan uzaq olan informasiyalar ötürür. Ölkəmizə qarşı belə qərəzli mövqe nümayiş etdirməsi ilə ermənilərin sifarişini yerinə yetirdiyini bir daha təsdiqləyir. Bəyantda bu fikirlər də öz əksini tapıb: "Şübhə yoxdur ki, V.Solovyovun "Crocus City Hall" terrorunda Azərbaycan izini axtarmaq cəhdi onun ermənipərəst təəssübkeşliyindən qaynaqlanır. Bu, media prinsipləri, söz və ifadə azadlığının imkanları ilə aşkar manipulyasiyadır. Jurnalistin hadisə və proseslərə yanaşması, habelə qiymətləndirmə tərzi Rusiya ictimaiyyətini, o cümlədən media cameəsini ciddi şəkildə düşündürməlidir. Çünki Solovyov cəmiyyəti yanlış istiqamətə yönləndirməklə məşğuldur. Onun tutduğu mövqe əsl həqiqətləri və reallıqları korporativ maraqlara qurban verməkdir. Bu, bir peşə sahibinin nəinki başqa, ən əsası vətəndaşı olduğu ölkəyə vurduğu son dərəcə ağır zərər və ziyandır", - deyə qeyd olunub.

Teleaparıcı V.Solovyovun ölkəmizə qarşı qərəzli mövqe tutması ilk dəfə deyil. Onun erməni əsillilər - rusiyalı jurnalist Marqarita Simonyanla və media maqnatı Aram Qabrielyanovla dostluğunu təsdiqləyən faktlar həm Rusiya, həm Azərbaycan, həm də dünya ictimaiyyətinə çoxdan məlumdur. Adlarını çəkdiyimiz bu yaramazlar hələ 2016-cı ildə ölkəmizi terrorçu İŞİD-lə əlaqələndirməyə çalışmışdılar. Ona görə də Solovyovun "Crocus City Hall" olayı ilə bağlı eyni çirkin dəst-xətti bizə çoxdan tanışdır. Solovyovun da, ona bu sözləri dedirdənlərin də başlıca məqsədi Azərbaycan-Rusiya münasibətlərinə ziyan vurmaqdır. Əminliklə demək olar ki, solovyovlar və onun tərəfdarları məqsədlərinə heç vaxt çatmayacaqlar. Çünki Azərbaycan və Rusiya arasındakı monolit dostluğu və mehribançılığı yalançı bir teleaparıcının sərsəm fikirləri korlaya bilməz. Yaxşı deyiblər ki, milçək bir şey deyil, sadəcə olaraq vızıltısı ürək bulandırır. Solovyovun həqiqətdən uzaq fikirləri də yalnız və yalnız ürək bulandırır. İnanırıq ki, bu həssas məqamda Rusiya cəmiyyətində Solovyov kimi məsuliyyətsiz teleaparıcının dediklərinə qarşı güclü ictimai qınaq formalaşacaq, onun yaramaz və məsuliyyətsiz əməllərinə layiqli hüquqi qiymət veriləcək. Bulanıq sular axıb-axıb duruladacaq. Bu duruluqda isə kimin kim olduğu aydın görünəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Solovyov yenə də ara qızışdırır

### Təxribatçı jurnalistin son açıqlaması Rusiya dövlətinə və cəmiyyətinə qarşı xəyanətdir

"Rusiyalı jurnalist Vladimir Solovyovun sonuncu dəfə Azərbaycana qarşı səsləndirdiyi uydurmalar ilk belə ittiham deyil. O, hər zaman ölkəmizə qarşı qərəzli olan, informasiya müharibəsində düşmən mövqeyində dayanan jurnalistdir".



Bu sözləri "Azərbaycan" qəzetinə Mətbuat Şurasının İdarə heyətinin üzvü, "Azxeber.com" informasiya portalının baş redaktoru Hacıbəy Heydərli, teleaparıcı Vladimir Solovyovun Moskvada baş verən terror aktında Azərbaycan izini axtarmaq yönümlü açıqlamalarına münasibət bildirərkən deyib.

Hacıbəy Heydərli hələ 2016-cı ildə Solovyovun Azərbaycanı İŞİD-lə əlaqədələndirdiyini, Vətən müharibəsi dönəmində də Azərbaycana qarşı çirkin kampaniya apardığını, ölkəmizə qarşı ittihamlar irəli sürdüyünü xatırladaraq deyib ki, indiki mərhələdə bu, Solovyovun təxribatçı addımlarının davamı kimi qiymətləndirilməlidir. Ancaq əvvəlki məsələlərdə V.Solovyov məhz Azərbaycana qarşı kampaniya aparırdısa, son açıqlaması isə həm də Rusiya dövlətinə və cəmiyyətinə qarşı xəyanətdir. Çünki terror aktı Moskvada baş verib və terrordan heç bir dövlət sığortalanmayıb. Terrorçunun milliyyəti, dini önəm daşımır. Belə olan təqdirdə onun milli məsələləri ön plana çıxarması Rusiya daxilində yeni çaxnaşma yaratmaq, Rusiyada olan milli azlıqları dövlətə qarşı qaldırmaq istəyindən doğur. "Belə açıqlamalar, ilk növbədə Rusiya cəmiyyəti tərəfindən qınanılmalı, Solovyov kimi təxribatçı jurnalistlərin qarşısı alınmalıdır. O, heç vaxt öz sözünü demir, jurnalistdən daha çox təxribatçı kimi tanınır. Onun dediyi sözlər Ermənistan milyarderlərinin, diasporunun düşündüyü fikirlərdir. Onlar deyə bilmədiyi sözləri pul müqabilində Solovyov vasitəsilə çatdırırlar", - deyə H.Heydərli bildirib.

Onun sözlərinə görə, terror aktı ilə bağlı istintaqın davam etdiyi, dünyanın gözü Rusiyada olduğu halda V.Solovyovun belə ittihamlar səsləndirməsi işin gedişinə qarışmaq, həm də Rusiya dövlətini zəif göstərmək niyyətindən doğur. Dünyanın bir çox ölkəsində terror aktı baş verəndə bununla bağlı mediaya yayım qadağası qoyulur. Jurnalistlər mövzu ilə bağlı şəxsi fikirlərini səsləndirmirlər, çünki istintaq davam edir və işə hansısa fikirlə təsir etmək imkanı məhkum hesab edilir. Solovyov hazırki prosesdə Rusiya dövlətinə xəyanət edir. Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olduğu vaxtda onun fikirləri məkrli və qərəzli qəbul olunur.

H.Heydərli qeyd edib ki, o, bu açıqlaması ilə Rusiya cəmiyyətində Azərbaycana qarşı nifrəti artırmağa, iki ölkənin münasibətlərinə kölgə salmağa çalışır: "Bununla bağlı təkcə Azərbaycan jurnalistikası, cəmiyyəti deyil, həm də ruslar reaksiya verməlidirlər. Bu da faktdır ki, Rusiyada Solovyovu ciddi şəxs, jurnalist kimi qəbul etmirlər. O, sadəcə olaraq, pul qüvvələrin maşasıdır".

Bu gün Rusiyada azərbaycanlıların ruslarla birgə mehriban şəraitdə yaşadığını deyən baş redaktor vurğulayıb ki, Solovyov kimi təxribatçı, şantajçı, xalqların, dövlətlərin arasını vurmaq istəyənlər heç bir halda məqsədlərinə çatmayacaqlar. Jurnalist kimi V.Solovyovun bu açıqlamasını şiddətlə qınadığını deyən H.Heydərli düşünür ki, məsuliyyətsiz açıqlamalar verən, iki dövlətin münasibətinə kölgə salmağa çalışan, Rusiyada yaşayan azərbaycanlılara qarşı bu cür ittihamlar səsləndirən şəxslər, "jurnalist"lər qanun qarşısında cavab verməlidirlər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Erməni terroru bəşəriyyət üçün böyük təhlükədir

## Moskvada da ilk terroru ermənilər törədiblər

Martın 22-də "Crocus City Hall" konsert zalında törədilmiş terror aktı dünya gündəmini silkələdi. İçərisində azyaşlıların da olduğu xeyli sayda günahsız insanın ölümünə səbəb olmuş bu qanlı terror milliyyətindən asılı olmayaraq hər kəsdə dərin qəzəb və üzüntü hissi oyatdı. Terror insanlığın ortaq bəlasıdır və Yer üzərində baş verən bütün - sel, daşqın, zəlzələ kimi fəlakətlərdən də ən amansızı, ən qəddarıdır. Növbəti dəfə terrorun vəhşət üzünü Moskvada sözügedən qanlı hadisə zamanı gördük, yayılan kadrlarda terrorçuların uşaq, gənc, yaşlı demədən insanları necə soyuqqanlıqla güllələbaran etdiklərinə şahidlik etdik. Bir daha terroru şiddətlə qınadıq, ona "yox" dedik...




Amma o da təəssüfləndirici gerçəklikdir ki, dünyada terrora dəstək verən, yayılmasına münbit şərait yaradan müəyyən siyasi qüvvələr də var və onların terrorçuları himayə etməsinin nəticəsidir ki, sözün əsl mənasında hər gün günahsız insanlar gah o ölkədə, gah bu ölkədə törədilən bu qanlı aktların qurbanlarına çevrilirlər.

### Ermənilərə aparıb çıxaran qanlı terror izləri

Azərbaycan xalqı da illərdir ki erməni terroru ilə üz-üzədir. Xalqımız son iki yüzilliyin müxtəlif dönəmlərində insan qatili olan ermənilərin törətdikləri soyqırımlardan, terrordan əziyyət çəkib. 1918-ci ilin mart soyqırımı, 1992-ci ilin Xocalı, Ağdaban, Ballıqaya, 1993-cü ilin Başlıbel... soyqırımları yaddaşlarda dəhşətli izlər buraxıb.

1994-cü il martın 19-da erməni terrorçuları tərəfindən Bakıda dinc əhaliyə qarşı növbəti cinayət aktı törədilmişdi. Metropolitenin "20 Yanvar" stansiyasında baş vermiş partlayış zamanı 14 nəfər həlak olmuş, 42 nəfər isə ağır dərəcəli bədən xəsarəti almışdı. İstintaq-məhkəmə araşdırmaları nəticəsində həmin dəhşətli cinayətdə Ermənistanın xüsusi xidmət orqanlarının əli olduğu sübuta yetirilmişdi.

Yenə də 1994-cü il iyulun 3-də Bakı metrosunun "28 May" və "Gənclik" stansiyalarının arasında qatarda da partlayış törədilmişdi. Bu hadisədə 13 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdı. Azərbaycanın hüquq-mühafizə orqanları bu terroru da Ermənistanın xüsusi xidmət orqanlarının təşkil etdiyini müəyyənləşdirmişdilər.

Dövlət siyasəti terrora köklənmiş Ermənistan 2020-ci ildə 44 günlük Vətən müharibəsi dövründə də xalqımıza qarşı terror həyata keçirmişdi. Terror ölkəsinin silahlı qüvvələrinin gecə-gündüz Gəncə, Tərtər, Bərdə, Mingəçevir və digər yaşayış məntəqələrimizi ağır artilleriya və raketlərdən atəşə tutması nəticəsində dinc əhali arasında çoxsaylı ölən və yaralanan olmuşdu.

### Azərbaycanlılara qarşı mina terroru

Azərbaycan xalqı onilliklərdir ki, Ermənistanın mina terroru ilə qarşı-qarşıyadır. Erməni terrorçuları müxtəlif xain və insanlıqdan uzaq üsullardan istifadə edərək, vətəndaşlarımızı mina partlayışlarının qurbanına çevirirlər. 2011-ci ilin iyul ayında ermənilərin partlayıcı qurğu quraşdırılmış "itəbənzər" uşaq oyuncağını Ermənistan tərəfindən Tovuz rayonunun Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxmaları nəticəsində 13 yaşlı yeniyetmə faciəvi şəkildə həyatını itirmişdi. 1994-cü ildə də həmin ərazidə analoji hadisə baş vermiş, Ermənistan tərəfindən çaya buraxılan oyuncağı götürərkən partlayış baş verməsi nəticəsində iki azyaşlı uşaq həlak olmuş, biri isə yaralanmışdı. Erməni terrorunu sübut edən belə dəhşətli faktlar yüzlərlədir...

İşğal dövründə ermənilər torpaqlarımızda 1 milyondan çox mina basdırıblar və hələ də dəqiq mina xəritələrini Azərbaycana təhvil verməyiblər.

Eləcə də İkinci Qarabağ müharibəsindən sonra ermənilər terror siyasətlərini davam etdirərək Azərbaycan xalqını hədəfə aldılar. 44 günlük müharibədən sonrakı dövrdə ərazilərimizdən 2021-ci il Ermənistan istehsalı olan xeyli sayda minalar aşkarlandı. Təcavüzkar ölkənin mina terroru sayəsində günümüzə qədər də günahsız insanlarımız həlak, yaxud şikəst olurlar.

Təəssüf ki, Ermənistanın törətdiyi bu terror aktlarına beynəlxalq ictimaiyyət hələ də göz yumur, Azərbaycan xalqının erməni terrorundan əziyyət çəkməsinə biganəlik göstərir.

### 1977-ci il Moskva terrorları - erməni işi

Dünya dövlətləri unudurlar ki, erməni terroru təkcə Azərbaycan üçün yox, ümumbəşəri təhlükədir. Faktdır ki, erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsinə çevrilib və müxtəlif ölkələrdə qanlı faciələr törətməklə məşğuldur.

Yeri gəlmişkən, bir faktı da vurğulayaq ki, Moskvada da ilk terroru ermənilər törədiblər. Belə ki, 1977-ci il yanvarın 8-də şəhərdə bir neçə terror aktı həyata keçirilib. Moskva metrosunun vaqonunda "İzmaylovskaya" və "Pervomayskaya" stansiyalarının arasında partlayıcı qurğu işə düşmüşdü.

Bir neçə saat sonra SSRİ DTK-sının binası yaxınlığında keçmiş "Dzerjinski" küçəsində yerləşən 15 saylı ərzaq mağazasında partlayış baş vermiş, ardınca keçmiş "Oktyabrın 25 illiyi" küçəsində yerləşən ərzaq dükanının yaxınlığında partlayıcı qurğu işə düşmüşdü. Ard-arda baş verən terror aktları nəticəsində 7 nəfər həlak olmuş, 37 nəfər yaralanmışdı. Araşdırmalar zamanı həmin terror aktlarının erməni terrorçuları tərəfindən törədildiyi üzə çıxarılıb və terrorun təşkilində ASALA təşkilatının da iştirak etdiyi aşkarlanıb.

Erməni terroruna sübut olan digər bir fakta nəzər salaq: 1970-ci ildən indiyədək 31-i diplomat və onların ailə üzvləri olmaqla, ümumilikdə 58 Türkiyə vətəndaşı erməni terror təşkilatlarının təşkil etdiyi xain hücumların qurbanı olub.

Ümumiyyətlə, hazırda da dünyada baş verən dəhşətli terror aktlarının arxasından əksər hallarda məhz erməni terrorçuları çıxır. Bir sözlə, erməni terrorizmi dünyanın bəlasına çevrilib.

### İrəvan terrorçulara abidə ucaldır

Azərbaycan bütün beynəlxalq platformalarda erməni terrorizmini ifşa edir və ona qarşı layiqli mübarizə aparır. Ermənistan isə ölkəmizdən fərqli olaraq erməni terror təşkilatlarının və terrorçuların fəaliyyətini təbliğ edir. İrəvanın mərkəzində nasist Njdeyə, "Yerablur" hərbi qəbiristanlığında ASALA terror təşkilatı üzvlərinə abidələrin ucaldılmasının timsalında isə onları qəhrəmanlaşdırdığını göstərir.

Moskvada "Crocus City Hall" konsert zalında törədilmiş qorxunc terror aktı da bir daha göstərdi ki, heç bir ölkə, xalq terrordan sığortalanmayıb.

Buna görə də terrordan qurtulmağın sadəcə bir yolu var. Dünya ölkələri birləşərək, terrorçulara və və onlara dəstək verən siyasi güclərə qarşı ayıq-sayıq mübarizə aparmalıdırlar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

---

# Ermənistanın Azərbaycana qarşı informasiya təxribatı fiaskoya uğradı

"Son günlər erməni teleqram kanallarında Azərbaycan tərəfindən Ukraynaya hərbi təyinatlı məmulatların göndərilməsinə dair dezinformasiyalar yayılır. Bununla bağlı Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi bəyanat yayaraq bu informasiyaların həqiqəti əks etdirmədiyini ifadə edib. Görünür, Ermənistan ölkəmizə qarşı apardığı informasiya müharibəsinə yeni uydurmalar əlavə etməklə Azərbaycanla Rusiya arasında münasibətlərin gərginləşməsinə çalışır".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, Rusiya-Ukrayna müharibəsinin şiddətli dövründə Azərbaycan tərəfindən Ukraynaya hərbi dəstəyin verilməsi haqqında dezinformasiya yaymaq, şübhəsiz ki, Bakı-Moskva münasibətlərində çatların yaradılmasına yönəldilmiş təxribatdır: "Dövlətimizin bu məsələ ilə bağlı mövqeyi bəllidir. Azərbaycan Rusiya-Ukrayna müharibəsinin tezliklə başa çatmasında maraqlıdır və sırf humanitar yönümlü addımlarla Ukraynaya dəstək nümayiş etdirir. Burada başqa məna axtarmaq, bu cür dezinformasiyalar yaymaq Ermənistanın çirkin planlarının tərkib hissəsidir".

Deputatın sözlərinə görə, ölkəmizə qarşı planlaşdırılan təxribatlar heç bir nəticə verməyəcək. Sadəcə, Ermənistan Rusiya ilə münasibətlərinin son dərəcə kəskinləşdiyi bir məqamda Rusiya-Azərbaycan münasibətlərində də oxşar vəziyyətin yaranmasına çalışır. Olsun ki bu tapşırığı da Qərbdəki havadarlarından alıb. "Azərbaycan və Rusiya arasında da analoji vəziyyətin yaranması üçün atılan bu addımlar həmişə Qərbin planlarına uyğun olub. Lakin hesab edirəm ki, belə təxribatçı addımlar nəticəsiz qalacaq. Çünki Moskva Qərbin və Ermənistanın çirkin planlarına yaxşı bələddir. Rusiyada yaxşı bilirlər ki, Azərbaycan tərəfindən Ukraynaya hərbi təyinatlı məmulatların göndərilməsinə dair xəbərlər tamamilə yalandır", - deyə müsahibimiz qeyd edib.

Elman Nəsirov onu da deyib ki, erməni teleqram kanallarında əvvəllər də belə həqiqətə söykənməyən xəbərlərin yayılmasına cəhdlər edilib: "Ona görə də belə dezinformasiyaların ciddi qəbul edilmək ehtimalı çox aşağıdır. Bu məlumatların heç bir əsası yoxdur. Ermənipərəst qüvvələrin bizə qarşı sərgilədikləri bu ənənəvi davranışları da fiaskoya uğradı. Məqsədlərinə çatmaq üçün hər çirkin vasitəyə əl atan təxribatçıların bütün cəhdləri daim boşa çıxıb. Ermənistan hadisələri özünə sərf edən kimi ictimailəşdirməyi yaxşı bacarsa da, nəticədə məğlubiyyətə məhkumdur".

Deputat yekunda vurğulayıb ki, Ermənistan saxta vədlərə aldanaraq nəticəsiz cədlər etməkdənsə, sülh istiqamətində real addımlar atmalıdır. Sözsüz ki, regionda davamlı və dayanıqlı sülhün bərqərar olması Azərbaycandan çox, məğlub Ermənistana lazımdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

---

# Prezident Xankəndidə separatçıların bütün ümidlərinə od vurdu

"Prezident İlham Əliyev martın 18-də Xankəndidə Novruz tonqalını alovlandıraraq Azərbaycan xalqını bayram münasibətilə təbrik etdi. Dövlət başçısı təbrik çıxışında bildirdi ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə bayram tonqallarını yandırmaq böyük xoşbəxtlikdir".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. O, dövlət başçısının çıxışını xatırlatdı: "Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir".

Dövlətimizin başçısı bunu Azərbaycan xalqının böyük qələbəsi kimi qiymətləndirərək vurğuladı ki, biz 2020-ci ildə torpaqlarımızı işğaldan azad etdik, amma həmin dövrə qədər Azərbaycana müxtəlif dairələrdən siqnallar göndərilirdi ki, münaqişənin hərbi yolla həlli yoxdur. Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, əgər münaqişənin dinc həlli həyata keçirilmirsə, onda torpaqlarını hərbi yolla işğaldan azad edə bilər.

E.Mirbəşiroğlu qeyd edib ki, Azərbaycan hər zaman keçmiş münaqişə vəziyyətinin dinc vasitələrlə aradan qaldırılmasının tərəfdarı olub, danışıqlar prosesində səmimiyyətlə iştirak edib. Hər zaman dünyaya çağırış edib ki, Ermənistana təzyiq göstərilsin ki, o Azərbaycan torpaqlarından çıxsın. Lakin bəlli dairələrin davranışları aydın göstərirdi ki, onlar keçmiş status-



kvo vəziyyətinin qalmasında maraqlıdırlar və Ermənistana zaman qazandırmağa çalışırlar. ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi ilə deyil, idarə olunması ilə məşğul olurdu, bu da Azərbaycan torpaqlarının gələcəkdə hüquqi mənsubiyyətini dəyişdirmək üçün Ermənistana imkan yaratmaq idi. Azərbaycan bütün bunların qarşısını sərt şəkildə alaraq öz gücünü göstərdi.

Prezident İlham Əliyev çıxışında məhz bu məqamlara işarə etdi. "Eyni zamanda vurğuladı ki, antiterror tədbirlərinin keçirilməsinə ehtiyac qalmayacaqdı. Ermənistanın Azərbaycan ərazisindən silahlı qüvvələrini geri çəkməsi, separatçıların silahlarını yerə qoyması və beynəlxalq dairələrə onlara təzyiq etmələri üçün yenə çağırış etdik. Ölkə rəhbəri bunları xatırlatmaqla bir daha göstərdi ki, 2020-ci ilə qədər baş verənlərlə 2023-cü ilin sentyabrına qədər cərəyan edən proseslər arasında bir oxşarlıq mövcud idi. Yəni hər iki halda Azərbaycan çağırış edirdi, məsələni dinc vasitələrlə həll etməyə çağırırdı, lakin ölkəmizin çağırışlarına düzgün reaksiya verilmirdi. Belə olan halda Azərbaycan güc tətbiq edərək təhlükəsizliyinə mövcud təhdidləri aradan qaldırmalı oldu", - deyə o əlavə edib.

Deputat bildirib ki, Prezident İlham Əliyev bu gün Azərbaycanın haqlı mövqeyinin dünya birliyi tərəfindən qəbul olunduğunu vurğulayıb. Yəni Azərbaycanın dostlarının, əməkdaşlıq edənlərin sayı çoxdur, əməkdaşlıq etmək istəyənlərin də sayı durmadan artır. Bütün bunlar Azərbaycanın haqlı olduğunu göstərir.

O qeyd edib ki, Azərbaycan bu gün formalaşdırdığı yeni geosiyasi reallıqlar şəraitində güc mövqeyində inamla dayanır: "Azərbaycanın beynəlxalq nüfuzu, təsiri, rolu durmadan artır. Dövlət başçısı xüsusilə vurğuladı ki, Xankəndidə binalar sovet dövründə azərbaycanlı memarlar tərəfindən öz vəsaitimiz hesabına inşa olunub. Yəni orada erməni izi heç vaxt mövcud olmayıb. Separatçılar Xankəndinin görkəmini dəyişdirməyə, erməniləşdirməyə çalışıblar. Amma indi ermənilərin şəhərin simasının dəyişdirilməsi istiqamətində yaratdıqları elementlər tam aradan qaldırılır. Azərbaycan ərazilərində separatizmin əlamətləri bir daha olmayacaq. Bundan sonra işğaldan azad olunmuş ərazilərimiz davamlı, sürətlə inkişaf edəcək, effektli məskunlaşma həyata keçiriləcək.".

Prezident İlham Əliyev Xankəndidə bayram tonqalını yandırmaqla təcavüzkar, işğalçı Ermənistanın, xüsusi olaraq separatçıların bütün ümidlərinə od vurdu.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

---

# Ermənistan böyük güclərin ayaqları altında əzilməyə doğru gedir

"Ermənistan təhlükəli oyunlar oynayır. Bu ölkə Cənubi Qafqazda formalaşmış geosiyasi konfiqurasiyanın dağılmasına və regionun yeni münaqişə məkanına çevrilməsinə xidmət edən addımlar atır. İrəvan Qərbin Cənubi Qafqazda hərbi cəhətdən mövcudluğunu təmin etmək üçün cəhdlər edir".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat söyləyib ki, bir neçə gün əvvəl Ermənistan parlamentində Avropa İttifaqının missiyasının statusunun ratifikasiya olunması ABŞ hərbçilərinin də regiona gəlməsinə imkan yaradacaq və bu, Cənubi Qafqazı nüfuz rəqabəti məkanına çevirəcək: "Nəzərə almaq lazımdır ki, ilk dövrdə Avropa İttifaqı Azərbaycan və Ermənistanla birgə qısamüddətli missiyanın həyata keçirilməsini razılaşdırmışdı. Amma sonradan Ermənistanla Avropa İttifaqı birtərəfli qaydada missiyanın müddətini uzatdılar, kontingentin sayını 2 dəfədən də çox artıraraq 200 nəfərə çatdırdılar. İndi isə bu məsələni Ermənistan parlamentdə ratifikasiya etməklə ABŞ və Aİ-nin missiyasının tərkibinin daha da artırılmasına şərait yaradırlar. Həmçinin binokl və fotoaparatlarla şəkil çəkməklə kifayətlənən missiyanın gələcəkdə silahlı hərbçilərlə əvəz olunacağına şübhə qalmır".

Deputat bildirib ki, Ermənistan parlamentinin Aİ missiyasını ratifikasiya etməsi Paşinyanın aprelin 5-də Brüsseldə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşə hazırlığı kimi qəbul edilə bilər: "Bu görüş çərçivəsində hətta "Ermənistanın təhlükəsizliyinə zəmanət" adlı sənədin qəbul olunacağı da bildirilir. Qərb bu addımları ilə Cənubi Qafqazda baş verən prosesləri birtərəfli şəkildə həll etməyə cəhd göstərir. Bu isə Azərbaycanın maraqlarına ziddir, çünki proseslər sərhədlərimizdə baş verir. Ölkəmiz məğlub Ermənistana sülh və əməkdaşlıq təklif etdiyi halda, İrəvan hakimiyyətinin regionda ABŞ və Aİ-nin hərbi bazasını yaratmağa çalışması qəbuledilməzdir".

Azər Badamov ABŞ və Avropa İttifaqının Ermənistanı qorumaq cəhdlərinin absurd olduğunu qeyd edib. Deputat deyib ki, Azərbaycan müharibənin başa çatdığını və Ermənistanın ərazilərində gözü olmadığını açıq şəkildə bəyan edib. Qərb isə Cənubi Qafqazda sülhün və əməkdaşlığın bərpasına maraq göstərmədiyinə görə Ermənistanı silahlandırır və şirnikləndirir. Qərbin bu addımları regionumuzu yenidən müharibə meydanına çevirmək kimi çirkin niyyətindən irəli gəlir.

"Qərbin hərbi bazasının Ermənistanda yerləşdirilməsi istəyi ilk növbədə Rusiya və İrana əzələ nümayişidir. Uzun illərdir ki, Rusiya Ermənistanda 102-ci hərbi bazasını saxlayır və bu ölkənin sərhədlərini qoruyur. Belə olan halda, ABŞ-nin hərbi bazasının Ermənistanda yerləşdirilməsi Rusiyanın 102-ci bazası ilə Qərbin üz-üzə gəlməsinə gətirib çıxaracaq. Beləliklə, Rusiya hərbçiləri ilə Qərb hərbçiləri arasında toqquşmaların baş verməsi gözləniləndir", - deyə müsahibimiz vurğulayıb.

Deputat əlavə edib ki, İranla ABŞ münasibətlərində uzun illərdir ki gərginlik yaşanır, ABŞ-nin təşəbbüsü ilə Qərb İrana sanksiyalar tətbiq edib: "Deməli, ABŞ-nin digər məqsədi İrandakı maraqlarını həyata keçirmək üçün Ermənistan ərazisindən hərbi plasdarm kimi istifadə etməkdir. Bu baxımdan ABŞ-nin hərbi bazasının Ermənistanda yaradılması İranın təhlükəsizliyinə böyük təhdiddir. Bu baxımdan Ermənistanın ABŞ hərbçilərini regiona gətirmək planı İran, Rusiya və Qərb arasında müharibənin alovlanacağına işarə edir".

Azər Badamov yekunda vurğulayıb ki, erməni tarixi ölkələrarası qarşıdırma və gərginlik yaratmaqla zəngindir: "Onlar tarix boyu bu üsullarla qazanc əldə etməyə öyrəşiblər. Lakin Ermənistan rəhbərliyi Qərbə məxsus hərbi bazaları regiona gətirməklə ölkəsini Ukrayna, Livan və digər gərginlik ocaqlarına çevrilmiş ölkələrin gününə salacağını anlamır. Cənubi Qafqazda yenidən gərginlik baş qaldıracağı halda, Ermənistan hərbi güclərin ayaqları altında əziləcək".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

# Hesablama Palatasının nümayəndə heyəti ABŞ-də səfərdədir

Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (UNDESA) və Braziliya Hesablama Məhkəməsinin birgə təşkilatçılığı ilə ABŞ-nin Nyu York şəhərində "Milli iqlim fəaliyyətinin qiymətləndirilməsinə ali audit orqanlarının cəlb edilməsi" mövzusunda keçirilmiş beynəlxalq tədbirdə iştirak edib.

Palatadan AZƏRTAC-a bildirilib ki, tədbirdə iqlim dəyişikliyi ilə əlaqədar Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatı (INTOSAI) tərəfindən görülər işlər, "İqlim Skaneri" (Climate Scanner) layihəsi və onun çərçivəsi barədə məlumat verilib. Həmçinin iqlim dəyişikliyi təsirlərinin azaldılması istiqamətində fəaliyyətlərin qiymətləndirilməsi, ortaya çıxan öhdəliklər və çağırışlar mövzularında müzakirələr aparılıb, çıxış və təqdimatlar edilib.

Tədbirdə çıxış edən Hesablama Palatasının nümayəndəsi ilk olaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanın paytaxtı Bakı şəhərində keçiriləcəyini bildirib.

Çıxışda hökumətin milli iqlim və ətraf mühitlə bağlı fəaliyyətinin səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi üçün Hesablama Palatası tərəfindən keçirilmiş nəzarət tədbirlərindən bəhs edilib. Həmçinin milli iqlim və ətraf mühitlə bağlı fəaliyyətdə bir sıra çətinliklərdən danışılıb, Azərbaycanın dünyanın mina ilə ən çox çirklənmiş ölkələr sırasında olduğu, işğaldan azad




olunmuş ərazilərin, həmin ərazilərdə meşələrin və bütövlükdə ekosistemin bərpası, fəaliyyəti üçün böyük resursun tələb edildiyi vurğulanıb.

Eyni zamanda milli iqlim fəaliyyətinin qiymətləndirilməsi zamanı hər bir ali audit orqanının rastlaşa biləcəyi çətinliklərə də toxunulub. İqlim fəaliyyəti sahəsində strateji idarəetmə çərçivəsinin olmasının və iqlim probleminin dövlət maliyyə idarəetmə sistemində nəzərə alınmasının vacibliyindən, iqlim fəaliyyəti ilə bağlı məlumatların çeşidi və vaxtında təqdim olunmasının, habelə iqlim fəaliyyətinin qiymətləndirilməsi üzrə kadr potensialının formalaşdırılmasının zəruriliyindən bəhs edilib.

Səfər çərçivəsində Hesablama Palatasının sədri Vüqar Gülməmmədov INTOSAI təşkilatının sədri, Braziliya Hesablama Məhkəməsinin prezidenti Bruno Dantas və INTOSAI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupunun Katibliyin nümayəndəsi ilə görüş keçirib. Görüşdə COP29 və ölkələrin milli iqlim fəaliyyətlərinin qiymətləndirilməsi üzrə əlaqədar məsələlər müzakirə edilib.

# Azərbaycan yaşıllığa qərq olur

## Bu il ölkə ərazisində 5 milyon ağac əkiləcək

Ölkədə meşə sahələrinin seyrəkləşməsinin və azalmasının, torpaqların eroziyası və təbii biosenozların yoxa çıxması təhlükəsinin qarşısının alınması istiqamətində işlər davam edir. Bu tədbirlər bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəldilir.



Dövlət Statistika Komitəsi bildirir ki, keçən il Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 6850 hektar sahədə meşəbərpa tədbirləri həyata keçirilib. Görülmüş tədbirlər çərçivəsində 622,1 hektar sahədə meşə əkinləri, 415,9 hektar sahədə meşə səpinləri işləri aparılıb, 4 hektar sahədə meşə-bağlar, 8 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınıb. 5800 hektar sahədə təbii bərpaya kömək işləri görülüb. Xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə-bağların sahəsi ümumilikdə 18296,5 hektar təşkil edib.

Bundan başqa, toxmacar və cavan bitki şitilləri yetişdirmək məqsədi ilə 16,2 hektar sahəyə toxumlar səpilib, çilik kökləndirməsi üçün 0,4 hektar sahəyə 31,2 min ədəd çilik basdırılıb.

Ötən il ərzində meşə fondu sahələrindən 100 ton və ya əvvəlki illə müqayisədə 14,2 faiz çox meyvə, meşə-ağac və kol cinslərinin toxumları tədarük edilib. Bunların 97,7 tonu meşə-ağac və kol cinsləri toxumlarının, 2,3 tonu isə meyvə ağaclarının toxumlarının payına düşüb. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq yaşıllaşdırma işləri ölkənin bütün regionlarını əhatə edir. O cümlədən paytaxtda yaşıllıq zolaqlarının artırılması, ekoloji tarazlığın bərpası və ətraf mühitin mühafizəsi istiqamətində işlər ardıcıl aparılır. Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən paytaxtın müxtəlif ərazilərində kütləvi ağac əkilməsi və yaşıllaşdırma işləri aparılıb.

Ümumiyyətlə, son vaxtlar Bakının flora müxtəlifliyi xeyli artırılıb, həmçinin şəhərin iqlim şəraitinə uyğunlaşmış yerli ağac növlərinin də əkilməsi həyata keçirilib. Eyni zamanda qlobal iqlim dəyişiklikləri və su qıtlığı təhlükəsi ilə əlaqədar şəhərdə quraqlığa davamlı bitkilərin, yerli iqlimə uyğun, həmçinin müxtəlif rəngdə çiçəklənən ağac və kolların əkilməsinə üstünlük verilir. Yerli iqlimə uyğun və quraqlığa davamlı, xüsusi rəng çaları ilə seçilən, qırmızı, sarı, ağ rəngdə gülləri ilə şəhərə xüsusi gözəllik verəcək Lənkəran akasiyası, çezalpiniya, jumolas, qlisiniya əkilməsi, yeni formada yaşıllıq güşələrinin yaradılması həyata keçirilib. Sakinlərin daha çox olduqları gəzinti və istirahət yelərində - Mərkəzi, Qış, "Atatürk", "Gənclik" və "Nizami Gəncəvi" parklarında, əsas prospekt və küçələr boyunca hələ keçən mövsümdən yeni kollar əkilib. Həmin ərazilərdə ağacların yanında əkilmiş sarmaşıqlar ətrafa xüsusi yaraşıq verir.

"Yaşıl dünya naminə həmrəylik ili"ndə yaşıllaşdırma işləri daha geniş məna-məzmun kəsb edir və getdikcə vüsət alır. Hələ bir neçə ay əvvəl elan olunub ki, bu il ölkədə 5 milyon ağacın əkilməsi planlaşdırılır. Ağacların 3 milyondan çoxunun Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən əkilməsi nəzərdə tutulur. 2 milyon ağacın əkilməsini isə müxtəlif dövlət qurumları, icra hakimiyyətləri həyata keçirəcək.

"Yaşıl dünya naminə həmrəylik ili"ndən yurdumuzun hər guşəsinə yadigarlar qalacaq. Belə ki, yaşıllaşdırma işləri getdikcə respublikanın bütün rayonlarında genişlənir. Məsələn, bu il başlayandan Göyçay rayon mərkəzinin Heydər Əliyev prospektində və respublika əhəmiyyətli Bakı-Şamaxı-Yevlax avtomobil yolunun şəhərin Natəvan küçəsindən keçən hissəsində 950 ədəd ağac əkilib. Aksiyanın keçirilməsində məqsəd ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək ənənələrini davam etdirmək, ağac əkilməsini və yaşıllıqların çoxaldılmasını təşviq edərək ətraf mühitin qorunmasına töhfə verməkdən ibarətdir.

Sözügedən aksiya zamanı ərazidə təmizlik və abadlıq işləri də aparılıb, 500 ədəd Eldar şamı və 450 ədəd küknar ağacı əkilib. Yeni əkilən tinglər suvarılıb və ərazidəki digər ağaclara aqrotexniki qaydada qulluq göstərilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Samux rayonunda da ağacəkmə aksiyası keçirilib. Aksiyada rayon icra hakimiyyətinin əməkdaşları, şəhid ailələrinin üzvləri, gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir zamanı rayonun Ziyadlı kəndində, Kür yolunun kənarına rayonun torpaq-iqlim şəraitinə uyğun müxtəlif cinsli 600 ədədə yaxın ağac əkilib.

Yaxşı olar ki, bütün regionlarda sakinlər öz həyətlərində də bu cür gözəl ağaclar, güllər və kollar əksinlər. Bu, həm "Yaşıl dünya naminə həmrəylik ili"nə, həm də ölkəmizin evsahibliyi edəcəyi COP29-a hər birimizin töhfəsi olar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ən təhlükəsiz ölkə

## Azərbaycanın antiterror reytinqində ən yüksək yer tutması "dəmir yumruğ"a verilən qiymətdir

"Global Terrorism Index 2024" (GTI) hesabatına görə, Azərbaycan ən təhlükəsiz ölkələr arasında yer alıb. Reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə qəbul edilmiş mürəkkəb hesablamalara əsaslanır.



"0" indekslə sonuncu - 89-cu yerdə qərarlaşan Azərbaycan dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi ən yüksək reytinqə sahiblənib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Azərbaycan" qəzetinə bununla bağlı bildirib ki, "Global Terrorism Index 2024" hesabatı da Prezident İlham Əliyevin rəhbərliyi, uğurlu daxili və xarici siyasəti, həmçinin hüquq-mühafizə orqanlarının peşəkarlığı nəticəsində Azərbaycanın ən təhlükəsiz ölkələrdən biri olduğunu göstərir.

Deputat qeyd edib ki, bu fakt Prezident İlham Əliyevin yürütdüyü siyasətin daxili sabitliyi, regional təhlükəsizliyi yüksək səviyyədə təmin etdiyini, bölgədə sağlam mühit formalaşdırdığını bir daha sübut edir: "Azərbaycanın dünyanın antiterror reytinqində ən yüksək yer alması həm də ölkəmizin hüquq-mühafizə orqanlarının yüksək peşəkarlığından, onların yaratdığı etibarlı təhlükəsizlik mühitindən xəbər verir. Bu məsələdə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Dövlət Təhlükəsizlik Xidməti həm Vətən müharibəsində, həm də postmüharibə dönəmində terrorizmə qarşı aktiv mübarizə aparıb, terror cəhdlərinin qarşısını elə ilk addımda, peşəkarcasına alıb. Elə son zamanlarda İran, Fransa casus şəbəkələrinin ifşa olunmasında Dövlət Təhlükəsizlik Xidmətinin fəaliyyəti təqdirəlayiqdir. Ümumiyyətlə, belə reytinqlər tərtib olunanda xüsusi xidmət orqanlarının, həmçinin hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat tədbirləri mütləq şəkildə nəzərə alınır. Eyni zamanda əməliyyat şəraitinin tam şəkildə nəzarətdə saxlanması üçün atılan addımlar da vacib məsələdir. Azərbaycan xüsusi xidmət orqanları ən ciddi təhdidlərdən biri sayılan dini radikal qruplaşmalara qarşı uğurlu əməliyyatlar həyata keçirir. Bu qruplaşmalar dövlətçiliyə qarşı atdıqları addımlarla gündəmə gəlirlər. Onların əvvəlcədən planlaşdırılmış terror aktlarının qarşısının alınması çox vacib məsələdir. Həm Daxili İşlər Nazirliyi, həm Dövlət Təhlükəsizlik Xidməti digər hüquq-mühafizə orqanları ilə koordinasiyalı şəkildə bu proseslərdə fəal iştirak edirlər".

Deputat vurğulayıb ki, Vətən müharibəsi və antiterror tədbirləri zamanı atılan addımlar da reytinqdə yüksəlmənin ən mühüm göstəricilərindən biridir.

A.Nağıyev düşünür ki, bütün uğurlu göstəricilər Ali Baş Komandan İlham Əliyevin tapşırıqlarından və xüsusi xidmət orqanlarına göstərdiyi qayğıdan irəli gəlir.

O bildirib ki, Azərbaycanın yerləşdiyi geosiyasi məkanın mürəkkəbliyi, çətinliyi ölkəmizin təhlükəsizlik pilləsində yüksəlməsinə əngəl törətməyib. Çünki dövlət başçısının siyasətində ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, insanların təhlükəsizliyi ön sıradadır.

"Global Terrorism Index 2024" hesabatında yer alan məlumatlar ölkəmizin, onun Prezidentinin və güc orqanlarının tarixi uğuru kimi dəyərləndirilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Avropa İttifaqı Azərbaycana neft məhsullarının ixracını 2,4 dəfə artırıb

Avropa İttifaqı (Aİ) ölkələri cari ilin yanvarında Azərbaycana 2 min tona yaxın neft məhsulları ixrac edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 2,4 dəfə çoxdur.

AZƏRTAC Avropa İttifaqı Statistika İdarəsinin (Avrostat) məlumatlarına istinadla xəbər verir ki, ixracat pul ekvivalentində iki dəfə artaraq təxminən 4,5 milyon avroya çatıb.

Aİ ölkələri arasında bu ilin yanvar ayında Azərbaycana neft məhsullarının ən böyük üç tədarükçüsü arasında Yunanıstan (500 min avro dəyərində 754 ton), Almaniya (1,9 milyon avro dəyərində 457 ton), Hollandiya (500 min avro dəyərində 155 ton) var.



Avrostatın məlumatına görə, ötən il Avropa İttifaqı ölkələri Azərbaycana neft məhsullarının ixracını 2022-ci illə müqayisədə 73,7 faiz artıraraq təxminən 24,4 min tona çatdırıblar. Pul ekvivalentində isə bu ixracatların həcmi 62,7 faiz artaraq təxminən 58,2 milyon avroya çatıb.

Həmçinin məlumata əsasən, ötən il Avropa İttifaqı ölkələri (İtaliya və Xorvatiya da daxil olmaqla) Azərbaycandan son 4 ildə maksimum neft (təxminən 20,3 milyon ton) idxal ediblər ki, bu da 2022-ci illə müqayisədə 2,6 faiz artım deməkdir. Azərbaycandan tədarük olunan neftin dəyəri 12,4 milyard avro məbləğində qiymətləndirilib.

Aİ ölkələri arasında ötən il Azərbaycandan ən böyük neft idxalçılarının TOP-10 siyahısında İtaliya (6,8 milyard avro dəyərində 11,3 milyon ton), Çexiya (1,2 milyard avro dəyərində 2 milyon ton), İspaniya (875,2 milyon avro dəyərində 1,4 milyon ton), Almaniya (750,3 milyon avro dəyərində 1,2 milyon ton), Xorvatiya (699,2 milyon avro dəyərində 1,15 milyon ton), Portuqaliya (404,6 milyon avro dəyərində 631,3 min ton), İrlandiya (375,3 milyon avro dəyərində 617,3 min ton), Yunanıstan (309,4 milyon avro dəyərində 529,6 min ton), Avstriya (306,6 milyon avro dəyərində 498,7 min ton) və Rumıniyanın (262,2 milyon avro dəyərində 435,5 min ton) adı var.

# Azərbaycanın Gürcüstanla ticarət dövriyyəsi 207, 2 milyon dollar təşkil edib

Bu ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Gürcüstan ilə ticarət dövriyyəsi 207, 2 milyon dollar təşkil edib. Azərbaycan bu göstərici ilə Gürcüstanın ən böyük xarici ticarət tərəfdaşları arasında dördüncü yerdədir. Bu barədə məlumat Gürcüstan Milli Statistika Xidmətinin hesabatında yer alıb.

Bildirilir ki, hesabat dövründə Gürcüstanın ən böyük ticarət tərəfdaşı Türkiyə olub. Cari ilin ilk iki ayında iki ölkə arasında ticarət dövriyyəsi 471,8 milyon dollar təşkil edib ki, bu da Gürcüstanın ümumi ticarət dövriyyəsinin 16 faizi deməkdir.

2024-cü ilin yanvar-fevral aylarında Gürcüstanın ən böyük 5 ticarət tərəfdaşı sırasında Rusiya 410,6 milyon dollarla ikinci, Çin 221,7 milyon dollarla üçüncü yerdə qərarlaşıb.

Gürcüstanın ilk on ticarət tərəfdaşına həmçinin Almaniya, Qırğızıstan, Qazaxıstan və İtaliya daxildir.



# Qubada 3-cü "Aqrobiznesin İnkişafı Forumu" keçiriləcək

Martın 29-da Qubada Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə təşkilatçılığı ilə 3-cü "Aqrobiznesin İnkişafı Forumu" keçiriləcək.




Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, artıq üçüncü ildir təşkil olunacaq forumun keçirilməsində əsas məqsəd ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud vəziyyəti, imkanları, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan addımları müzakirə etməkdir.

Forumda aqrobiznes sektorunun hazırkı vəziyyəti və perspektivləri, habelə iqlimə davamlı maliyyələşdirmə, subsidiyalar vasitəsilə kənd təsərrüfatının maliyyələşdirilməsi və dövlət-özəl tərəfdaşlıqyönümlü bir sıra məsələlər müzakirə olunacaq.

Forum çərçivəsində kənd təsərrüfatının maliyyələşdirilməsində dövlət və özəl maliyyə sektoru qarşısında çağırışlar - "Yaşıl Maliyyə" və İqlimə Davamlılıq üçün dövlət dəstək alətləri, Kənd təsərrüfatı kooperativlərinin aqrobiznesin inkişafında rolu, Türk Dövlətləri Təşkilatı (TDT) regionunun kənd təsərrüfatı potensialı mövzusunda panel müzakirələri keçiriləcək.

Panellərdə aqrar sahənin investisiya imkanları və yeni çağırışlar, bank sektorunda aqrobiznesin maliyyələşdirilməsi təcrübəsi, maliyyə alətləri, risklər və onların tənzimlənməsi ilə bağlı təkliflər, aqrar sahədə sahibkarlığın inkişafı, çətinliklər və imkanlar, aqrar sahənin inkişafında dövlətin rolu, dövlət dəstəyi tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri barədə müzakirələr aparılacaq.

Eyni zamanda paralel sessiyada xarici mütəxəssis tərəfindən müvəkkil təşkilatlarının əməkdaşları üçün kənd təsərrüfatı kreditləri ilə işin təşkili mövzusunda təqdimat olacaq.

Forumda kənd təsərrüfatının maliyyələşdirilməsində uğur hekayələri, uğurlu maliyyələşdirmə yolu ilə inkişaf etmiş yerli təsərrüfatların və ya aqrobizneslərin video təqdimatları və onların mükafatlandırılması həyata keçiriləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Tezliklə Kərkicahana da köç karvanı yol alacaq

***Son** günlərin xoş xəbərlərindən biri də yaxın zamanlarda Xankəndiyə köç karvanlarının yola düşəcəyidir. Xoş xəbər eşitmək xoşbəxtlikdir. İnsanın əhvalına işıq tutan xoş xəbər hər zaman yaşamaq həvəsini artırır, sevinci çoxaldır. İllah da bu xəbər şəxsi prizmadan çox bütövlükdə Azərbaycanla bağlı olanda üzlərdəki təbəssümün bir ayrı sehri görünür.*

Azərbaycan xalqı bu sehrli təbəssümü 30 il gözlədi. Atəşkəs dövrü olsa da, gələn şəhid xəbərləri hər dəfə millətin yarasını sızlatdı. İllərlə qanı axan yara qaysaq bağlamadı. Nəhayət, 44 günlük savaşın zəfər sevinci insanların təbəssümünü özünə qaytardı. Müharibə günlərində cəbhədən gələn qələbə xəbərləri Azərbaycan xalqının qəm-qüssədən əyilmiş belini dikəltdi. 10 Noyabr Zəfər Günü şad xəbərlərin ən əzəmətli akkordu oldu. Bu akkordu vuran Azərbaycan əsgəri və Ali Baş Komandan İlham Əliyev xalqa əbədi təbəssüm bəxş etdilər.

Müharibə bitəndən dərhal sonra Qarabağda aparılan bərpa-quruculuq işləri də bir ayrı şadlıqdan xəbər verdi. Dağıdılmış, viran qalmış yurdlar indi durmadan yenidən qurulur, şəhərlər, qəsəbələr tikilir, "ağıllı kənd"lər salınır. Qarabağda və Şərqi Zəngəzurda infrastruktur və sənaye parkları yaradılır. Bir sözlə, ötən 4 ildə işğaldan azad olunmuş ərazilərdə görülən nəhəng işlər Azərbaycan xalqının üç onillik qanı axan yarasına məlhəm oldu. Bu yara keçmiş köçkünlərin doğma yurd yerlərinə yol alan köç karvanları ilə sağalır. Hər köç karvanı illərin həsrətinə meydan oxuyan sevinc hissi ilə "yüklənib" doğma ocağın istiliyini artırır.



Şad xəbərlərin ən möhtəşəmi 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə Xankəndi, Xocalı, Xocavənd, Kərkicahan, Ağdərənin separatçılardan təmizlənməsi oldu. "Qarabağda antiterror tədbirlərinə başlanıldı" xəbərindən 23 saat 43 dəqiqə sonra "Separatçılar təslim oldu" xəbəri bütün Azərbaycanı sevincə qərq etdi. Torpaqlarımız düşməndən qarış-qarış təmizləndi, Vətən bütövləşdi, dövlətin suverenliyi tam təmin edildi. İllərlə düyünə düşmüş, beynəlxalq qurumların belə həll etmək istəmədiyi Qarabağ problemini Prezident İlham Əliyev özü çözdü. Bu, İlham Əliyevin xalqı və dövləti qarşısında etdiyi ən ali xidmətidir. 30 illik Qarabağ həsrətinin tükənən ümidi ölmədi, əksinə, "dəmir yumruq" əbədiyyət qazandı. "Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək" - bu sözləri Prezident İlham Əliyev ötən il oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında üçrəngli bayrağımızı qaldırarkən söyləyib.

O zamandan yarım ilə yaxın vaxt keçib. Bu gün Xankəndi çox dəyişib. Şəhərdə durmadan yenidənqurma işləri aparılır, köhnə binalar əvvəlki görkəminə qaytarılır, yeniləri ucaldılır, separatçıların inşa etdiyi qanunsuz tikililər sökülür, erməni izləri tamamən silinir. Xankəndi çox keçməz ki, öz qapılarını doğma sakinlərinin üzünə açar. Köçkün düşmüş azərbaycanlıların doğma evlərinə köç etdikləri günün sevincini bütövlükdə Azərbaycan xalqı yaşayacaq.

Verilən xəbərə görə, ilk köç Kərkicahan qəsəbəsinə olacaq. O Kərkicahana ki, 1991-ci il dekabrın 28-də ermənilər tərəfindən işğal edilmişdi. Onu da deyək ki, Kərkicahan asanlıqla təslim olmamışdı. Ermənilərlə döyüşdə 34 nəfər həlak olmuş, 150 nəfər müxtəlif dərəcəli yara almışdı. Ozamankı məğlubiyyət demək olar ki, Xocalının və Şuşanın taleyinə qara kölgə salmışdı. Xocalı şəhəri ilə əlaqə tamamilə kəsilmiş, Şuşanın ətrafı tutulmuşdu. Beləcə, Kərkicahan ermənilərin tam nəzarətinə keçmişdi. Ötən illərdə Xankəndinin bir parçası olan Kərkicahanda ermənilər yeni binalar tikdilər. O zamanlar özünü qondarma "Dağlıq Qarabağ Respublikası"nın lideri sayan, bu gün isə Azərbaycan həbsxanasında "çay içən" Bako Saakyan 2015-ci ildə Kərkicahanda "böyük xaç abidəsi"nin açılışında iştirak etmişdi. Nə xoş ki, o mənfur abidənin bu gün izi-tozu belə yoxdur!

1989-cu ilin rəsmi siyahıyaalınmasına görə, Kərkicahanın əhalisi 2000 nəfər olub. Ermənilər həmin sakinləri yurdlarından didərgin salmaqla kifayətlənməyiblər. İşğal dövründə 2 orta məktəb, 1 uşaq bağçası, 1 kitabxana, 1 klub, 1 ATS, 10 dükan, 1 tibb ambulatoriyası, müxtəlif istehsal sahələrinə aid olan 5 sex və digər məişət-iaşə obyektlərini dağıdıblar. Bu gün Kərkicahanda evlər bərpa olunur, dağıdılanlar yenidən tikilir, hər tərəf abadlaşdırılır. Müasir infrastruktur qurulur, qaz, işıq, su təchizatı belə yenilənir. Vandallar Şuşanın cəmi bir neçə kilometrliyində yerləşən Kərkicahanın mədəniyyət tarixini də silməyə çalışıblar. Buradakı alban məbədinin daşları üzərindəki qədim yazıları silib erməniləşdirməyə cəhd ediblər. Amma alınmayıb, çünki tarix saxtakarlığı sevmir, gec-tez gerçəkləri üzə çıxarır.

Onu da qeyd edək ki, köçkünlük dövründə Azərbaycanın müxtəlif yerlərində məskunlaşmış əhaliyə xoş xəbəri ilk olaraq Prezident İlham Əliyev 2024-cü ilin birinci günü vermişdi: "2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar". Bu xoş xəbərin reallaşacağı günə çox az zaman qalıb.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Beynəlxalq Enerji Forumu COP29-da karbon bazarları üzrə böyük irəliləyiş əldə etməyə yönəlib

**Beynəlxalq Enerji Forumu israrla hökumətləri karbon tullantıları üzrə kvotalarla beynəlxalq ticarət üçün çərçivə təmin edən və tullantılar üzrə milli hədəf göstəricilərinin əldə edilməsi üçün son dərəcə mühüm olan Paris sazişinin 6-cı maddəsini razılaşdırmağı başa çatdırmağa çağırır.**

Trend xəbər verir ki, bu barədə Beynəlxalq Enerji Forumunun baş katibi Cozef Makmoniql "Keçid dövründə karbon bazarlarının rolu" məruzəsinin təqdimatında deyib.

"6-cı maddə üzrə saziş beynəlxalq karbon bazarlarının potensialının kəşf edilməsinin açarıdır və Azərbaycanda COP29-da bununla bağlı böyük irəliləyiş görəcəyimizə ümid edirik", - o deyib.

Onun sözlərinə görə, karbon bazarları enerji keçidlərinin səmərəliliyini artırmaq və təmiz enerji sahəsində layihələr üçün vəsaitlər cəlb etmək hesabına iqlim, enerji təhlükəsizliyi və dayanıqlı inkişaf sahəsində məqsədlərin əldə olunmasında mühüm rol oynayacaq.

"Karbon bazarları iqlim, enerji təhlükəsizliyi və qiymətdə əlçatanlıq sahəsində qlobal məqsədlərimizə nail olmaq üçün resursların bölüşdürülməsində mühüm rol oynayacaq. Daha sıx əməkdaşlıq və məntiqli tənzimləmə sayəsində onlar xüsusən inkişaf etməkdə olan ölkələrdə təmiz enerji sahəsində layihələrə milyardlarla dollar cəlb edə bilərlər", - deyə Makmoniql əlavə edib.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir.

Konvensiyanın tərəfləri 198 ölkədir. Əgər tərəflərin fərqli qərarı olmazsa, COP hər il keçirilir. COP-un ilk tədbiri 1995-ci ilin martında Berlində baş tutub, katibliyi Bonn şəhərində yerləşir.

## 500-dən çox uşaq reabilitasiya yönümlü sosial xidmətlərlə təmin olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisələri və ixtisaslaşmış sosial xidmət mərkəzləri vasitəsilə yanvar-fevral aylarında 500-dən çox uşağa reabilitasiya yönümlü sosial xidmətlər göstərilib.**

Onlardan 356 uşaq agentliyin müəssisələrində stasionar və yarımstasionar şəraitdə sosial xidmətlərlə təmin edilib. Əlilliyi olan 149 uşaq isə qurumun ixtisaslaşmış sosial xidmət mərkəzlərində yarımstasionar sosial xidmətlərə cəlb edilib.

Son iki ayda həmçinin qurumun sosial sifarişləri əsasında 2 600 nəfər əlilliyi olan uşağın asudə vaxtının səmərəli təşkili məqsədilə tədbirlər də təşkil olunub.

## AİBNDX-nin nümayəndə heyəti Macarıstanda Rəqabət qurumu rəhbərlərinin iclasında iştirak edib

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (AİBNDX) rəisi Məmməd Abbasbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstana işgüzar səfər edib.**

Səfər çərçivəsində heyət İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Budapeştdə yerləşən Regional Rəqabət Mərkəzi (RCC) tərəfindən təşkil olunan Rəqabət qurumu rəhbərlərinin iclasında iştirak edib.

İclas OECD və RCC ilə əməkdaşlıq edən dövlətlərin rəqabət qurumlarının müvafiq sahədə hüquqi alətlərinin təhlili, məhkəmə orqanları ilə birgə fəaliyyət, tənzimləmə metodları, yanaşma və təcrübələrin nəzərdən keçirilməsi məqsədilə baş tutub.

Tədbir zamanı Macarıstan Rəqabət Qurumunun prezidenti Ksaba Balaş Riqo, OECD-nin Rəqabət istiqamətinin rəhbəri Ori Şvartz və OECD-nin Rəqabət Komitəsinin sədri Frederik Cenninin çıxışları dinlənilib. Daha sonra rəqabət orqanları rəhbərlərinin və sahə ekspertlərinin iştirakı ilə "Rəqabət qurumlarının qanuni nəzarət tədbirləri" və "Birləşmələrə nəzarət" mövzularında panel müzakirələr təşkil olunub.

Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli "Birləşmələrə nəzarət" panel müzakirədə çıxışı zamanı rəqabət qanunvericiliyinin əsas prinsipləri və tənzimləmə mexanizmlərini ehtiva edən Rəqabət Məcəlləsi barədə ətraflı məlumat verib. Panel müzakirənin mövzusuna uyğun olaraq Azərbaycanda birləşmə, qovuşma və pay alqı-satqısı sahələri üzrə məcəllədə yer alan yeniliklərdən söz açıb. Həmçinin birləşmə və payların alqı-satqısı zamanı haqsız rəqabət hallarının təhlili və bazarda rəqabət mühitinin inkişafı istiqamətində Dövlət Xidmətinin fəaliyyətindən bəhs edilib. Bildirilib ki, yeni hüquqi aktda inhisarçı davranış və təmərküzləşmə halları ilə mübarizə metodları, müvafiq sahədə nəzarət və digər rəqabət meyarları Avropa İttifaqı, OECD və Türkiyə də daxil olmaqla, beynəlxalq təcrübə əsasında formalaşdırılıb. Dövlət Xidmətinin rəisi birləşmə, qovuşma və pay alqı-satqısına nəzarət sahəsində məcəllənin tətbiqi zamanı tənzimləmə bazasının daha da inkişaf etdiriləcəyini diqqətə çatdırıb.

İclas "dəyirmi masa" müzakirələri, RCC-nin fəaliyyətinə dair sessiyalar, o cümlədən ikitərəfli görüşlərlə davam edib. Qeyd olunub ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Regional Rəqabət Mərkəzi (RCC) Şərqi, Cənub-Şərqi və Mərkəzi Avropa regionlarının rəqabət qurumlarının əməkdaşlığı üçün yaradılmış platformadır. Mərkəz rəqabət qanunvericiliyi, siyasəti və təşviqi mövzuları üzrə seminar və təlim proqramları ilə müvafiq qurumlar arasında təcrübə mübadiləsi və əməkdaşlıqların qurulmasına imkan yaradır.

# Sahibkarlığa dövlət dəstəyi davam edir

## Bu ilin iki ayında sahibkarlara 23,2 milyon manat güzəştli kreditlər ayrılıb

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə özəl sektoru inkişaf etdirmədən sosial-iqtisadi tərəqqiyə nail ola bilməyib. Ən azı o səbəbdən ki, sərbəst bazar iqtisadiyyatında aparıcı qüvvə özəl sektor hesab edilir. Bu sektorun yaranması üçün isə sahibkarlığın formalaşdırılması əsas şərtdir.



O üzdən müstəqilliyimizə yenidən qovuşduqdan sonra ölkəmizdə icra edilən iqtisadi islahatların hədəfi sahibkarlığın inkişafı və özəl sektorun formalaşması oldu. Bu məqsədlə sahibkarların hüquqlarının qorunması və özəl sektora dövlət qurumlarının yersiz müdaxilələrinin qarşısının alınması istiqamətində lazımi qərarlar qəbul edildi. Belə bir qanunvericilik bazası özəl sektorda sərbəstlik yaratmaqla yanaşı, ona kənar müdaxilələrin qarşısının alınmasında da önəmli rol oynadı.

Dövlət təkcə sahibkarların hüquqlarının qorunması ilə kifayətlənmədi, ümumən sahibkarlığın inkişaf edib təşəkkül tapmasını da təmin etdi. Bir neçə qısa fakt: ötən əsrin 90-cı illərinin sonlarından sahibkarların güzəştli kreditlərlə təmin edilməsinə başlanıldı. Bununla yanaşı, bir çox sahələrdə sahibkarların rahat fəaliyyət göstərməsi üçün lisenziyalar ləğv edildi, zəruri olan yerlərdə isə onun alınması proseduru sadələşdirildi.

Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi 2023-cü ildə də davam edib. Keçən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən ümumi dəyəri 459,9 milyon manat olan layihələr üzrə 3276 sahibkara 193,8 milyon, həmçinin 3261 kiçik və orta həcmli layihələrə 139,3 milyon manat güzəştli kreditlər verilib. Həmin kreditlər sahibkarlara bizneslərini inkişaf etdirməklə yanaşı, 3 mindən çox yeni iş yeri açmalarına imkan yaradıb.

Güzəştli kreditlər ayrılan sahələr də maraq doğurur. Bu, dövlətin hansı sahəyə daha çox əhəmiyyət verdiyini göstərir. Məsələn, götürək ötən ili. 2023-cü ildə ayrılan güzəştli kreditlərin 55,1 faizi aqrar sektorun, 44,9 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalı, həmçinin digər sahələrin inkişafına yönəldilib. Verilmiş kreditlərin 85,5 faizi regionların, 14,5 faizi paytaxtın ətraf qəsəbələrinin payına düşüb.

Göründüyü kimi, ölkəmizdə iki sahənin inkişafına xüsusi diqqət yetirilir. Birincisi, kənd təsərrüfatıdır. Məlumdur ki, dünyadakı mövcud geosiyasi gərginlik şəraitində dövlətlər bir-birinə qarşı siyasi təsir vasitəsi kimi ərzaq məhsullarına sanksiyalar qoymağa başlayıblar. Bu, hər bir ölkədən, o sıradan Azərbaycandan ərzaq təhlükəsizliyi məsələsinə daha diqqətli olmağı tələb edir. Həmin səbəbdən ölkəmizdə aqrar sektorun inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə xüsusi yanaşma təsadüfi deyil.

İkinci mühüm fakt isə ayrılan kreditlərin çoxunun regionların payına düşməsidir. Məlumdur ki, dövlətin iqtisadi-sosial strategiyasının əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bununla əlaqədar regionların sosial-iqtisadi inkişafı ilə bağlı 4 proqram qəbul edilib. Digər tərəfdən, aqrar sektorda çalışan sahibkarlar təbii ki, regionlarda fəaliyyər göstərirlər. Yəni güzəştli kreditlərin daha çox regionlarda fəaliyyət göstərən sahibkarlara ayrılması həm bölgələrin inkişafına, həm də kənd təsərrüfatı məhsullarının istehsalını artırmağa hesablanıb.

Bütün bu və digər dəstək hesabına indi Azərbaycan sahibkarları özləri investisiya yatırmaq imkanına malikdirlər. Təkcə keçən il iqtisadi və sosial sahələrin inkişafına yatırılan ümumi sərmayənin 43,9 faizi qeyri-dövlət sektoruna məxsus olub. Sənayedə qeyri-dövlət sektorunun payı isə keçən il 84,5 faizə çatıb.

Cari il də Sahibkarlığın İnkişafı Fondu iş adamlarına dəstəyini davam etdirir. Fonddan verilən məlumata görə, bu ilin yanvar-fevral aylarında sahibkarlara 647 layihənin maliyyələşdirilməsinə 23,2 milyon manat güzəştli kredit ayrılıb. Həmin kreditlər hesabına 300-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Bakı hava limanı bir həftə ərzində 121 mindən çox sərnişinə xidmət göstərib

**Martın 20-dən 27-dək Heydər Əliyev Beynəlxalq Aeroportu 121 mindən çox sərnişinə xidmət göstərərək əvvəlki ilin nəticələrini 32,5 faiz üstələyib. Ötən ilin eyni dövründə bu rəqəm 91,3 min sərnişin təşkil edib.**

Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bayram günlərində hava limanının bütün xidmətləri gücləndirilmiş iş rejimində çalışaraq fasiləsiz iş rejimini təmin edib və aeroportun məsuliyyət zonasında hər hansı gecikmələrə yol verilməyib.

Ən sıx gün martın 24-də olub və 19 min 334 sərnişinə xidmət göstərilib. Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda aviaşirkətlər tərəfindən 162 reys həyata keçirilib.



Hava limanından ən populyar istiqamətlər Naxçıvan, İstanbul, Dubay, Tbilisi, Əbu-Dabi, Moskva, Dehli, Sankt-Peterburq, Ankara və Aktau olub.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 fevral (Bazar ertəsi günü) tarixli 115-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Düşənbə, 16 cəmadiyələvvəl sənə 1337.
17 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Səşənbə [çərşənbə axşamı] günü 1919 sənəsi fevral ayının 18-ində gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusan [Parlament] iclası olacağı elan edilir.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyəsi İdarəsindən:**

-I-

Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsi dəftərdarı [mühasibi] Muradəli Qasımzadə 11 şubat [fevral] 1919 tarixi ilə idarəyə istefanamə təqdim etmiş və İdareyi-Məşixət dəxi məzkurun [adı çəkilən şəxsin] istefanaməsini qəbul edərək balada məzkur [yuxarıda göstərilən] tarixdən etibarən müşarünileyhin [adı çəkilən şəxsin] xidmətdən azad edilməsini qərara almışdır.

-II-

İşbu 1919 sənəsinin fevralın 1-indən etibarən Şərəfəddin Hacı Veysəl oğlu layiq və münasib görülərək Azərbaycan Məşixəti-İslamiyyə İdarəsi kargüzarlığına nəsb və təyin edilmişdir.

*Məşixəti-İslamiyyə İdarəsi sədrləri:*
*Əfəndizadə və Ağaəlizadə*

## BU GÜNÜN MƏSƏLƏSİ

Bakı əfkari-ümumiyyəsi [ictimaiyyəti], bilxassə [xüsusilə] şəhərin türk qismi əndişələr içindədir.

Biçeraxovun otryadı buraxıldıqdan sonra hər kəs düşünürdü ki, artıq bu məmləkət şübhəli qüvvətlərdən xilas olacaq.

Fəqət öylə olmayır. Biçeraxov əvəzinə Prjevalski oturur. Bir yandan "likvidatsiya" [ləğvetmə] gedirsə də, digər yandan "zapis" [qeydiyyata götürmə] gedir. "Dobrovolçeski armiya"ya [Könüllü orduya] könüllü yazılırlar. Könüllü yazılanlar da əksərən ermənilərdir. Bu könüllülər, şəhərin mərkəzində, meydanlarında məşq edirlər. Bu surətlə xalq arasına həyəcan düşür, hər kəsi əndişələr götürür. Haqlı olaraq "Yarın nə olacaq?" - deyə düşünürlər.

Bir tərəfdən də Denikin ordusunun nümayəndəsi şəhərimizə gəlir. Nə yapır, nə yapmayır, bilməyiriz. Bu qədər bilməyiriz ki, Denikin ordusu bolşeviklərlə mübarizəni unudub da "asi" Qafqaziya millətləri üzərinə çökmək niyyətindədir. Gürcüstan təhdid olunur. Dağıstana qarşı hərəkət başlanır.

Böylə bir zamanda əcəba, Azərbaycanın paytaxtında toplanan bu qüvvətlər nədir? – deyə hər kəs pək haqlı olaraq düşünməzmi? Əlbəttə, düşünər. Hər kəs böylə təbii olmayan bir hərəkət qarşısında təlaş edər.

Bir zamanda ki, ingilis komandanlığı Azərbaycanda yeganə bir hökumət olaraq ancaq Azərbaycan Hökumətini tanımışdır, öylə bir zamanda burada başqa, bizi tanımayan və bizə düşmənanə bir fikir bəsləyən qüvvətlərin toplanması, əlbəttə ki, təbii görüləmməz!

Bir zamanda ki, bütün firqələrlə bərabər Erməni Milli Komitəsi dəxi Azərbaycanın haqqını tanıyaraq Məclisi-Məbusana [Parlamentə] nümayəndələrini və hökumətə vəzirlərini [nazirlərini] göndərmək üzrədir.

Bir zamanda ki, Ermənistan ilə Azərbaycan arasında münasibati-siyasiyyə [siyasi əlaqələr] başlayır, erməni əsgərlərinin təkrar könüllü yazılmaları və bir taqım əsgəri qitələr [hərbi hissələr] təşkil edib də şəhərimizdə mövcud kazarmaları tutmaları son dərəcədə qeyri-təbii bir haldır. Bu halın qeyri-təbii olduğunu daşnaksaqanların qəzetəsi olan "Vperyod" qəzetəsi dəxi etiraf edir. O, öz yanında zavallı işsiz qalan erməni əmələlərinin gününə ağlayır, deyir ki, onları "başqa yola göndərirlər". Anladır ki, işsiz erməni əmələləri iş bulammayır, evlərinə gedə bilməyirlər, çarəsiz qalıb da bir parça çörək üçün könüllü yazılırlar. "Kim bilər harada, bəlkə bolşeviklərlə, bəlkə də dağıstanlılarla olacaq müharibədə öləcəklərdir."

Demək ki, erməni məhfilləri [dairələri] də bu halın qeyri-təbii olduğunu dərk və etiraf edirlər, fəqət dəlilləri başqadır. Köhnə dəlil və sübutlardır.

Fəqət mən zənn etməyirəm ki, Azərbaycan Hökuməti erməni işsizlərini kəndi paytaxtından təmizləmək üçün lazım gələn tədbir[i] görməkdən imtina eyləsin. Və zənn etməyirəm ki, "Amazasp" kimi general "işsizlər" cərgəsində hesab ol[un]sun.

Dəlil və sübutlar əskidir. Əcəba, köhnə tarix təkrar edilməsin!...

Hökumət bu xüsusda göz-qulaq olub bəsirətlə [uzaqgörənliklə] hərəkət etməlidir. Bir an əvvəl evlərinə gedəcək erməniləri yola salmalıdır. Və hər növ bəhanələrini kəsmək üçün nə etmək lazım isə etməlidir. Eyni zamanda da ingilis komandanlığından tələb etməlidir ki, bizə qəti və ciddi təminat versinlər, görək bu toplanan könüllülər kimdir, nə üçündür. İstəməlidir ki, burada, Azərbaycanın paytaxtında Azərbaycana sadiq olmayan heç bir qüvvət bulunmasın. Qərib[ə]dir, Azərbaycan paytaxtında Azərbaycan əsgərindən başqa hər növ əsgər vardır. Buna bir intəha [nəhayət, son] vermək lazım.

Böylə bir təbii tələb qarşısında bitərəf ingilis komandanlığı da bir söz deməz.

Bir an əvvəl Azərbaycan əsgəri şəhərimizə daxil olmalıdır. Bu xüsusda hökumətin əsas etibarilə qərarı olduğunu biliriz.

Fəqət camaat dörd gözlə gözləyir.

Nerədə əsgərlərimiz!

Qoy hökumət bir tərəfdən öz qüvvətimizi buraya gətirsin, bir tərəfdən işsiz adamları şəhərdən azaltsın, bir tərəfdən də işsizlərə bir növ "iş" tələsi olan könüllü əsgər təşkilatının təhəmmül olunmaz [dözülməz] bir hal olduğunu isbat ilə lazım gələn tədbirlərdə bulunsun.

Əfkari-ümumiyyə bunu istəyir. Əhalinin əmniyyət və qəlb rahatlığını istəyən qüvvətlər isə hər şeydən əvvəl bu tələbə etina etməlidirlər.

İştə bugünün həll olunacaq məsələsi!

*M. Ə.*

## AZƏRBAYCAN
## MƏCLİSİ-MƏBUSANINDA

**10-uncu iclas**

**Üçüncü gün**

*(Keçən nömrədən maba'd)*

**Əbilov İbrahim** (sosialist) - Möhtərəm məbus əfəndilər! Bəhs olunan sorğu məsələsində, necə ki xatirinizdədir, dün yoldaşımız [Ağamalıoğlu] Səməd ağanın işlətdiyi bir neçə sözü mübahisəni dəyişib başqa bir rəngə saldı. Yoldaşımızın sözü anlaşılmadan və əsl məsələnin ruhuna vaqif olmadan, onun işlətdiyi yalnız bir kəlmə türk sözünü alıb natiqlər şiddətli nitqlər söylədilər. Bu gün yoldaşımızın təkrar kürsüyi-xitabətə gəlib türklər haqqındakı fikrini vazeh [açıq] bir surətdə söylədikdən sonra mən ümid edərdim ki, artıq bu xüsusda fəzlə danışılmayacaqdır. Çünki anlaşıldı ki, sosialist firqəsi türk sözünə, türk millətinə nə düşməndir, nə də onun əleyhinə danışan. Türkdən məqsəd türk üsuli-idarəsi, istibdadı və hökumət siyasətidir ki, bizim hökumətə də o ruhu vermiş olduğunu yoldaşımız söylədi. Zənn edərdim artıq bu barədə danışmaq lazım gəlməz. Fəqət, [Qarabəyli] Qara bəy cənabları türklər haqqında məddahlıq edərək "türk milləti müqəddəsdir" - deyə yenə uzun bir nitq söylədi. Bəli, əfəndilər! Türk milləti, türk füqərayi-kasibəsi [proletariatı] bizcə müqəddəsdir və heç kəs böylə olduğunu inkar etməz. Fəqət bizim tənqid etdiyimiz türk millətini zirizəminlərdə [yer altında, zirzəmilərdə] saxlayan hökumətdir ki, onu yıxmaq üçün Türkiyə füqərayi-kasibəsi ilə birləşib bərabər mübarizə etməyə hazırız. *(Soldan alqış)* Bundan anlaşılır ki, sosialistlər türklərə düşmən deyildirlər. *(Sədr: Natiq əfəndi, sosialistlərin düşmən olduğunu heç kəs söyləmədi.)*

Bəli, türk mübahisəsini buraxalım. Keçəlim əsl məsələyə. Bu məsələlər gərək sorğudan əvvəl müzakirə ediləydi. Bu sorğu barəsində, o yerlərə gedib işləri eyni ilə görmüş olan yoldaşlarımızın bəzilərinin bəyanatı, sübutları daha da qüvvətləndirir. Demək, sorğuda göstərilən nöqsanlar doğrudan da vardır. Hətta hökumət də öz cavabında bu nöqsanları rədd etmədi. Biz etiraf ediriz ki, nöqsan var, fəqət, zaman, məkan və əhval nəzərə alındıqda görülür ki, hökumətin dəyişməsi ilə bu nöqsanlar rəf olmaz [aradan qalxmaz]. Əgər rəf ediləcək olsaydı, əski hökumət dövründəki nöqsanlar şimdi yeni hökumət zamanda daha çox olmazdı. Bu surətlə heç kəs təmin edəmməz ki, bir yenisi gəlsə bundan daha fəna olmayacaqdır. Biz sosialsitlər şəxsi deyil, hökumətin əsas quruluşunu dəyişmək istəriz. Ona görə bizcə tezliklə Məclisi-Müəssisan çağırılmalıdır ki, əsasən bir əsl demokratik hökumət qurulsun. Fənalıqların qabağını ancaq bununla almaq olar. Bu hökumətin əsası puçdur. Kəndlərdə çox böyük zülümlər olur. Bir yoldaşımız dediyi kimi, məmurlar quldurları yanlarına alaraq füqərayi-kasibəni soyub talayırlar. Bir də Məhəmməd Əmin Rəsulzadə cənabları yoldaşımız Səməd ağanın "Müsavat"a bir balaca toxunmasına cavabən söylədiyi nitqində "Müsavat"ı müdafiə etməklə bərabər onun demokratik bir firqə olduğunu sübuta qalxışdılar və dedilər ki, kəndlərdə siyasi firqələr şöbələri açaraq bu vasitə ilə nöqsanların önünü almaq lazımdır. Şöbə açılsın, amma məzkur şöbə əzasının [deyilən şöbə üzvlərinin] hər gecə birisinin quldurlar vasitəsilə boğulub öldürülməyəcəyinə əmindirmi? Məhəmməd Əmin əsl demokrat olsaydı deməliydi ki, bu yolsuzluqların önünü almaq üçün o yerlərdə idarələr dəyişib demokratik üsulla zemstvolar [yerli özünüidarə təşkilatları] açılsın və camaatın idarə və milisləri özlərinin inandıqları, tanıdıqları adamlardan olsun, indiki camaatı soyanlar tutulsunlar. O halda haqsızlıqların önü alınmış olardı. Lakin bunu demədi.

Mən sözümü qurtarmaq üzrə deyirəm ki, sorğu məsələsində nazirlərin cavabı bizi qane etmirsə də yenə biz böhran çıxarmaq tərəfdarı deyiliz. Ancaq təzə bir əsas düzəltmək lazımdır ki, onu da yalnız Məclisi-Müəssisan qura bilər. Ona görə Məclisi-Müəssisan dəvətinədək Parlamanda bu işlərə baxmaq, nəzarət etmək üçün bir komisyon təşkil edilsin. (Soldan alqış)

*(5 dəqiqə tənəffüs elan olunur)*

*Tənəffüsdən sonra*

**Murtuza Axundov** — Quba şəhəri üzvü sifəti ilə ərz edirəm ki, natiqlərdən birisi buyurdu ki, Quba şimdiki halda xanlıqdır. Buna cavabən deyirəm ki, Quba xanlıq isə nə üçün Quba qəzası Azərbaycan Parlamanına 3 məbus göndərmişdir. (Alqış) Bakı Azərbaycanın paytaxtı olduğu halda, burada üçrəngli bayraqdan ancaq bir dənə görürəm, halbuki Qubada kasıb, dövlətli hər kəsin ipək parçadan tikilmiş üçrəngli bayrağı var, hər cümə günü şəhəri təzyin edirlər [bəzəyirlər]. Lakin nədənsə bunu Bakıda görməyirəm. (Alqış) Sonra buyurdular ki, Qubada məmurlar öz cinayətlərini örtməkdən ötrü özləri üçün dəstə düzəldərək "filan" məsələni ortalığa salmışlardır. Az qalmışdır ki, nə qədər adam tələf olsun. Mən bu məsələnin nədən ibarət olduğunu belə söyləməkdən həya edirəm. Amma burasını sizə deyirəm ki, Qubada böylə şey yoxdur və olmaz da. (Alqış)

Bir də buyurdular ki, Quba qəzası Qəçrəş və Küpçal kəndlərində yığılan zəkat buğda nə olmuşdur. Mən deyə bilərəm ki, o buğda heç yerə getməyib, kənd vəkillərinin ixtiyarında, kənd anbarlarında öz yerində durur. Mən bu barədə Quba qəza qaimməqamı [qəza rəisi] ilə sual-cavabda bulundum. Qaimməqam cavab verdi ki, buğda cəm edildiyi zaman, mən Bakıda olmuşam, mənim müavinim Azərbaycan Hökumətinin Ərzaq nazirinin teleqrafına görə buğda cəm edibdir. Mən qayıdandan sonra bu əhvalatı mənə söyləmişdir. Cavabında mən demişəm ki, Azərbaycan Hökumətində zəkat adı ilə buğda yığmaq qanunu yoxdur.

Sonra buyurdular ki, 15 vaqon buğda nə yerə getmişdir? Əvvəla 15 vaqon deyil, 18 vaqondur. Bu barədə sənədlər vardır. Bunlardan 2 vaqon qubernatorun əmri ilə Bakıya gətirilib, putu 40 manatdan qubernatora təhvil verilmişdir. Bir vaqon arpa ilə buğda da türklər gedən zaman ingilislərin vürudu [gəlişi] əsnasında qubernatorun əmrinə görə, Bakıya gələn pristavlarla strajniklər üçün gətirilib, hələ pulu da vüsul olmamışdır [çatmamışdır]. Bundan əlavə, 8 vaqon da qubernatorun əmri ilə Bakıya gətirilərək Bələdiyyə İdarəsi vəkili Klenevskiyə təhvil verilib, pulu alınmışdır. Məzkur [deyilən] pul dəxi putu 40 manat hesabı ilə buğda alınan əhaliyə paylanmaqdadır. Buğdanın bir vaqonu da hal-hazırda Xaçmaz mövqifindədir [stansiyasındadır] ki, hələ təhvil alınmamışdır. Qalan 6 vaqonunu da türklər Dağıstandan qayıdarkən özləri ilə aparmışlardır. Bu barədə noyabrın 29-da Vükəla Şurası [Nazirlər Kabineti] Daxiliyyə və Ərzaq nazirləri və qubernator namına [adına] böylə bir teleqraf göndərilmişdir:

*"Qubernatorun əmrinə görə, Xaçmaz mövqifində cəm edilmiş arpa və buğdanı Dağıstandan gəlib keçən türk əsgərləri güclə vaqonlara dolduraraq aparırlar. Camaat pulunu almamışdır. Təvəqqe edirəm camaat mənafeyini müdafiə edib, türklər tərəfindən aparılan arpa, buğdanı Biləcəri mövqifində saxlatdırasınız.*

*Uyezd naçalniki Xoyski"*

Bir də doğrudur, uyezdni naçalnik Xoyskidən qabaq putu 10 manatdan buğda cəm edilmişdir, pulu da əhaliyə verilməmişdi. Ona görə bu buğda putu 10 manatdan olaraq məvacib almayan qulluqçulara paylanıb, hasil olan məbləğ buğda sahiblərinə qaytarılmışdır. Hətta bir dəfə teleqraf məmurlarından birisi şikayət etdi ki, buğdadan ona çatmamışdır. Mən təklif edərdim ki, hər fraksiydan bir nümayəndə olmaq üzrə bir komissiya göndərib bu işləri yerində təhqiq edəsiniz, tainki həmin komissiya məhəllində [yerində] təhqiqat yapıb bu barədə Parlamana məlumat versin.

**Əhməd Cövdət [Pepinov]** - Möhtərəm əfəndilər! İki gündən bəri mövzuyi-bəhs [mübahisə mövzusu] olan məsələ haqqında mənə bir neçə dəqiqə söyləməyə müsaidə veriniz, çünki burada sol firqələri bir növ türklərin əleyhinə getməkdə ittiham etdilər. Təəccübdür ki, sosialist firqələrini töhmətləndirib türk demokratiyasının müdafiəsini başqaları boyunlarına götürürlər. Məhəmməd Əmin əfəndi söylədilər ki, bizim firqəmiz türk firqəsidir. Əfəndilər, siz türkçü isəniz biz də deyiriz ki, biz də türküz, firqəmiz də türk firqəsidir. *(Soldan və mərkəzdən alqış)* Fəqət, bizimlə sizin aramızda böyük fərq var. *(Məhəmməd Əmin: Doğrudur, var!)* Bizim firqəmiz türk füqərayi-kasibəsi, türk xalqı, türk demokratiyasının hüququnu müdafiə edən bir türk firqəsidir. *(Soldan alqış)* Biz kim olur-olsun, türk olsun, müsəlman olsun, deyənlərdən deyiliz. Görürsünüz millətin paşası ilə əkinçisini bir dərəcədə tutan firqələrin ardınca gedənlər səhvlərini anlamağa başlamışlardır. Türk xalqı da kəndi-kəndini idarə etmək arzusu bəsləyir və istəməz ki, onun zəif əlləri ilə hasil edilən sərvət yalnız bir neçə şəxsə qismət olub qalsın. Məlumunuzdur ki, Azərbaycan xalqı üçün türk sözü yeni bir şeydir və türk olduğunu yenicə anlamışdır. Odur ki, türkləri böyük intizarla gözləyirdilər. Qara bəy [Qarabəyli] cənabları buyurdular ki, türklər haqqında ehtiramdan başqa bir söz söyləməməli. Bu doğrudur. Fəqət, türklər burada ikən bir qaç zabitanın [bir neçə zabitin] ədəbsizliyi xalqımızı dönməyə, hətta söyməyə belə məcbur etmişdi. Biz istəməyiriz ki, böylə fəna hərəkətlər Osmanlı türklərinə qarşı Azərbaycan türklərində nifrət oyatsın. Bunu burada olan bir qaç paşa yapdı; biz o paşa ilə düşməniz. Bizim firqəmiz həm Osmanlı xalqının, həm də Azərbaycan demokratiyasının hüququnu müdafiə üçün həmin paşalarla mübarizə edəcəkdir.

Əvət! Bunu təsdiq ediriz ki, türk demokratiyası müqəddəsdir, ehtiramlara layiqdir. Fəqət, əfəndilər, burada türk-türk deyə döşünə döyənlər, məgər türklər gələndə paşaların ayaqlarına sərildikləri halda, ingilislər gəlincə onlara sıxılıb türk tərəfdarı olduqlarını danaraq ingilis xidmətinə girməyə çalışmadılarmı? *(Mərkəzdən və soldan alqış)* O vaxt Azərbaycan xalqının hüququnu hamıya qarşı müdafiə edən bizim firqəmiz olmadımı? Burada yoldaşımız dedi ki, osmanlılar gəldilər, puç olan əsasi-idarələri bizimkilərə də təsir etdi. Məgər həqiqətən Osmanlı Hökumətinin əsası puç deyilmi? Əgər Osmanlı məmləkətini gəzmiş olsanız, yazıq türk əkinçilərinin nə qədər zəlil olduğunu görərsiniz. Buna da səbəb sultanlar və həmin paşalardır. *(Soldan: Doğrudur!)* Mən dediklərimi, Osmanlı xalqının ruhunu hər kəsdən artıq bilən, onun dili ilə söyləyən, onun sazını çalan türk şairi Məhməd Əmin bəyin sözləri ilə sübut etmək istərəm. Şair türk hökumətinin istibdadını təsvirlə deyir ki:

*Şu istibdad hökuməti, Türkiyəyə təhlükə!*
*Baxın, məsud etmək üçün hər şey olan bir ölkə,*
*Hər qüvvəti məqsədinə ram eyləyən bir ümmət,*
*Üç qitədə cahangircə hökm sürən bir dövlət*
*Şu saatda bir qaranlıq uçurumun üstündə.*

Əfəndilər bunu edənlər, bu istibdadı quranlar kəndiləri müsəlman və türk deyillərmi? *(Məhəmməd Əmin: Çox vaxt deyillər!)* Mən deyə bilərəm ki, əgər Osmanlı xalqı və əkinçilərini Avropa sərmayədarları əzirlərsə də, onlardan daha əvvəl əzən həman paşalardır. Daima bunlara qarşı üsyan edən şair türk əkinçilərinin halını təsvir edərək deyir ki:

***Bu yazıqlar***
*Şu zavallı millət üçün Məşrutiyyət xəyanət*
*Ədaləti düşünən baş əzilir,*
*Müsavatı söyləyən dil kəsilir,*
*Hürriyyətlə çırpınan qəlb xaindir...*
*Zindanlarda bu məzluma zəncirlər,*
*Biçarəyə qızdırılmış dəmirlər,*
*Biçarəyə soyuq sular, tomruqlar,*
*Murdar sözlər, yumruqlar,*
*Biçarəyə Mərmərədə qanlı-qanlı ölümlər,*
*Biçarəyə heç bir yerdə yapılmayan zülümlər.*

Kəndləri və əyalətləri təsvir edərkən şair deyir ki:

*İştə sizə taşralar ki, hər bucağı bir xaraba, bir məzar,*
*Köylərində inildili qülübələr, örümcəkli boş xanələr,*
*Dağlarında dönməz olmuş dəyirmanlar;*
*soyğun vermiş karvanlar;*
*Hər yerində yanğın, yəğma, zülüm var.*

Məgər, bunları edən idarənin əleyhinə danışmaq olmazmı? Bir şair bütün qəlbi ilə bunlara qarşı tüğyan edərkən, siyasi bir firqənin tüğyan etməyə haqqı yoxmu? Məlumunuzdur ki, əfəndilər, burada Qafqaziya içərisində kəndi qardaşlarını xilas etmək kimi müqəddəs işlərə çalışan Məhmədciklərlə bərabər bir çox fənalıqlar yapan ədəbsiz zabitan da [zabitlər də] olmuşdur. Bunların ədəbsizlikləri zavallı Məhmədciyin boynuna atılacaqdır. Burada ingilislərin bir kontrol komisyonu var ki, müharibədən nəşət edən [qaynaqlanan] və birə on qat artıq göstərilən zərərləri hesab edir ki, canını fəda edən yazıq türk Məhmədciklərinin boynuna yükləsin. Hətta bir çox vicdansız müsəlmanlar dəxi var ki, oraya yazılı ərizələr vermişlərdir. Bunlar əleyhinə ilk əvvəl etiraz edən yenə bizim sosialistlər qəzetəsi olmadımı? Artıq türk barəsinda danışmayıb, əleyhimizə əsaslı sübutlarla çıxsınlar.

Sorğuya gəldikdə, bu barədə deyərdim ki, danışılan bir çox sözlərin doğrusu varsa da, bir çoxlarının da doğru olduğunu etiraf etmək qeyri-mümkündür.

Məhəmməd Əmin həzrətləri buyurdular ki, hökumət məsələsində iki hal ola bilər. Biri Parlamandan qabaq, digəri sonra və Parlamandan qabaqkı hökumətin nöqsanını təzəyə isnad etmək olmaz. Hökuməti tənqid edərkən daxili və xarici düşmənləri, vaxtın az olmasını nəzərə almağı da tövsiyə etdilər. Bu az vaxtda işləri tamamlə düzəltmək qeyri-mümkün olduğunu da əlavə etdilər. Burası doğru, biz də etiraf edəriz. Fəqət, sabiq hökumət ilə yenisi arasında bir təfavüt olmalı idi. Beş həftə zərfində hökumət bari heç olmazsa bir iş görəydi, tədbir görüldü deyəydi, fəqət, mütəəssifanə [təəssüf ki], bir tədbir ittixaz edilməmişdir [tədbir görülməmişdir]. [Qarabəyli] Qara bəyin "Hökumət gözlədiyimizi vermədiyinə görə etimad etməyiriz" – deməsinə qarşı yoldaşımız Əbilov söylədi ki, hökuməti düşürməklə dərdə çarə olmaz. Hər bir işimizi Parlaman həll etməlidir. Fəqət, dövlət, məmləkət və əkinçinin hüququnu müdafiə edəcək iqdamatı [addımları] bu Parlamandan gözləmək əbəsdir. Lakin ümidvarız ki, bu yaxında dəvət olunacaq Azərbaycan Məclisi-Müəssisanına həqiqi xalq nümayəndələri cəlb olunacaq və onlar vasitəsilə əsaslı bir xalq hökuməti qurulub Azərbaycan yaşayacaqdır. O vaxtadək demokratik bir hökumət təsəvvürü qeyri-mümkündür. Lakin yenə dərdimizə bir çarə etmək üçün firqəmiz qərar qoydu ki, hökumətlə bərabər Parlamanda dəxi işləyib öylə fövqəladə tədbirlər görsün ki, hökumətə bir kömək olsun.

Hökumət namından [adından] Daxiliyyə naziri buyurdu ki, rüşvət alan xain məmurlar məhkəməyə verilib cəzalanacaqlardır. Fəqət, bu vaxtadək bir məmurun həbs edilərək cəzalandığını görmədik. Deməli, hazırda mövcud olan məhkəmə qanunları kifayət etməyir. Ona görə bir Ali Məhkəmə (Tribunal) qurulmalı ki, bütün möhtəkirlər, xainlər bu Ali Məhkəməyə verilərək cəzalansınlar, hətta lazım görülsə, bütün əmlakını da əlindən almağa səlahiyyətdar olsun. Yoxsa, şimdiki məhkəmələrə veriləcək olsalar, xainlər Azərbaycandan çıxıb Gürcüstan, Ermənistan və sair məmləkətlərə gedərək qanundan qaça bilərlər. Bunun önünü ancaq o Ali Tribunal vasitəsi ilə almaq mümkündür ki, bu da yalnız bizdə deyil, başqa məmləkətlərdə də var. Bütün bu işləri ətraflıca təftiş etmək üçün ikinci Parlaman komisyonu dəxi təşkil olunmalıdır. İştə bu surətlədir ki, tamamilə də olmasa əhval bir qədər bəlkə düzəlib Azərbaycan xalqı və kəndlisi üçün rahatlıq ola. *(Soldan alqış)*

**Aslan bəy Qardaşov** (Əhrar) - Bizim dünkü sözlərimizdə hökumətin izahatını kafi görmədiyimiz, bizim hökuməti yıxmaq arzusunda olduğumuzdan nəşət etməyib, verilən izahatın doğrudan-doğruya kafi olmamasından irəli gəlmişdir və bir də hökumət əzaları ilə bizim qərəzi-şəxsimiz [şəxsi qərəzimiz] olmadığı ilə bərabər kabinəyə bu halda daxil olmaq arzusunu dəxi etməyiriz.

Fəqət, biz onu istəyiriz ki, hökumətimizin əsası ədalət, haqqaniyyət üzrə təsis edilsin. Bu əsassızlıq üzündəndir ki, hökumət idarələrində böyük səhv və xətalar və xəyanətlər sadir olmaqdadır [baş verməkdədir]. Biz çox şad olardıq ki, hökumət özü sorğudan əvvəl bu xəyanətlərin önünü alaydı.

Bu qədər xəyanətlərə hökumətin göz yumması, barmaq arasından baxması təəccüb olunacaq bir şeydir.

Bir para natiqlər bu cür xəyanətlərin önünü almaq üçün tez bir zamanda Məclisi-Müəssisan çağırılması təklifatında bulundular.

Cavab olaraq mən onu demək istəyirəm ki, hal böylə davam edərsə, Məclisi-Müəssisanın çağırılması da mümkün olmaz. Biz xəyanət ismini, doğruluğu ilə məşhur olan Yollar nazirinin ağzından bu gün eşitdik. "Müsavat" fraksiyasının rəisi Rəsulzadə cənabları dünkü qaynar nitqində "Hökumətin səhv və xətaları olmaq mümkündür" deyir. Əcəba, nə cür səhv və xətadır ki, uzun bir müddət davam edir. Nə tühəf bir səhvdir ki, Bakı milyonçusuna, İran konsuluna 10 minlərlə verilən bezin bir arşını da olsun möhtacinə [ehtiyacı olanlara, möhtaclara] verilməyir. "Müsavat" rəisi nə üçün bu kimi şeylərə xəyanət deməyib səhv ismi verir?

Hökumətin verdiyi bəyanat bizi razı salmadı, zənn edirəm bu bəyanat "Müsavat"ı dəxi razı sala bilməz.

Biz "Əhrar" fraksiyası əvvəlki etimadımızı geri alırıq. Mahəza [bununla bərabər] fövqəladə bir komisyonun təşəkkülündə, sosialist fraksiyalarına iştirak edəriz ki, bəlkə işlər bir növ yolunda gedər.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

* Tərtərdən Rəisi-vükəla [Baş nazir] namına işbu məzmunda bir teleqram gəlmişdir:

*"Cavanşir qəzası əhalisi yeni təyin edilmiş general-qubernatoru məmnuniyyətlə pişvaz edərək [qarşılayaraq] öz hökumətlərinə millət uğrunda çalışmaqlarından dolayı rizaməndlik izhar edir [razılığını bildirir]. Əhali öz gənc cümhuriyyəti uğrunda lazım gələ biləcək bütün fədaiyyətdən [fədakarlıqdan] çəkinməyəcəklərini izhar edirlər.*

*Nümayəndələr:*
*İsmayılov, Muradxanov,*
*Qayıbov, Hacıyev"*

* Ağdamdan Rəisi-vükəla namına alınan teleqramın surəti:

Yeni general-qubernatorun təyini əhali tərəfindən məmnuniyyət və rizaməndliklə qarşılanmışdır. Yevlaxdan Ağdamadək bütün yolda Məclisi-Məbusan və Hökumət şərəfinə nümayiş olmuşdur. Yüzlərlə süvarilər bizim arabalarımızı yol uzaq edirdi [müşayiət edirdi]. Cümə günü Şuşa şəhərində qəza qaimməqamları [qəza rəisləri] və millət xadimləri müşavirəsi dəvət edilmişdir. Burada idarə barəsində müzakiratda bulun[ul]muşdur. Əlbəttə ki, müşavirə nəticəsi xüsusi hökumət deklarasiyasında elam ediləcəkdir [bildiriləcəkdir].

* [Rəisi-vükəlanın, süvari qoşunları nizamnaməsinin] türk lisanında olmasının təsdiqi haqqındakı məruzəsindən sonra qət edilmişdir: Komandanın [əmrlərin] türkcə olması təsdiq olunsun.

* Rəisi-vükəlanın Azərbaycan ordusu uniforması haqqındakı məruzəsindən sonra qət edilmişdir: Hərbiyyə Nəzarəti tərəfindən pişnihad [təqdim] edilən Azərbaycan ordusu uniforması təsdiq edilsin.

* Maliyyə Nəzarətinin aparılacaq çiyid gömrüyünü azaltmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir: Ticarət və Sənaye Nəzarətinə tapşırılsın ki, Maliyyə Nəzarəti ilə bərabər Gəncə yağ zavodunun qüvveyi-istehsaliyyəsini və habelə ehtiyat miqdarını və artıq qalacaq toxumun miqdarını müəyyən etsinlər.

* Şuşa general-qubernatorundan işbu məzmunda bir teleqraf alınmışdır:

*"Bu gün 12 şubatda [fevralda] Şuşa şəhərinə varid olub [gəlib] öz vəzifəm ifasına şüru etdim [başladım].*

*Gəncə quberniyası müvəqqəti*
*general-qubernatoru: Sultanov"*

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri müavininin beynəddəvair [idarələrarası] bir komisyon təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir: Maliyyə Nəzarətinə tapşırılsın ki, bütün dövləti idarələrdən birər nümayəndə olmaq üzrə bir beynəddəvair komisyon təşkilinə başlasın. Komisyon iki həftəyədək komisyona olan nəzəriyyatını hökumətə bəyan və təqdim etməlidir.

* Daxiliyyə nazirinin təhti-idarəsində [idarəsi altında] olan qulluqçuların məvaciblərini artırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir: Nazirin məruzəsi təsvib edilir [bəyənilir] və tapşırılır ki, təsdiq edilmək üçün Parlamana idxal edilsin.

## SÜLH ƏTRAFINDA

**(Royter acentəliyindən)**

**Vilsonun əziməti**

Rəisi-cümhur Vilson fevralın 14-də axşam Parisi tərklə Amerikaya əzimət edəcəkmiş [gedəcəkmiş].

**Suriya istiqlaliyyəti**

Sülh Konfransı komitəsi Suriyanın tələbatı haqqında Çakri Qanemin məruzəsini dinləmişdir. Çakri Qanem ətraf ərəb tayfaları üçün Suriya istiqlaliyyəti tələb edir. Suriyanın istiqlaliyyəti etiraf [qəbul] edildiyi təqdirdə, Suriya öz nəşvü-nümasının [tərəqqisinin] əla dərəcədə olmasına baxmayaraq istibdad altından azad edildiyi zamanda mehriban və dostluq müavinətinə möhtac olacaqdır. Çakri Qanem Sülh Konfransından xahiş etmişdir ki, Suriyanın qeydini öz öhdəsinə alıb müavinət göstərsin.

* Paris - Hicaz kralının oğlu əmir Faysal Hicaz krallığı tərəfindən Sülh Konfransına nümayəndə təyini barəsində atasından dəsturüləməl [təlimat] gözləyir. Acudan [adyutant] sifətilə əmiri müşayiət edən polkovnik Laurens zənn edir ki, əmir Faysal özü krallıq tərəfindən birinci nümayəndə olacaqdır ki, Böyük Ərəb Federasyonu Dövləti layihəsi tərtib versin. Layihə konfransa idxal ediləcəkdir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 17 fevral (Bazar ertəsi günü) tarixli 115-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Cəmiyyəti-Əqvam**

Sesil Müttəfiqlər mətbuatına xəbər verir ki, Almaniya, Avstriya, Bolqariya və Türkiyə hal-hazırda Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxıla bilməzlər. Bütün cahan millətləri cərgəsinə girməyə ləyaqətlərini ibraz [nümayiş etdirdikdən] və etimada məzhər [nail] olduqlarını göstərdikdən sonra bunlar da Cəmiyyəti-Əqvama buraxılacaqdırlar. Almaniyada hal-hazırda davam edən başsızlıq bərtərəf edilməyincə [aradan qaldırılmayınca] və həqiqi hökumət görünməyincə və öz əqidəsini dəyişmədikcə etibara məzhər olammaz. O ki qaldı Avstriyaya, o da etibara məzhər olan hökumət təşkil etməlidir; olarsa onları Cəmiyyəti-Əqvama buraxmamağa heç bir əsas qalmaz. Türkiyənin ərazi məsələsi konfransda həll edilməyincə, Türkiyənin iclasa buraxılması müşkül məsələdir. Bolqariya Balkaniya tamahından əl çəkəcəyi təqdirdə Cəmiyyəti-Əqvama buraxılacaqdır.

* "Tayms" qəzetəsinə Berndən verilən xəbərlərə nəzərən, qraf Rantsau və Şeydeman Ümumi Süh Konfransına Almaniya tərəfindən nümayəndə göndəriləcəkdirlər.

## TELEQRAF XƏBƏRLƏRİ

**Alman sualtı qayıqları**

Alman sualtı qayıqları Birja acentəliyinin teleqrafına görə fevralın 7-sində Kildən Harviçə gəlmişlərdir. Almanlar izhar etmişlər ki, burada sualtı qayıqlarından ikisi qərq edilmişdir.

**Almaniyada tətil**

Mulhaymda olan dəmiryol mövqifi [stansiyası] Spartak əsgərləri tərəfindən işğal edildiyinə görə, poçta və dəmiryol xidmətçiləri tətil etmişlərdir.

**Berlində**

Berlində asayişi müdafiə edən qvardiya firqəsi iğtişaşı yatırmaq üçün hər cür tədbirlər ittixaz etməkdədir [tədbirlər görməktədir]. Küçələrdə və meydanlarda əsgərlər qoyulmuşdur. Fabrika və zavodlar açıq olub dövlət əsgərləri tərəfindən mühafizə edilməkdədirlər.

* Bremen şəhəri hal-hazırda dövlət əsgərləri tərəfindən zəbt edilmişdir. Şəhər xarabazar halındadır. Birja artıq dərəcədə xəsarətlənmişdir.

**Radekin həbsi**

"Volf" acentəliyi xəbər verir ki, fevralın 7-sində Radek öz evində həbs edilmişdir. Burada Radek bütün Almaniyaya təşviqat nəşr edirmiş. Külli miqdarda para və mühüm sənədlər müsadirə edilmişdir.

**Axıskada**

Tiflisdə müntəşir [nəşr olunan] "Borba" qəzetəsi yazır: Mövsuq [mötəbər] mənbədən xəbər verilir ki, Axıska mahalında Gürcüstan Hökumətinə qarşı iki alay müntəzəm qoşun çıxış yapmışdır. Saldatlar arasında bir çox əsgərlər vardır. Bu qüvvələri türk zabitləri idarə edir. Bundan maəda [başqa], onların cərgəsində ruslar və erməni afiserləri də vardır.

## QƏZETƏLƏRDƏN

**Kizlyar rayonunda müharibələr**

Hal-hazırda Tersk bolşevik qüvvələri Kizlyar və ətrafına cəm olunmaqdadırlar. Ələlümdə [başlıca olaraq] 11 və 12-nci Qırmızı ordu əsgərlərinin qalanı cəm olmuşlardır. Kizlyar özü müdafiəyə hazırlanır. Çünki Könüllü ordu dəstələrinin hücumu gəldikcə şiddət etməkdədir. Kizlyar rayonu bolşeviklərdən ötrü xeyli mühümdür. Çünki Həştərxan vasitəsilə Kaspi dəryası [Xəzər dənizi] Rusiya ilə tək bir münasibat [əlaqə] yoludur. Həştərxandan bolşeviklər canlı qüvvə və mühimmat [silah-sursat] almaqdadırlar. Kaspi dəryası Bakı donanması tərəfindən mühafizə edilirsə də bu donanmanın o qədər qüvvəti yoxdur ki, Kaspi sahilini mühafizə edə bilsin. Bu yaxınlarda bolşeviklər bir böyük sihhiyyə paraxodunda öz yaralı və naxoş əsgərlərini Həştərxana göndərmək istəmişlər. Lakin bu paraxod Bakı donanması tərəfindən tutulub Şamilqalaya (Petrovsk) gətirilmişdir.

* Bir dəstə vladiqafqazlılar Vladiqafqaz tərəfdə nələr vaqe olduğunu bilməkdən ötrü Kazbekə avtomobil göndərmişlər. Yollarda böyük qar olduğuna görə avtomobil Mletdən qayıtmışdır.

**Müharibələrin dayandırılması tədbirləri**

Gürcüstan Hökuməti nəzdində olan Dağıstan Hökuməti nümayəndəsinin verdiyi məlumata görə, İngiltərə komandanlığı Tersk oblastında müharibələrin dayanması üçün bir çox tədbirlər görməkdədir. Yenə həman məlumata görə, hal-hazırda Dağıstan Hökuməti ilə Könüllü ordu komandanlığı arasında münasibat bərpa edilmişdir.

**Soçinin işğalı haqqında**

Tiflisdə alınan məlumata görə, Soçi nahiyəsinin general Bruneviç dəstələri tərəfindən işğalı xudsəranə [özbaşına] bir surətdə olmuşdur. Çünki bu hücum Könüllü ordu Baş komandanlığından bixəbər edilmişdir. Hər halda əvvəlcədən sabiq vəziyyəti bərpa etmək üçün Soçi nahiyəsinə gürcü əsgərləri göndərilmişdir. İngiltərə heyəti nümayəndəsi Uayt bu barədə müəyyən iqdamatda [təşəbbüsdə] bulunmaqdadır.

## TƏTİL GÜNLƏRİNİN MÜHÜM XƏBƏRLƏRİ

**İsveçrədə üsyan**

İsveçrənin bir neçə şəhərində aclıqdan üsyan əmələ gəlmişdir. Bir neçə mağazalar qarət edilmişdir.

**Vəhib paşa və Hüseyin Cahidin edamı**

İstanbul - Qulluq işlərində xəyanət etdikləri üçün Qafqaziyada olan Türk qoşunlarının sabiq komandanı Vəhib paşa ilə "Tənin" qəzetəsinin müdiri "İttihad-Tərəqqi" firqəsinin başçısı və Türkiyə Məclisi-Məbusanının üzvü Hüseyin Cahid atılmaqla edam edilmişlərdir.

**Könüllü ordunun inquşlara ultimatumu**

Yekşənbə [bazar] günü axşam saat 9-da Qazıbəydən xətti-müstəqimlə [birbaşa] xəbər verilir ki, Könüllü ordu dəstəsi Beslan mövqifinin [stansiyasının] 10 verstliyində olan inquşların Dolaqovo adlı kəndinə yaxınlaşıb İnquş Milli Şurasına bu məzmunda bir ultimatum təqdim etmişlərdir:

1) İnquş əhalisi tərk-silahla bütün silahlarını Könüllü dəstələrə verməlidir.

2) Şura Hökuməti tərəfdarları və Qırmızı qoşun cərgəsində iştirak edən inquşlar Könüllü qoşun ixtiyarına verilməlidir.

3) Könüllü ordu İnquşistan torpağından Qroznıya bilamümaniət [maneəsiz] buraxılmalıdırlar.

4) İnqilab zamanında kazaklara verilən bütün xəsarəti inquş millәti verməlidir.

5) İnquş milləti 18 yaşından 40 sinninədək [yaşınadək] adamların səfərbərliyə dəvət edilib də içəri Rusiyaya bolşeviklərlə mübarizədən ötrü [göndərilməsinə] razı olmalıdır.

6) İnquş milləti Tersk oblasta kazakdan general-qubernator təyin edilməsinə riza verməlidir.

Ultimatum üçün 10 saat vaxt qoyulmuşdur. İnquş Milli Şurası bu utimatumu müzakirə etdikdən sonra qəti surətdə rədd eyləmişdir. Nəhayət Könüllü ordu kəndə hücum eyləmiş, fəqət müvəffəqiyyəti olmamışdır. Üç dəfə təkrar edən bu hücumda hər iki tərəfdən külli tələfat verilmişdir. Axırda kənd Könüllülər tərəfindən mühasirə edilib od vurulmuşdur. Hal-hazırda müharibə davam edir.

**Fransada bolşeviklər**

Paris - Bir çox fransız saldat və afiserlərindən bolşevik intibahnamələri və kitabçaları tapılmışdır. Hökumət bu işdən artıq dərəcə həyəcana düşmüşdür. Hətta, bolşeviklikdə ittiham edilən bir neçə şübhəli alaylar qaravul altına alınmışlardır.

**Könüllü ordunun ricəti [geri çəkilməsi]**

Tiflis - Gürcüstan Hərbiyyə nazirinin məlumati-rəsmiyyəsi [rəsmi məlumatı]: Qvardiya ərkani-hərb [qərargah] naçalniki böylə məlumat verir:

Könüllü qoşunlar Adlerdən sübh vaxtı hərəkət etmişlərdir. Bizim səngərdə olan ermənilər düşmənlərimizin tərəfinə keçib bizimlə müharibə edirlər. Bizimlə düşmən süvarisi arasında müharibə gedir. Yalnız bir at gəbərmişdir. Könüllü dəstəsi məğlub olub Batum tərəfə qaçır.

## BAKI XƏBƏRLƏRİ

**Üskü münasibətilə**

Novruz baramı yaxlaşır. Üskülər gəlir. Bu münasibətlə adəta hər il və həmişə səşənbə [çərşənbə axşamı] günləri müsəlmanlar güllə atarlar. Əlbət ki, bu bir adətdir. Bayram axşamları atarlar. Fəqət bu saat hamı bilir ki, adi zamanlar deyildir. Adəti şeyləri adi zamanlarda edirlər. Şimdiki adi zaman deyil. Müsəlman qardaşlara təklif olunur ki, üskü axşamları güllə atıb xalqı narahat etməsinlər. Əgər güllə atılsa, hökumət dəxi şiddətli tədbirlər görməyə məcbur olar. Camaat bilməlidir ki, bədxahlar adətən böylə hərəkətlərdən istifadə edirlər. Camaatımız bu işlərə məhəl [yer, imkan] verməməlidir.

**Güllə atanların həbsi**

Məlum olduğu üzrə hər gecə şəhərin müxtəlif yerlərində güllələr atılır. Şəhərdə böylə şeylər qadağan olduğundan güllə atanlar təqib edilib, 10 nəfərədək tutulub məhkəməyə verilmiş və hərəsi iki il həbsə məhkum edilmişdir. Məhbusların içərisində bir neçəsi milis nəfəratındandır.

**Müsəlman ziyalılarının yığıncağı**

Şənbə günü fevralın 15-ində axşam Bələdiyyə Məclisinin zalında Bakı və ətrafı müsəlman ziyalılarının yığıncağı vaqe oldu. Yığıncaqda təqribən 200-dək adam var idi. Bu cümlədən bir çox müsəlman xanımları hazır idilər. Məclis saat 7 radələrində açılıb əksəriyyəti-ara [səs çoxluğu] ilə sədarətə Mehdi bəy Hacıbababəyov, katibliyə Ağalar bəy Mahmudbəyov seçilirlər. Sədr bugünkü yığıncaqdan məqsəd nə olduğunu müxtəsərən söyləyib Bakı və ətrafının müsəlman ziyalılarını ittihada [birliyə] dəvət edərək heyəti-mütəşəbbisə [təşəbbüskarlar heyəti] tərəfindən nizamnaməsi tərtib edilmiş olan "Bakı müsəlman zəhmətkeş ziyalılarının ittifaqı"nın təşkil edilməsini təklif edir. Sədrdən sonra heyəti-mütəşəbbisə əzasından [üzvlərindən] Cəmil bəy Vəzirov ittifaqın məqsəd və amalı haqqında bəyanat verərək Azərbaycanın keçirməkdə olduğu təhlükəli vaxtlara məclisin diqqətini cəlb edir. Hökumətin və Məclisi-Məbusanın fəaliyyətindən danışaraq məruzəçi əfəndi istər məclis və istərsə hökumətdə, vəzifəsini düşünüb onu lazımi dərəcədə ifa edən üzvlər olmadığını qeydlə ümum müsəlman ziyalılarını fəaliyyətə dəvət edərək təşkilat yapmaqla Azərbaycan istiqlaliyyəti uğrunda çalışmaq və ona xidmət edib ətrafdan gələn hər dürlü xətrədən [təhlükədən] müdafiə etməyi vacib bilir.

Məruzədən sonra ittifaqın məramnaməsi oxunur. İttifaqın ümdə məqsədi məktəb, müzəxana [muzey] açmaq, kurslar, mühazirələr tərtib etmək, sənaət [sənaye] və ticarətə xidmət edərək bunun üçün lazımi təşəbbüsatda bulunmaq və ələlxüsus Qafqaziya millətləri arasında münasibati-dostanə peyda və bərqərar [etmək] olduğu anlaşılır.

Məclis, ittifaqın – "Bakı və ətrafı müsəlman zəhmətkeş ziyalılarının ittifaqı" adlanmasına qərar verir. Məramnamə maddəbəmaddə oxunub qəbul olduqdan sonra seçkilərə şüru olunur [başlanır].

Heyəti-mütəşəbbisə siyahısı üzərinə 12 adam heyəti-idarəyə (şuraya) və 6 nəfər onlara namizəd seçilirlər.

Ələlümum seçilənlər bunlardır:
1) Ağalar bəy Mahmudbəyov;
2) Camo bəy Cəbrayılbəyov;
3) Mehdi bəy Hacıbababəyov;
4) Axundov Rəhim;
5) Ağa Axundov;
6) Əli Seyidov;
7) Əhmədəli Xasov;
8) Lətif Mahmudbəyov;
9) Sadiq Hüseynov;
10) Vəzirov Cəmil bəy;
11) Əliməhəmməd Mustafayev;
12) Qayıbov Məhəmmədağa.

Namizədliyə:
1) Əhmədbəyov Zivər bəy;
2) Əhmədbəyov Kərim bəy;
3) Bayraməlibəyov Teymur bəy;
4) Qədir Heydərov;
5) Baba bəy Səfərəlibəyov;
6) Abdulla bəy Abaşidze.

## ƏRZAQ İŞLƏRİ

- Ərzaq Nəzarəti Məsai [Əmək] Nəzarətinə yazır ki, məvaciblərin artması ilə əlaqədar olaraq birinci zəruri şeylərin bahalanması ilə mübarizə etməkdən ötrü Ərzaq Nəzarəti sizin təsəvvüratınıza şərik olaraq birinci zəruri şeylərin bazarda kifayət qədəri olmasından əlavə qiymətlərin azalmasına çalışmaqdadır. Bundan ötrü də ucuz qiymətlə bazara şey çıxarmalıdır. Ərzaq Nəzarəti buna nail olmaqdan ötrü hər cür tədbirlər ittixaz edib [tədbirlər görüb], mal gətirilməsindən ötrü bir çox adamlarla müqavilənamə bağlayıb və bağlamaqdadır. Bundan əlavə, Ərzaq Nəzarəti birinci zəruri şeylər almaqdan ötrü Kubana və cənubi Rusiyaya öz vəkillərini göndərməkdədir. Lakin hal-hazırda dəmiryolda nəqliyyat işləri qeyri-müntəzəm olduğundan bu tədbirlər iki-üç aydan tez olmaz. Su nəqliyyatı da büsbütün Müttəfiq komandanlığı əlində olduğundan, başqa müəssisə və şəxslər ixtiyarına verilmir. Bunlardan əlavə, gətiriləcək malların təzə təşkil olunmuş dövlətlərdən keçirilib gətirilməsi təxirə düşüb bəzən bilkülliyyə buraxılmır. Burasını da nəzərə almalıdır ki, Ərzaq Nəzarəti ancaq həqiqi bir surətdə bu il yanvar ayından davam etməyə başlamışdır. Hər halda Ərzaq Nəzarəti məmləkətin kasıb əhalisini ucuz qiymətlə külli miqdarda birinci zəruri şeylərdən təmin etməyə ciddi surətdə çalışmaqdadır.

- Ərzaq Nəzarəti İran konsuluna yazmışdır ki, konsulxana tərəfindən göstərilən adres ilə kəşf edilmiş dəri malların siyahısı üçün Ərzaq Nəzarəti tərəfindən acentə göndərilmişdir. Lakin bu mallar acentə tərəfindən siyahı edilməmişdir. Çünki, aşkar olmuşdur ki, göstərilən anbar A. S. Yefimova mütəəlliqdir [məxsusdur] və anbarda olan malları saldat çəkməsi tikməkdən ötrü Qafqaziya ordusu anbarından almaqdadır. Konsulxana bu malların nə cür vasitə ilə həman anbarda olmasını bilavasitə Qafqaziya ordusu idarəsindən xəbər almalıdır.

- Ərzaq Nəzarəti dəmiryol mövqifi [stansiyası] naçalnikindən xahiş edir binagüzarlıq [sərəncam] verilsin ki, Çornı-qorodda "Yakor və Vira" zavodundan təcili surətdə 7 vaqon neft çıxarılıb Gürcüstan təriqi [yolu] ilə Azərbaycan Ərzaq Nəzarəti adına Batuma göndərilsin.

- Ərzaq Nəzarəti Azərbaycan dəmiryolları naçalnikindən üçüncü dəfə xahiş edir, binagüzarlıq edilsin ki, Çornı-qorodda "Yakor və Vira" zavoduna tezliklə 15 dənə örtülü vaqon verilsin.

- Batuma aparılan neftləri müşayiət etməkdən ötrü Ərzaq Nəzarəti tərəfindən S. S. Vonsoviç göndərilir.

- Ərzaq Nəzarətinin ümumi şöbə müdiri Vasili Sergeyeviç Popov Azərbaycan Hökumət idarələri xidmətçilərinin məvacibləri artması məsələsinə baxacaq beynəddəvair [idarələrarası] komisyona Ərzaq Nəzarəti tərəfindən nümayəndə göndərilir.

- Ərzaq Nəzarəti Daxiliyyə Nəzarətinə yazır ki, əhalinin kasıb sinfinə əlverişli qiymətlə lazımi ərzaq şeyləri buraxmaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən Bakı şəhərində dükanlar açılır. Bu dükanlar üçün Ərzaq Nəzarəti 5-inci Qanlıtəpə və Stanislav küçələri küncündə Atabəyovun 88-inci nömrəli və Şamaxı yolunda Hacıyevin evində olan yerləri nəzərə almışdır. Buna görə, Ərzaq Nəzarəti sizdən xahiş edir ki, həman dükanların həcz [müsadirə] edilməsi üçün binagüzarlıqda bulunasınız [sərəncam verəsiniz].

- Ərzaq Nəzarəti Səhhəti-Ümumiyyə Nəzarətinə [Səhiyyə Nazirliyinə] yazır ki: Hökumət müəssisələrində olan xidmətçilər üçün "Kooperatsiya" istehlak cəmiyyətindən kooperatsiya qiyməti ilə şeylər və mallar almaq imkanı vardır. Bu şeylər hamısı Nəzarət hesabına alınıb xidmətçilərə paylandıqdan sonra qiyməti məvaciblərdən saxlanacaqdır. Ərzaq Nəzarəti kooperatsiyada olan şeylərin surətini Səhhəti-Ümumiyyə Nəzarətinə göndərib Nəzarətdə olan xidmətçilərin siyahısını və istədikləri şeyin nə miqdarda olmasını yazıb göstərməyi xahiş edir.

- Ərzaq Nəzarəti, Müttəfiq dövlət polisəsi komissarı Kokerellə yazır ki, Skobelev qardaşları dəyirmanı anbarlarından biri İngiltərə komandanlığı ehtiyacı üçün tərəfinizdən zəbt edilmişdir. Bu bina əvvəlcədən Biçeraxovun partizan dəstəsinin qarajı üçün zəbt edilmiş idi. Hal-hazırda bu yer Biçeraxov tərəfindən boşa[l]dılmışdır. Skobelev qardaşları dəyirmanı Ərzaq Nəzarətinin ehtiyacatı üçün işlədiyindən və bu dəyirman anbarlarında Ərzaq Nəzarətinə mütəəlliq [məxsus] bir çox buğda və un olduğundan, Ərzaq Nəzarəti həman yerin tərəfinizdən zəbt edilməməsini xahiş edir.

## AZƏRBAYCANDA

**Göyçaydan**

Azərbaycan Cümhuriyyətinin elanından sonra xalq demokratiya sinfi bir az nəfəs almağa başladılar, çobansız sürü kimi olmadıqlarını anladılar. Hampaların [qoluzorluların] əllərindən bizar olan uyezdin [qəzanın] füqəra əkinçiləri lazım gələn yerlərə müraciət edib haqlarında rəva görülən bunca müsibəti qarət və yağmaçıların haqqında qanunən icra ediləcəyini ümid eylədilər. Lakin minlərlə put buğdaların, türklər zamanında toplanan azuqənin satıldığını və bir-iki nəfərin cibinə girdiyini görən əhali fəğanlar içində qaldığı kimi, gedən komisyonlar dəxi bütün təhqiqatı yapma içində saxlayırlar.

Ərzaq idarələrində olan sui-istemal [sui-istifadələr] məlum olduğu halda, Ərzaq Nəzarəti tərəfindən bu xüsusda tədbir hələ yoxdur. Bu ilki qarqaşalıq nəticəsi olaraq dağılmış, məhv olmuş Göyçay uyezdinin bir hissəsinin vəkili bir aydan çoxdur ki, çılpaq camaata bez və çit almaq üçün Bakıya gəldiyi halda hənuz bir şeyə müvəffəq olmadığını bildirir. Səbə-bitəəccübdür [təəccüb səbəbidir] ki, həqiqi camaat vəkilləri aylarca Bakıda yatırlar, xərcləyirlər, heç bir şeyə müvəffəq olmayırlar. Ancaq möhtərəm Şamaxı vəkili Əfəndiyev Şamaxı üçün on beş gün zərfində bez alıb həman bezi də Göyçayda satmağa müvəffəq olur. Bu bir sirrdir ki, bilməyə çarə yoxdur.

Yollarımız inqilabdan sonra bərbad bir haldadır. Neçə dəfələr lazım gələn yerlərə müraciət edilmişsə də, hələ heç bir nəticə verməmişdir.

Camaat arasında xəstəlik hökmfərmadır [hökm sürməkdədir]. Əlac [dərman] tapılmayır, doktor isə hakəza [habelə].

Kəndlərdəki məktəblər qapanmış, kənd və şəhər məktəblərinin müəllimləri isə maaşsız keçinirlər. Beş yüz manat alan bir müəllimdən nə gözlənir. Bir ailə beş yüz manatla keç[in]ərmi!

Polisə təşkilatı təzədən düzəlmişdir. Fəal Xankişi bəy gəlmişdir. Əvvəldən olan üsulsuzluğu bərhəm edəcəyini [düzəldəcəyini] ümid edirik. Posta və teleqraf idarələri isə, yuxarıda ərz etdiyim kimi, yolun xarab olmasından qaydaya düşməmişdir. Göyçayda əvvəlcə təşkil edilmiş bir neçə kooperatif şirkətlərində əzalardan [üzvlərdən] bəziləri tərəfindən fürsətdən bilistifadə sui-istemalat [sui-istifadələr] olmuşdur. Bu xüsusda qələyan edən [qaynayan] camaatın haqqını təmin etməyi təzə naçalnikimizdən gözləriz.

Hökumətimizdən təkidlə təvəqqe edirik ki, ayaq altında qalmış olan camaatımız ehtiyacı üçün bir çareyi-acil [təcili çarə] olaraq bir heyəti-sihhiyyə ilə [səhiyyə heyəti ilə] əlac [dərman] və sairə göndərmək surəti ilə bir az təsəlli versinlər.

*M. Şünasi*

## GÜRCÜSTANDA

**General Şatilovun vəfatı**

Sabiq Tiflis sərdarının müavini və Şurayi-Dövlət üzvü general [Nikolay Pavloviç] Şatilov fevralın 9-unda Tiflisdə fəciətən [faciəvi surətdə] vəfat etmişdir.

**İngilis əsgərləri**

Fevralın 10-unda Tiflisdən Naxçıvana topxana ilə külli miqdarda ingilis əsgərləri yola düşmüşdür.

**General-qubernatorun əmri**

Tiflisdə birinci zəruri şeylərin məzənnədən yuxarı satılması qadağan edilir. General-qubernatorun bu barədə verdiyi icbari qərardadını xələldar edənlər 1 il 6 ay həbsxanaya [salınacaq] və ya 10 min manat cərimə ediləcəklər.

**Batumda**

* Fevralın 5-ində Kobuletidə böyük mitinq vaqe olub, muxtariyyətli bir surətdə Gürcüstana yapışmaq arzusu izhar edilmişdir. Bu ədalətli tələbatı müdafiə etməkdən ötrü həmin təkliflə acaralılara müraciət edilmişdir. Gürcüstan Hökuməti nümayəndəsi Paqava Batuma varid olmuşdur [gəlmişdir]. Müşarunileyhə [adı çəkilən şəxsə] həvalə olunmuşdur ki, Gürcü Milli Şurasının qərarına görə Batumda gürcü gimnaziyası açsın. Dərslərin bu həftə başlanacağı ümid olunur. Gürcü və gürcü müsəlmanları cəmiyyəti-xeyriyyələri birləşib "Müsəlman Gürcüstanın Cəmiyyəti-Xeyriyyəsi" təşkil etmişlərdir. Cəmiyyəti-xeyriyyə idarəsinə 3 gürcü və 6 gürcü müsəlman daxil olmuşdur.

* İngiltərə konsulu Stivens Batuma varid olmuşdur. Fon Kress başda olmaq üzrə Gürcüstandan övdət edən [qayıdan] Almaniya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] beş gündür ki, Batumdadır. Həmin heyət ingilislər tərəfindən İstanbul təriqi [yolu] ilə yola salınacaqdır. Bundan ötrü də gəmi intizarındadırlar [gözləyirlər].

## AÇIQ MƏKTUB

**Balakənd nahiyəsi əhalisinə**

Nahiyənizdə oğurluq, soyğun və quldurluq kimi bəd əməllərin peyda olduğunu və bundan qayət bizar olduğunuzu bildirən teleqrafınızı təsirlə oxudum.

Həqiqətən islam qardaşlarının yayın qızmar günlərində, tozduman içərisində, qışın adam dondurucu boranlarında min cürə zəhmət və məşəqqətlə qazandıqları halal mallarını əllərində saxlaya bilməmələri, əhli-əyalın və özünün daima qorxu içində bulunmaları hər bir əhli-insafa fəna təsir edəcək bir işdir.

Mən sizi inandırıram, Zaqatala vilayəti, bilxassə [xüsusilə] nahiyəniz haqqında hökumət ciddi tədbirlər görmüşdür. Tez bir zamanda sizi narahat edən bədəfkarlar [canilər] əlindən xilas olub da rifahi-hal üzrə yaşamağınızı və istədiyiniz kimi sərbəst və əmin olaraq gəzə biləcəyinizi təbşir edirəm [muştuluqlayıram].

Kəndli islam qardaşlarımın hər bir cəhətdən işləri düzgün olub rahat yaşamaları arzusunda bulunduğumdan və onların dərdi öz dərdim olduğundan hər bir vaxtda ehtiyacınızı bildirməniz niyaz olunur.

*Zaqatala məbusu:*
*Bayram Niyazi [Kiçikxanov]*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov xırda** heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Контора Агентуры и Комиссии**
**"И. Фани и Ко."** Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
**Agentura və komisyon kantoru**
**İ. Fani və kompaniyası.** Bakı, Serkovnı
küçədə 70 nömrəli evdə.
Telefon nömrəsi 22-28.
Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyuba-kinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bu günün məsələsi***

"Amazasp": "Daşnaksutyum" partiyasının liderlərindən, erməni qatil və terrorist Hamazasp Srvandzyan nəzərdə tutulur.

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Azərbaycan Məclisi-Məbusanında***

"Qəçrəş": qəzetdə "Qəşrəş" getmişdir.

"…putu 10 manatdan olaraq…": qəzetdə "olaraq" yerinə "olan" getmişdir.

"türk şairi Məhməd Əmin bəyin": türk şairi Məhməd Əmin Yurdaqul nəzərdə tutulur.

"Şu istibdad hökuməti…": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"Şu zavallı millət üçün Məşrutiyyət xəyanət…": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"Məşrutiyyət": konstitusiyalı monarxiya.

"tomruq": məhkumun əllərinə və ayaqlarına keçirilib bağlanan iki kötükdən ibarət işgəncə aləti, kündə.

"İştə sizə taşralar ki…": misralar Məhməd Əmin Yurdaqulun "Vətən təhlükədə" adlı şeirindəndir.

"qülübə": daxma; koma.

***Vükəla Şurasında***

"…lazım gələ biləcək bütün fədaiyyətdən çəkinməyəcəklərini…": qəzetdə "fədaiyyət" yerinə "füduiyyət" getmişdir.

"[Rəisi-vükəlanın, süvari qoşunları nizamnaməsinin] türk lisanında olmasının təsdiqi haqqındakı...": Bu xəbər qəzetdə, baş tərəfi əskik olaraq və özündən əvvəlki xəbərə bitişdirilərək verilmişdir (güman ki, arada bir sətir düşmüşdür); bərpa etdik.

***Sülh ətrafında***

"qraf Rantsau": 1919-cu ildə Almaniyanın Xarici İşlər naziri olan Ulrix fon Brokdorf-Rantsau nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"Harviç": qəzetdə rusca tələffüzünə uyğun olaraq "Qarviç" kimi getmişdir.

"Spartak": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat. Ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı.

***Tətil günlərinin mühüm xəbərləri: Vəhib paşa və Hüseyn Cahidin edamı***

Bu xəbər həqiqəti əks etdirmir.

**Ərzaq işləri**

"5-inci Qanlıtəpə": Bakıda, indiki Vladislav Plotnikov küçəsi.

"Stanislav küçəsi": Bakıda, indiki Azadlıq prospekti.

"Bu bina əvvəlcədən Biçeraxovun partizan dəstəsinin qarajı üçün…": qəzetdə "bu bina" yerinə "buna binaən" getmişdir.



# Mədəniyyət



● İctimai xadim

## Böyük turançı - Əli bəy Hüseynzadə

**XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndəsi, yazıçı, publisist, ədəbiyyat tənqidçisi Əli bəy Hüseynzadənin bu il anadan olmasının 160 illiyidir. O, 1864-cü ildə Salyan bölgəsində dünyaya göz açıb. Bir çox müasirləri və silahdaşları kimi onun da həyatı qürbətdə sona çatıb. Bu da dövrün təzadları, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda baş verən olaylarla bağlıdır. Ə.Hüseynzadə 1940-cı il martın 17-də dünyasını İstanbulda dəyişib.**



Əli bəy Hüseyn bəy oğlu Hüseynzadə əsil-nəcabətli bir ailənin övladı idi. Qafqaz Şeyxülislamı Axund Əhməd Səlyaninin qız nəvəsiydi. Şeyxülislam xalq arasında sayılıb-seçilən, müxtəlif elmlərin mahir bilicisi, eyni zamanda imperiya məqamlarında böyük nüfuz sahibi idi. O, 1876-cı ildə "Əkinçi"də çap olunmuş məqalələrində həm ruhaniyyət alimi, həm də dünyəvi elmlərin təəssübkeşi kimi çıxış edirdi. İmperator onu 1881-ci ildə "III dərəcəli müqəddəs Vladimir ordeni" ilə təltif etmişdi.

Çox erkən yaşlarında atasını itirən Əli bəy Hüseynzadə belə kamil, mötəbər bir şəxsiyyətin himayəsi və tərbiyəsi altında böyümüşdü. Ailənin zəngin olması ona mükəmməl təhsil almaq imkanı vermişdi. O, Tiflisdə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin nəzdindəki məktəbdə oxumuş, növbəti ildə birinci şəhər gimnaziyasında təhsil almışdı. Uşaqlıq və tələbəlik illərində türk, fars, ərəb, alman və rus dillərini öyrənmişdir. Gimnaziyanı bitirəndən sonra 1885-ci ildə babasının xeyir-duası ilə Peterburq İmperatorluq Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuş və bu ali məktəbdə təhsilini 1889-cu ildə başa çatdırmışdı. O, həm də Şərq fakültəsində görkəmli professorların mühazirələrini dinləmiş, dövrün məşhur elm xadimləri D.Mendeleyev, Y.Vaqner, N.Menşutkin, V.Jukovski və başqalarından dərs almış, imperiyanın paytaxtında gedən ictimai-siyasi proseslərlə yaxından tanış olmuşdur.

Növbəti il o, daha bir ali məktəbdə - İstanbul Universitetinin Hərbi tibb fakültəsində təhsil almağa başlayır. Həkim diplomu alan Ə.Hüseynzadə İstanbulun Heydərpaşa xəstəxanasında yüzbaşı rütbəsində dermatoloq (dəri xəstəlikləri həkimi) kimi fəaliyyət göstərir. Sonra İstanbul Universitetinin Dəri-zöhrəvi xəstəlikləri kafedrasında müsabiqə yolu ilə professor köməkçisi - dosent vəzifəsinə seçilir.

Ə.Hüseynzadə hələ Peterburqda təhsil aldığı illərdə siyasi dərnəklərdə fəal iştirak edirdi. Sonralar siyasi fəaliyyətini İstanbul Universitetində davam etdirir, tələbə yoldaşları ilə birlikdə Sultan Əbdülhəmidin rejiminə qarşı "İttihad və tərəqqi" partiyasının əsas yaradıcılarından biri olur. Sultan xəfiyyələri tərəfindən təqib edilən Əli bəy 1903-cü ilin əvvəlində Bakıya dönmək məcburiyyətində qalır.

Əli bəy İstanbuldan qayıtdıqdan sonra, hələ siyasi proseslərə qoşulmazdan əvvəl Bakıda bir müddət həkim işləyir, jurnalistika sahəsində çalışır, "Kaspi" və "Baku" qəzetləri ilə əməkdaşlıq edir. 1905-ci ilin aprelində "Ümumrusiya müsəlmanlarının ehtiyaclarına dair" məktubu qraf Vitteyə təqdim etmək üçün Peterburqa göndərilən Rusiyanın müsəlman liderlərindən ibarət 11 nəfərlik heyətdə təmsil olunur, Rusiya Müsəlman İttifaqının gizli şəkildə çağırılmış qurultaylarının işində iştirak edir.

Turançılıq məfkurəsi onun çoxşaxəli fəaliyyətinin təməlində dururdu. Ə.Hüseynzadə türk xalqlarının milli birliyi, müstəqil dövlətçilik fikrini ilk dəfə irəli sürmüş, onun nəzəri əsaslarını işləyib hazırlayaraq güclü ideoloji hərəkata çevrilməsini təmin etmişdir. 1905-ci ildə Əli bəy "Türklər kimdir və kimlərdən ibarətdir" sualını geniş və siyasi müstəvidə qaldırmışdı. Bundan başqa, o, "Həyat" qəzetində və "Füyuzat" məcmuəsində dərc etdirdiyi "Türk dilinin vəzifeyi-mədəniyyəsi", "Məcnun və Leylayi-islam", "Yazımız, dilimiz", "İkinci il", "Siyasəti-Fürusət" məqalələrində ictimai və siyasi fəaliyyətinin məqsəd və məramını açıq şəkildə şərh edirdi.

"Füyuzat"ın 1907-ci ildə çıxan 9-cu sayında o, Turanın hüdudlarını nişan verirdi: "Tulən Mançuriyadan və Sibiryanın əqsayi-şərq şimalında cərəyan edən Lena nəhri sahilindən başlayıb, Altay, Qaraqurum, Pamir, Hindiquş, Qafqaz, Krım dağlarından keçərək, Balkan dağlarının müntəhayi-qərbinə qədər, ərzən Ural dağlarının müntəhayi-şimalından Afrikanın səhrayi-Kəbirinə qədər olan yerlərdə sakin bulunan əhalinin ismi-əzimi türk dili ilə mütəkəllim bulunurlar".

"Məcnun və Leylayi-islam" məqaləsində sağlam Turan imperiyası yaratmaq, orada müsəlman dövlətlərinin mövqeyini müəyyənləşdirmək məsələsi irəli sürülürdü. Əli bəy milli cəmiyyət quruculuğunda müasir insan amilinə böyük əhəmiyyət verirdi.

Ə.Hüseynzadənin jurnalistik və ictimai-siyasi fəaliyyəti bir vəhdət təşkil edirdi.

Beləliklə, 1903-1910-cu illərdə Əli bəy Hüseynzadə xalqımızın tarixinin bu önəmli dövrünün əsas səhifələrini yazdı. Onun fikirləri milli dirçəliş uğrunda mübarizələrin qida mənbəyinə çevrildi, "türkləşmək, islamlaşmaq, müasirləşmək" Azərbaycan Xalq Cümhuriyyətinin atributlarında reallaşdı.

Əli bəy Hüseynzadə 1910-cu ilin sonunda Bakını tərk edir. Abdulla Şaiq yazırdı: "Əli bəy Hüseynzadə və onun tərəfdarları Azərbaycanda özlərinə yer tapa bilmədilər. Yerli qabaqcıl ziyalılar tərəfindən ciddi müqavimətə rast gələrək bir-bir Türkiyəyə qayıtmağa başladılar".

1911-ci il sentyabrın 1-də "Türk yurdu" cəmiyyəti qurulur və Əli bəy cəmiyyətin qurucuları sırasında olur. 1912-ci il iyulun 9-da əslən çərkəz olan zabit Şəmsəddin bəyin qızı Ədhiyə xanımla ailə həyatı qurur.

1918-ci ilin yayında Azərbaycana səfər edir. "Digər mühüm bir səfər də … Federasyondan ayrılıb ayrı bir hökumət halında təşəkkül etməkdə olan Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Gəncəyə (Nuru Paşanın yanına) qədər getməyimizdən ibarətdir". Bu barədə Əli bəy səfərdən qayıdandan sonra "Hilali-Əhmər" qəzetində "Azərbaycanda düşündüklərim" məqaləsində yazmışdı. 1919-1922-ci illərdə Türkiyədə şiddətli təqib edilir. Bu dövrdə iki dəfə həbs olunur. 1926-cı ilin əvvəllərində Ə.Hüseynzadə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda iştirak edir.

1928-ci ildə Əli bəyin fəaliyyətinin başqa - əvvəlkilərdən fərqli bir tərəfi özünü göstərir. O, alim və filosof Adam Smitin "Sərvəti-miləl" əsərini fransızcadan tərcümə edir.

1933-cü ildə Ə.Hüseynzadə Türkiyənin maarif naziri vəzifəsində çalışır. O, həmişə olduğu kimi, 30-cu illərdə də çoxşaxəli fəaliyyətini davam etdirirdi. Lakin tədricən onun səhhətində problemlər yaranır.

Əli bəy Hüseynzadənin mətbuatda dərc olunmuş son yazısı "Afət qarşısında şair, alim və gənclik" şeiri oldu. Şeir Ərzincanda baş vermiş zəlzələyə və Qızılaya həsr edilmişdi. Şeir 1940-cı il yanvarın 15-də "Tan" qəzetində dərc olunmuşdu.

Əli bəy Hüseynzadə geniş yaradıcılıq diapazonuna malik bir alim və yazıçı idi. Bununla yanaşı, o, bir çox sahələrdə - tibdə, fəlsəfədə, tarixdə, siyasətdə, sosiologiyada və digər sahələrdə öz izini qoya bilmişdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Tarixi keçmişimizdən xəbər verən Məmmədbəyli türbəsi

**Bölgələrimizin hamısı bir-birindən gözəldir. Zəngilan rayonu da təbii-coğrafi şəraiti, mədəni irsi, tarixi abidələri ilə seçilən bölgələrimizdən biridir.**



Təəssüflər olsun ki, 1993-cü il oktyabr ayının son günlərində erməni qəsbkarları bu gözəl diyarı da işğala məruz qoymuşdular. Doğma ocaqlarımızı ələ keçirmiş qəsbkarlar təkcə evləri, yaşayış binalarını deyil, tarixi abidələri də dağıdıb yerlə yeksan etmişdilər. Vəhşi xislətli ermənilər bu yerlərdə daşı daş üstə qoymamışdılar. Daşnaklardan geriyə dəhşətli, tükürpərdən səhnələr qalmışdı. Bu torpaqlardan azərbaycanlıların izini silmək üçün hər yeri dağıtmış, yandırmış, viran qoymuşdular.

İşğalın ömrü 30 ilə yaxın çəkdi. 2020-ci il sentyabr ayının 27-də erməni işğalçılarının təxribatı nəticəsində 44 gün davam edən Vətən müharibəsi başladı. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə oktyabrın 20-də Zəngilan rayonunu da işğaldan azad etdi.

Zəngilan azadlığa qovuşduqdan sonra mütəxəssislər tərəfindən rayon ərazisindəki tarix-mədəniyyət abidələrinə baxış keçirilib, onların hazırkı vəziyyəti qeydə alınıb, inventarlaşma aparılıb. Təəssüf ki, işğala məruz qalmış digər ərazilərimiz kimi, Zəngilanda da tarixi abidələrin əksəriyyəti dağıdılıb, vandalizmə məruz qalıb. Elə bir abidə yoxdur ki, erməni işğalından ziyan çəkməsin.

Rayon ərazisində dövlət mühafizəsinə götürülmüş 19 tarix-mədəniyyət abidəsindən 8-i ölkə əhəmiyyətli, 11-i yerli əhəmiyyətli abidələrdir. Bunlardan Səkkizguşəli türbə, Dairəvi qüllə, Qız qalası kimi tarix-memarlıq abidələrini, Şəhri Şərifan kimi arxeoloji abidələrin adlarını qeyd etmək istərdik.

Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən və ölkə əhəmiyyətli abidə kimi qeydə alınan Xacə Yəhya Məhəmməd oğlu türbəsi tikinti formasına görə Səkkizguşəli türbə adı ilə də tanınır. Memarlıq üslubu ilə seçilən türbə 1304-1305-ci illərdə inşa olunub. Türbənin ətrafında Orta əsr qəbiristanlığı yerləşir. Tarixi tikilinin səkkizbucaqlı formada piramidalı günbəzlə tamamlanan divarları xaricdən və daxildən yonulmuş daşla üzlənib. Bu daşlar tarixi abidəyə xüsusi gözəllik verib.

Türbənin mövcud olduğu ərazi kəndin ən hündür yerində yerləşir. Abidənin günbəzi iki qatdan ibarətdir. Daxili günbəz sferik, xarici günbəz isə piramidalı formadadır. 1975-ci ildə yeraltı sahə təmizlənərkən türbənin sərdabəsi üzə çıxıb. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülüb. Orta əsrlərdə belə türbələr feodal əyanlarının və varlı şəxslərin qəbri üstündə ucaldılarmış. Bu, bizə həmin dövrdən qalan qiymətli tarixi abidədir.

Türbənin maraqlı və orijinal kitabəsi var. Kitabə qapı yerindən yuxarı qövsvarı çatılmış bütöv daş üzərində həkk olunub. Ölçüsü 1,45 x 0,90 metrdir. Nəsx xətti ilə yazılmış altı sətirlik ərəbdilli kitabə oyma üsulunda işlənilib. İki sətirdə türbənin Məhəmməd əl-Hacın oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi göstərilib. Müəlliflərin verdiyi məlumata görə, türbənin memarı və bənnası Əli Məcdəddin olub. Araşdırmaçıların fikrincə, Xacə Yəhya Məhəmməd oğlu dövrünün böyük alimlərindən olub.

Onu da qeyd edək ki, işğal dövründə erməni qəsbkarları türbənin bir tərəfini atıcı silahlarla vurub dağıdıblar. Hazırda azad olunmuş ərazilərdə yerləşən tarix-memarlıq abidələrinin bərpa və konservasiya edilməsi istiqamətində müəyyən zəruri işlər həyata keçirilir. İnanırıq ki, başqa tarixi abidələrimiz kimi, Məmmədbəyli türbəsi də bərpa olunaraq əvvəlki görkəminə qaytarılacaq. Gec də olsa, tarixi ədalət öz yerini tapacaq. Sakinlər geri dönəndə başqa tarixi abidələrimiz kimi Səkkizguşəli türbəni də ziyarət edəcəklər. Qaçqınlıq həyatından geri dönən kimi bu tarixi abidə də ömrünün yeni dönəmini yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Tələbə gənclər daha çox ingilisdilli kitablara maraq göstərirlər



Böyük maarifçi Həsən bəy Zərdabi: "Yaxşı kitab çox qiymətli xəzinədir", - deyib. Kitabxanalar həmin dəyərli xəzinənin yalnız toplandığı və saxlandığı yer deyil. Eyni zamanda ondan bəhrələnmək istəyənlərin üz tutacaqları məkandır.

Bu gün bir çoxu oxucuların sayının azalmasından, xüsusilə də gənclərin kitablara marağının qaneedici səviyyədə olmamasından gileylənir. Oxucularının əksəriyyəti tələbə gənclər olan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru Nigar İsmayılova bu məsələdə pessimist olmadığını söyləyir: "Bir şeyi nəzərə almaq lazımdır ki, internetin geniş imkanları artıq ənənəvi kitablara da təsir göstərmişdir. Belə ki, müasir dövrdə internetin zəngin informasiya ehtiyatları ilə yanaşı, kağız kitabları əvəzləyən elektron formatda kitabların, elektron kitabxana və elektron resursların meydana gəlməsi həyatın bütün sahələrinə təsir etməkdədir və qəbul etməliyik ki, bu təsirdən qaçış yoxdur. Amma bütün bunların fonunda yenə də bizim oxucuların kitabxanaya və kitablara olan marağı bizi qane edir".

Qeyd edək ki, BDU-nun Elmi Kitabxanası oxuculara xidmət işinin təşkili, oxucu tələbatının ödənilməsində ali məktəb kitabxanaları arasında ən böyük məlumat-biblioqrafiya aparatına və mükəmməl kataloq sisteminə malik olan kitabxanadır. Elmi Kitabxana Universitetin professor-müəllim heyəti, əməkdaş və tələbələri ilə yanaşı, elmi-tədqiqat işi ilə məşğul olan bütün tədqiqatçılara xidmət göstərir.



Müsahibimiz özü də 1995-1999-cu illərdə Bakı Dövlət Universitetində təhsil alıb. İnformasiya və sənəd menecmenti (Kitabxanaçılıq) fakültəsinin əyani şöbəsinin bakalavriatura pilləsini, 1999-2001-ci illərdə isə həmin fakültənin magistratura pilləsini kitabxanaşünaslıq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Tarix üzrə fəlsəfə doktorudur.

Nigar İsmayılova 2020-ci ildən BDU-nun Elmi Kitabxanasının direktoru və BDU Elmi Şurasının üzvüdür.

Müsahibim qeyd edir ki, ümumiyyətlə, respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq gənclərə göstərilən dövlət qayğısının əhatə dairəsi kifayət qədər genişdir. Gənclər isə öz növbələrində dövlətin qayğısından, onlar üçün yaradılan əlverişli şəraitdən maksimum dərəcədə bəhrələnərək müstəqil Azərbaycanın inkişafı naminə böyük fəallıq nümayiş etdirirlər.

Mütaliəyə marağın yüksək olması qədər oxumaq üçün hansı kitabların seçilməsi də əhəmiyyətlidir. BDU-nun Elmi Kitabxanasının direktoru deyir: "Oxucularımızın böyük əksəriyyətinin tələbələr olduğunu nəzərə alaraq, tam əminliklə deyə bilərəm ki, daha çox üstünlük elmi-tədris ədəbiyyatına verilir. Təbii ki, bu o demək deyil ki, bədii ədəbiyyata ehtiyac duyulmur. Kitabxanamızın fondlarında qorunan "Klassik Azərbaycan ədəbiyyatı", "Müasir Azərbaycan ədəbiyyatı", "Azərbaycan antologiyaları", "Ədəbiyyat antologiyaları", "Dünya ədəbiyyatı", "Dünya ədəbiyyatı klassikləri", "Dünya uşaq ədəbiyyatı" və s. bu kimi seriyalarda nəşr olunan kitablara da daim tələbat vardır. Ali məktəb tələbələri isə hazırda daha çox ingilis dilli kitablara maraq göstərirlər.

- Bir zamanlar bu universitetdə təhsil alanlar lazım olan dərslikləri ya tapa bilmirdilər, ya da ana dilimizdə olmurdu. Bəs bugünkü tələbələr necə, belə problemlərlə qarşılaşırlarmı?

Sualımızı cavablandıran Nigar İsmayılova bildirir ki, hal-hazırda fondlarımızda müxtəlif səviyyələrdə təhsil alan tələbələr üçün tədris prosesində tələb olunan dərslik və dərs vəsaitlərinin böyük əksəriyyəti mövcuddur: "Bunların içində ana dilində olanların da sayı yetəri qədərdir. Bir şeyi də vurğulamaq istəyirəm ki, Bakı Dövlət Universitetinin "Nəşr evi" universitetin professor-müəllim heyətinin elmin müxtəlif sahələrinə dair fundamental əsərlərini çap edərək kitabxanaya təqdim edir".

Kitabxananın direktoru 2000-ci illərdə artıq Elmi Kitabxanada elektron kataloq və elektron kitabxananın yaradılması işlərinə başlanıldığını deyir. Bu iş hazırda da davam etdirilir.

Elmi Kitabxananın beynəlxalq nəşriyyatlarla əməkdaşlığı sayəsində istifadəçilər üçün 13000-dən çox elektron jurnal, 8000-ə yaxın elektron kitab və müxtəlifməzmunlu məlumat bazalarından istifadə imkanı yaradılıb. Elmi Kitabxananın oxucuları daha çox "Academic Search Premier", "MasterFILE", "GreenFILE", "Library", "İnformation Science & Technology Abstracts", "Business Source Premier", "eBooks" məlumat bazalarının elektron resurslarından istifadə edirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Xalq yazıçısı Mehdi Hüseyn - 115" adlı kitab sərgisi açılıb

**Milli Kitabxanada Xalq yazıçısı Mehdi Hüseynin 115 illiyi münasibətilə kitab sərgisi açılıb.**




Kitabxanadan bildirilib ki, "Xalq yazıçısı Mehdi Hüseyn - 115" adlı sərgidə yazıçının əsərləri yer alıb. Həmçinin dünya ədəbiyyatından tərcümələri və redaktə etdiyi, haqqında yazılmış kitablar Azərbaycan və müxtəlif dillərdə nümayiş olunub.

İctimai dövlət xadimi, şərəfli ömrünü vətəninə və xalqına həsr edən əbədiyaşar yazıçı 1909-cu il martın 22-də Qazax rayonunun II Şıxlı kəndində ziyalı ailəsində anadan olub. Mehdi Hüseyn ədəbiyyat və mədəniyyətimizi sənət inciləri ilə zənginləşdirən, əsərlərində bəşəri fikir və ideyaları əks etdirən istedadlı sənətkardır. "Daşqın", "Kin", "Fəryad" kimi povestlərin, "Tərlan", "Abşeron", "Qara daşlar", "Səhər", "Yeraltı çaylar dənizə axır" adlı romanların müəllifidir.

## ICESCO Ümumdünya Teatr Günü münasibətilə müraciət yayıb




**İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı dünya ictimaiyyətinin geniş şəkildə qeyd etdiyi Ümumdünya Teatr Günü münasibətilə müraciət yayıb.**

AZƏRTAC təşkilatın saytına istinadla xəbər verir ki, müraciətdə teatr sənətinin bəşəriyyətin mədəni irsinə verdiyi misilsiz töhfə vurğulanıb. ICESCO-nun müraciətində deyilir: "Hər il martın 27-də teatr sənətinin bir ilham mənbəyi kimi dünyada incəsənətin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqində rolunu, müxtəlifliyi və bəşər tarixinə mədəni təsirini təşviq edən, habelə onun qeyri-maddi sivilizasiya irsinin ayrılmaz hissəsi olduğunu vurğulayan Ümumdünya Teatr Günü qeyd edilir.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı bu fürsətdən istifadə edərək, teatr sənətini dəstəkləmək, mədəni dialoqu təşviq etmək və təşkilata üzv dövlətlərdə teatr artistlərinin bacarıqlarını inkişaf etdirmək öhdəliyini təzələyir. Təşkilat, eyni zamanda elmi nəşrlər və simpoziumlar vasitəsilə, xüsusən də süni intellektin yaratdığı problemlər və onun insan yaradıcılığının azaldılmasına təsiri fonunda əcdadların mirası olan bu vacib sənətin rolunun gücləndirilməsi istiqamətində göstərilən səyləri vurğulamağa çalışır".

ICESCO vurğulayıb ki, bununla əlaqədar olaraq, təşkilat islam dünyasında teatrın mədəni kimliyini möhkəmləndirməyə yönəlmiş bir sıra bələdçi nəşrləri, habelə məktəblilər üçün bədii və teatr təhsili üzrə rəhbər tədqiqatın hazırlanması üzərində işləyir.

Müraciətin sonunda qeyd olunub: "ICESCO Ümumdünya Teatr Günündə xüsusi ehtiyacı olan insanların teatr tamaşalarına inteqrasiyası və sosial birliyin möhkəmləndirilməsi ilə yanaşı, bu sənət növünü inkişaf etdirmək, artistlərin hazırlanmasını təşviq etmək və səhnə sənətinin qoruyub saxlamaq üçün üzv dövlətlərinin səylərini dəstəklədiyini bir daha təsdiqləyir.

Ümumdünya Teatr Günü 1961-ci ildə Beynəlxalq Teatr İnstitutu (ITI) tərəfindən təsis edilib. Beynəlxalq qeyri-hökumət təşkilatı olan ITI 1948-ci ildə UNESCO və beynəlxalq teatr ictimaiyyəti tərəfindən yaradılıb.

# Xocalı soyqırımı zamanı itkin düşən Akif Mahmudov torpağa tapşırılıb





Ceyranbatan qəbiristanlığında çoxdan idi ki, belə izdiham yaşanmırdı. Əllərində üçrəngli Azərbaycan bayraqları, təzə-tər qərənfillər, qızılgüllər tutan gənclər dəfn mərasiminə axışırdılar. Üzlərdə kədər oxunur, gözlərdə yaş gilələnmişdi. Onlar 32 il əvvəl Xocalıda soyqırımı gecəsində itkin düşən Akif Mahmudovla son vida mərasiminə gəlmişdilər.



Martın 27-də Ceyranbatan qəsəbəsindəki qəbiristanlıqda Xocalı rayonu ərazisində aşkarlanmış məzarlıqdan qalıqları tapılmış, Xocalı soyqırımı zamanı itkin düşmüş şəxslərdən Akif Seydulla oğlu Mahmudovun dəfn mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Xocalı və Abşeron Rayon İcra hakimiyyətlərinin rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xocalı Rayon Bölməsinin rəhbərliyi, şəhidin ailə üzvləri, qohumları, Xocalı rayon sakinləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dəfn mərasimində çıxış edən Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Milli Ordusunun əldə etdiyi möhtəşəm Zəfər və ötən ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Qarabağ torpaqlarının erməni işğalçılarından tamamilə azad edilməsi, ölkəmizin suverenlik və ərazi bütövlüyünü tamamilə bərpa olunması, uzun illərin həsrətindən sonra məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışından bəhs edib və bu yolda şəhid olanların hər birinin xatirəsinin əziz tutulduğunu vurğulayıblar.

Mərhum Akif Mahmudovun qardaşı Nəsib AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: "Ailədə 4 qardaş və 4 bacı olmuşuq. Akif ailəmizin altıncı övladı idi. Biz hər ikimiz könüllü olaraq özünümüdafiə dəstəsinin üzvləri sırasında idik. Faciə gecəsi mən "Artezian postu"nda olmuşam, Akif isə həmin gecə Fin evlərinin yaxınlığındakı postda idi. Həmin axşam ermənilərin çox dəhşətli artilleriya atəşləri başlandı. Yerli özünümüdafiə qüvvələri isə yalnız avtomat və pulemyotlarla silahlanmışdılar. Ermənilər isə tank, zirehli texnika ilə silahlanmışdılar və ən müasir döyüş silahları ilə Xocalını atəşə tuturdular. Onların aramsız atəşi qarşısında təxminən iki saat duruş gətirə bildik. Ailə üzvlərimizi atəş altından çıxararaq Ağdama gətirdim. Həmin gecə Akifdən xəbər tuta bilmədik, yenidən onun ardınca Xocalıya qayıtmaq istəyəndə yaralanaraq ermənilərə əsir düşdüm. 18 gün əsirlikdə qalandan sonra buraxıldım. Aradan ötən bu uzun illər ərzində Akifi itkin hesab etmişik. Xocalıda aşkarlanan kütləvi məzarlıqda qardaşımın da nəşi tapıldı".

Mahmudovlar ailəsinin yaxın qohumu Yaqub İsmayılov isə bunları əlavə edib: "Xocalı soyqırımı baş verəndə Akifin 30 yaşı var idi. Təzə ailə həyatı qurmuşdu, iki oğlu var idi. Akif son saata qədər Xocalını müdafiə edənlərdən olub. Ermənilər onu və onunla birlikdə bir neçə sakini əsir götürərək dəhşətli işgəncələr verdikdən sonra onları qətlə yetirib və Xalça fabriki adlanan ərazinin yaxınlığında basdırıblar. Həmin gecə onun anası Məruzə, bacısı Dilarə və bacısı uşağı da şəhid olub".

Akif 1962-ci il aprelin 26-da dünyaya gəlib, 1992-ci il fevralın 26-da itkin düşüb. 2024-cü il martın 27-də isə torpağa tapşırıldı.

Dəfn mərasimində mərhumun ruhuna dualar oxunub, fatihə verilib.

Akif Mahmudovun məzarı üzərinə əklillər qoyulub, qərənfil və qızılgüllər düzülüb.


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**

**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**

**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


NOVRUZ BAYRAMINIZ MÜBARƏK!
AZƏRBAYCAN
Bütöv Azərbaycanın Zəfər tonqalı
İLAXIR ÇƏRŞƏNBƏNİZ MÜBARƏK
Azərbaycan COP29-un gündəliyinə bəzi elementlər daxil edəcək
Xoş niyyətlər bayramı
Xankəndidə və Xocalıda da bayram tonqalları qalanır

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bakı Marionet Teatrının "Arşın mal alan" tamaşası Cenevrədə nümayiş olunub

Cenevrədə "Les Salons" teatrının səhnəsində Bakı Marionet Teatrının "Arşın mal alan" tamaşası uğurla nümayiş olunub.



AZƏRTAC xəbər verir ki, tamaşa Azərbaycan mədəni irsini təşviq edən, onu Avropada, xüsusilə də İsveçrədə populyarlaşdıran "İrs" (Heritage) Assosiasiyasının təşkilatçılığı ilə baş tutub. Assosiasiya Azərbaycanın zəngin tarixi, musiqi və teatr irsini təşviq etmək məqsədilə tanınmış dramaturqların, yazıçıların və bəstəkarların əsərlərini yerli ictimaiyyətə təqdim edir. Bu dəfə assosiasiyanın təşkilatçılığı ilə dahi bəstəkar və dramaturq Üzeyir Hacıbəylinin milli folklorumuzun incisi olan "Arşın mal alan" əsəri Cenevrədə təqdim edilib. Bakı Marionet Teatrının yaradıcısı və bədii rəhbəri, Əməkdar incəsənət xadimi Tərlan Qorçunun konseptual ideyasına uyğun olaraq, Üzeyir Hacıbəylinin yaradıcılıq irsi bu teatrın repertuar siyasətini təşkil edir. "Les Salons" teatrında "İrs" Assosiasiyasının üzvləri "Arşın mal alan" tamaşasının nümayişi çərçivəsində "Leyli və Məcnun" tamaşasının kuklaları, bu tamaşa üçün Azərbaycan, Gürcüstan və Baltikyanı ölkələrin rəssamlarının hazırladığı dekorasiyalar, geyimlər, ağac üzərində oymalar sərgilənib. Bakı Marionet Teatrının hazırladığı "Arşın mal alan" tamaşası ilk olaraq Cenevrədə BMT-də çalışan diplomatik korpusun üzvləri üçün nümayiş olunub. Sonra tamaşa iki gün ərzində üç dəfə yerli ictimaiyyət üçün nümayiş etdirilib. Beləliklə, isveçrəli teatrsevərlər gənc Əsgərlə Gülçöhrənin səmimi sevgi axtarışında hekayətindən bəhs edən Azərbaycan folklorunun incisi "Arşın mal alan" tamaşası vasitəsi ilə XX əsrin əvvəllərinin Bakısı ilə tanış olublar.

Bakı Marionet Teatrı Azərbaycan xalqının zəngin mədəni irsinin ən müxtəlif sahələrini bir araya gətirir, poeziya, musiqi, milli geyim, naxış və rəqslərimizə dair dolğun təsəvvür yaradır. Burada müasirlik tarixlə ayaqlaşır, klassik irs modern axtarışlarla uzlaşır, ənənələr yeniliklərə qovuşur, Şərq ilə Qərb birləşir.

Üzeyir musiqisinin qüdrəti teatrın hər bir marionet kuklasında, dekorasiyalarda, aktyorlarımızın ifaçılıq tərzində öz əksini tapır. Məhz bunun sayəsində teatrın tamaşaları, dilindən və yaşından asılı olmayaraq hər bir kəs üçün anlaşıqlı və maraqlıdır. Fransa, Almaniya, ABŞ, Rusiya, Polşa kimi ölkələrdə uğurla nümayiş olunub.

# Hayastanda hakimiyyətdaxili savaş güclənir

## Müxalifət küçə mübarizəsini bərpa edir

Bu günlərdə Hayastanda narazılıq və qarşıdurma hallarının daha da artması, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin bir qədər də kəskinləşməsi müşahidə olunur.



Müxalifət gələn aydan planlaşdırdığı aksiyalarla baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyir. Etirazlara səbəb kimi hakimiyyətin yürütdüyü uğursuz siyasət göstərilir. Müxalifətçilər baş nazirin xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, xalqı dövlətçiliyin itirilməsi ilə üz-üzə qoyduğunu iddia edirlər.

"Joğovurd" nəşri yazıb ki, müxalifət yaxın vaxtlarda küçə mübarizəsini bərpa etmək niyyətindədir. Söhbət xüsusilə Ermənistan parlamentinin "Hayastan" fraksiyasından gedir. Qeyd edilib ki, bu günlərdə müxalifətçilər mütəmadi olaraq görüşlər keçirir və küçə mübarizəsi planını müzakirə edirlər ki, indiki iqtidarın hakimiyyətdən uzaqlaşdırılmasına nail ola bilsinlər. Müxalifət ilkin olaraq aprel ayından etibarən aksiyaları bərpa etmək niyyətindədir.

Qeyd edək ki, son vaxtlar "Hayastan" fraksiyasının deputatları mütəmadi olaraq vilayətlərə baş çəkir və sakinlərlə görüşür, təhlükəsizlik məsələlərini müzakirə edirlər. Bu görüşlər həm də vilayət sakinlərini küçə mübarizəsi prosesinə cəlb etmək məqsədi daşıyır. Küçə mübarizəsi ətrafında geniş konsolidasiya yaratmaq üçün müxtəlif parlamentdənkənar qüvvələr və fiqurlarla da müzakirələr aparır. Bütün bunların fonunda hakimiyyətdaxili mübarizə də İrəvanda geniş müzakirə predmetinə çevrilməkdədir. Düzdür, iqtidar düşdüyü vəziyyətə görə bir çox xarici dövlətləri, o cümlədən də əsas müttəfiqi olan Rusiyanı ittiham edir. Elə buna görədir ki, bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır.

"4rd.am" nəşri yazır ki, Nikol Paşinyan nə qədər Hayastanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının üzvlərinin yekdilliklə onun fikrini təkrarlamalarına məcbur etsə də, daxili və xarici siyasət məsələlərində partiyada əvvəlki birlik yoxdur. Qeyd edilib ki, artıq demək olar ki, nikolçular və qriqoryançılar olmaqla 2 əks qütb yaranıb. Söhbət Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryandan gedir. O, həmişə güclü qərbyönlü olub, anti-Rusiya bəyanatları verib, lakin Ermənistanın Aİ üzvlüyünə namizəd olmaq üçün müraciət təqdim etməsi məsələsinin müzakirəsi zamanı öz mövqeyi ilə partiya üzvlərini təəccübləndirib, Paşinyanın nəyin bahasına olursa-olsun və tez bir zamanda Avropaya meyil etmək siyasətinə qarşı çıxıb. Qriqoryan müzakirələr zamanı Rusiya Federasiyası ilə bağlı müsbət mövqe bildirməsə də, Hayastanın Rusiya Federasiyasından asılılığının və sonuncudan ayrılmasının mənfi nəticələrini təqdim edib. O, belə mövqenin tərəfdarıdır ki, Hayastanın inkişafı regional formatda mümkündür və burada Rusiyanın mühüm rolu var. "İstisna deyil ki, hakimiyyət reytinqinin aşağı düşdüyünü anlayaraq, komanda daxilində növbəti seçkilərdə idarə oluna biləcək əks çəkiyə malik "müxalifət" qüvvəsi formalaşdırmağa çalışır" - deyə nəşr bildirib.

Beləliklə, müxaliflər İrəvanda etirazlara başlayacaqlarını bəyan etməklə bu yoldan dönməyəcəklərini bildirirlər. Paşinyan isə ona qarşı yönəlmiş təhdidləri güc yolu ilə aradan qaldırmağı düşünür. Bu isə o deməkdir ki, Hayastanda qarşıdakı dövrdə qanlı günlər yaşana bilər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Antibiotiklər həkim məsləhəti ilə istifadə edilməlidir

## Əks təqdirdə bu dərmanlar orqanizmdə çox ciddi fəsadlara səbəb ola bilər

XX əsrin ən böyük kəşfi olan antibiotiklər aşkar edilənə qədər infeksion xəstəliklər milyonlarla insanın ölümünə səbəb olurdu.




İndiyə qədər 4 mindən çox antibiotik kəşf edilib, 200 növ antibiotik hazırlanıb. Amma hazırda onlardan cəmi 60-ı istifadə olunur. Bunun səbəbi isə mikrobların özlərini antibiotiklərin hücumundan qorumaq üçün onlara qarşı davamlılıq yaradıb antibiotiki parçalayan ferment hazırlamasıdır. Ən pisi də ondan ibarətdir ki, daima bir-biri ilə cütləşən bu mikroblar antibiotiklərə qarşı davamlılığı bir növdən digərinə də ötürürlər. Buna görə mütəxəssislər daim yeni növ antibiotiklər hazırlamağa məcbur olurlar. İlk antibiotik olan penisillin hazırda öz əhəmiyyətini demək olar ki, tamamilə itirmişdir. Buna səbəb isə əksər mikrobların penisillini parçalayan fermenti hazırlamaqla, özlərini ondan qoruya bilməsidir.

Antibiotikləri doğru zamanda düzgün dozada istifadə etmək lazımdır. Əks halda bağırsaq florasında ciddi pozulmalar baş verir. Bu vəziyyət insanın immun sisteminin çökməsinə və xroniki xəstəliklərin yaranmasına da şərait yaradır. Antibiotik istifadəsi nəticəsində əvvəllər mövcud olmayan xəstəliklərin yaranmasının əsas səbəbi budur.

Qastroenteroloq Ülviyyə Quliyeva deyir ki, antibiotik insan orqanizmində hər hansı bir bakterial infeksiya baş verən zaman istifadə olunur: "İstifadə zamanı antibiotiklər patogen, yəni zərərli bakteriyalarla yanaşı, eyni zamanda bağırsaq florasındakı faydalı bakteriyaları da məhv edir. Bunun nəticəsində insanda qarın ağrısı, qusma, ishal, nadir hallarda qəbizlik baş verə bilər. Ona görə də antibiotikləri həkim təyinatı olmadan istifadə etməməliyik".

Ü.Quliyevanın sözlərinə görə, antibiotiklərin istifadəsi zamanı bakteriyaların divarına, zülal sintezinə, nuklein turşularına antiotik təsir olur: "Bu zaman antibiotikin orqanizmə müxtəlif mənfi təsirlərinin şahidi olmaq mümkündür. Ona görə də uşaqlara antibiotik vurularkən diqqətlə yanaşmaq lazımdır. Çünki böyüyən orqanizmə düzgün olmayan dozada seçilmiş antibiotik mənfi təsir edə bilər".

Qastroenteroloq bildirir ki, antibiotiklər böyrək və qaraciyər vasitəsilə orqanizmdən xaric olunur. Ona görə də yaşlılarda və xroniki xəstələrdə buna xüsusi diqqət yetirmək lazımdır. Antibiotiklərin qəbulu həkim nəzarəti olmadan icra edilməməlidir. Əks halda orqanizmdə qaraciyər və böyrək zədələnmələrinə gətirib çıxara bilər.

Sağlamlığımız üçün antibiotik istifadəsinə diqqət yetirilməli, lazımsız və həkim nəzarəti olmadan qəbul edilməməlidir. Xüsusilə körpələrdə ən yaxşı antibiotikin ana südü olduğu unudulmamalıdır. Ümumilikdə isə mümkün olduğu qədər az antibiotik istifadə etməyə, yalnız həkimin məsləhət gördüyü dozada və müddətdə qəbul etməyə diqqət yetirilməlidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**ELDAR ƏFƏNDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Raqif Məmmədli və İxtiyar Hüseynli İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisinin müşaviri, Əməkdar jurnalist Abbas Əliyevə anası

**RÜXSARƏ SƏFƏRƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin əməkdaşı Namiq Musayevə atası

**SARİF MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4300
Sifariş 645

Qiyməti 60 qəpik